***"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2023-cü il üzrə***

# MƏLUMATI



BAKI • 2024

**“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında”**
**Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən**
**Azərbaycan Respublikası**
**Ailə, Qadın və Uşaq Problemləri**
**üzrə Dövlət Komitəsinin**
**2023-cü il üzrə**

# MƏLUMATI

BAKI – 2024

# M Ü N D Ə R İ C A T


GİRİŞ....................................................................................................4

## 1. GENDER BƏRABƏRLİYİNİN TƏMİN EDİLMƏSİ İLƏ BAĞLI DÖVLƏT SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ DÖVLƏTİN VƏZİFƏLƏRİ
**(Maddə 2.0.4, 3, 4, 5, 6)**

1.1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi..........................................10
1.2. Gender bərabərliyi mədəniyyətinin təbliği..............................................21
1.3. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması..........25
1.4. Dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində gender bərabərliyinin qorunması..........46
1.5. Şəhər və rayon icra hakimiyyətləri tərəfindən gender bərabərliyinin təmin edilməsi..........82

## 2. GENDER BƏRABƏRLİYİNİN MÜXTƏLİF SAHƏLƏR ÜZRƏ TƏMİNATI
**(Maddə 7-16)**

2.1. Əmək hüquqlarının həyata keçirilməsində gender bərabərliyinin təmin edilməsi..........86
2.2. Təhsil hüquqlarının həyata keçirilməsində bərabər imkanların təmin edilməsi..........93
2.3. İnformasiya-kommunikasiya texnologiyaları sahəsində gender bərabərliyinin təmin edilməsi..........97
2.4. İqtisadi və sosial münasibətlərdə gender bərabərliyinin təminatları............100
2.5. Qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları və siyasi partiyaların fəaliyyətində gender bərabərliyinin təmin edilməsi..........125

## 3. 2023-cü ildə AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİNİN TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ ƏLDƏ EDİLMIŞ NƏTİCƏLƏR, QARŞIYA QOYULAN VƏZİFƏLƏR VƏ TÖVSİYƏLƏR

3.1. Nəticələr..........130
3.2. Qarşıya qoyulan vəzifələr və tövsiyələr..........131

Gender məsələləri üzrə məsul şəxslərin siyahısı..........133

# İXTİSARLAR

**AR** – Azərbaycan Respublikası

**NMR** – Naxçıvan Muxtar Respublikası

**AQUPDK** – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

**UADM** – Uşaq və Ailələrə Dəstək Mərkəzi

**KOBİA** – Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

**İKT** – İnformasiya və Kommunikasiya Texnologiyaları

**EKTİS** – Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi

**AHİK** – Azərbaycan Həmkarlar ittifaqları Konfederasiyası

**HİRK** – Həmkarlar İttifaqı Respublika Komitəsi

**CEDAW** – Birləşmiş Millətlər Təşkilatının Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına dair Konvensiyası

**AFAQ** – Aqrar Fəaliyyətli Azərbaycan Qadınları

**GIZ** – Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**FAO** – Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı

**BƏT** – Beynəlxalq Əmək Təşkilatı

**DİM** – Dayanıqlı İnkişaf Məqsədləri

**AQSİA** – Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası

**İSİM** – Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi

**SİF** – Sahibkarlığın İnkişafı Fondu

# GİRİŞ

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2023-cü il üzrə Məlumatı ötən il respublikamızda bu sahədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri üzrə beynəlxalq öhdəliklərin yerinə yetirilməsi ilə bağlı görülmüş işləri və əvvəlki illərlə müqayisədə irəliləyişlərin dinamikasını özündə əks etdirir.

Məlumat hazırlanarkən Azərbaycan Respublikasının 62 mərkəzi, 76 yerli icra hakimiyyəti orqanlarının, Naxçıvan Muxtar Respublikasının mərkəzi qurumlarının və yerli icra hakimiyyəti orqanlarının, bir sıra qeyri hökumət təşkilatlarının məlumatlarından istifadə edilmişdir.

**Məlumat "Gender (kişi və qadınların) bərabərliyinin təminatı haqqında Qanun"un müvafiq maddələrindən irəli gələn 3 istiqaməti əhatə edir.**

– **"Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri və dövlətin vəzifələri"** bölməsinə gender bərabərliyinin təmin edilməsi ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi, institusional mexanizmlərin fəaliyyəti, gender bərabərliyi mədəniyyətinin təbliği, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində gender bərabərliyinin təminatına dair məlumatların icmalı daxil edilmişdir.

– **"Gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatı"** bölməsi əmək hüquqlarının həyata keçirilməsinə, məşğulluğun dəstəklənməsinə, təhsilin ayrı-ayrı pillələrində təhsil hüquqlarının həyata keçirilməsinə, iqtisadi və sosial münasibətlərdə, qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları və siyasi partiyaların fəaliyyətində gender bərabərliyinin təmin edilməsinə dair məlumatları əhatə edir.

– **"Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində əldə edilmiş nəticələr, qarşıya qoyulan vəzifələr və tövsiyələr"** bölməsində gender bərabərliyinin təminatı sahəsində formalaşan müsbət tendensiyalar və bu siyasətin geniş şəkildə vüsət alması, zəruri tədbirlərin keçirilməsi üçün tövsiyələr qeyd edilmişdir. Həmçinin gender məsələləri üzrə məsul şəxslərin siyahısı göstərilmişdir.

**Məzmun və məlumatların əhatəliliyi baxımından təqdim edilən illik Məlumat 2022-ci il üzrə Məlumatdan aşağıdakı məqamlara görə fərqlənir:**

- *Naxçıvan Muxtar Respublikasının məlumatları daxil edilmişdir.*
- *Gender məsələləri üzrə məsul şəxslərin siyahısı əlavə olunmuşdur.*
- *Dövlət və qeyri-dövlət yardım mərkəzlərinin xidmətlərindən yararlanmış məişət zorakılığından zərər çəkmiş şəxslər barədə məlumat verilmişdir.*
- *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Sosial xidmət müəssisələrinə yerləşdirilən (çətin həyat şəraitində yaşayanlar və ağıllar) şəxslərin gender bölgüsü daxil edilmişdir.*
- *İcbari tibbi sığortanın Xidmətlər zərfi çərçivəsində TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisələrinə edilmiş müraciətlərin təhlili göstərilmişdir.*

Məlumatın hazırlanmasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ötən **il ərzində 6 müxtəlif mövzuda aparılan araşdırma və təhlilə istinad edilmişdir:**

– *Gələcəyin ailə modelini simvollaşdıran əsas dəyərlər;*

– *Azərbaycanda dövlət qulluğuna qəbul ilə əlaqədar gender təhlili;*

– *Qadınların qeyri-formal məşğulluğu;*

– *Ölkədə qohum evlilikləri üzrə vəziyyətin öyrənilməsi;*

– *Azərbaycanda erkən uşaqlıq dövründə xidmətlərin əlçatanlığı və təminatı.*

– *Tibb müəssisələrindən kənarda baş verən doğuş faktlarına nəzarətin gücləndirilməsi, belə faktlar əsasında uşaq evliliklərinin aşkarlanması üzrə Analitik hesabat*

Məlumatda həmçinin gender bərabərliyinin təmin edilməsi sahəsində perspektivlər, hüquqi müstəvidə əldə olunan nailiyyətlər, beynəlxalq əməkdaşlıq, mövcud problemlər və maneələr, gələcəkdə icrası planlaşdırılan məsələlər və hədəflər öz əksini tapmışdır.

Məlumatda əks olunan statistik göstəricilər Dövlət Statistika Komitəsinin və digər dövlət orqanlarının məlumatlarına, Dövlət Komitəsinin qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlarla birgə həyata keçirdiyi araşdırmaların, təhlillərin və sorğuların nəticələrinə əsaslanmışdır.

Dövlət Komitəsi 2023-cü ildə öz əsasnaməsində müəyyən edilmiş istiqamətlər üzrə vəzifələrini həyata keçirmişdir. AQUPDK il ərzində bütün dövlət orqanları ilə səmərəli əməkdaşlıq etmiş, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə birgə layihələr icra etmişdir. Komitə tərəfindən təşkil olunan tədbirlərdə mərkəzi və yerli icra hakimiyyəti, məhkəmə və hüquq-mühafizə orqanlarının, habelə yerli özünüidarəetmə orqanlarının, vətəndaş cəmiyyətinin nümayəndələri yaxından iştirak etmişlər.

2023-cü il önəmli tədbirlərlə yadda qalmışdır. Gender bərabərliyinin təmin








olunması, qadınların kişilərlə bərabər səlahiyyətləndirilməsi istiqamətində həm yerli, həm də beynəlxalq səviyyəli tədbirlər keçirilmiş, vacib əhəmiyyətli məsələlər müzakirə olunmuşdur.

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun iyul ayında nazirlər səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elan etdiyi təşəbbüs çərçivəsində 20-21 noyabr 2023-cü il tarixində Bakı şəhərində 40-a yaxın ölkənin və bir sıra beynəlxalq təşkilatın yüksək səviyyəli qonaqlarının iştirakı ilə Qoşulmama Hərəkatının **"Qadın Hüquqlarının İnkişafı və Qadınların Səlahiyyətləndirilməsi"** üzrə Konfransı keçirilmişdir.

Konfrans əsnasında Qoşulmama Hərəkatı çərçivəsində qadın hüquqlarının inkişafı, qadınların səlahiyyətləndirilməsi, habelə onların dayanıqlı inkişaf, iqtisadi artım, sülh və təhlükəsizlik məsələləri və digər sahələrdəki önəmli rolu kimi mövzularda interaktiv panel müzakirələri edilmişdir.

6-7 dekabr 2023-cü il tarixində AQUPDK tərəfindən **"Məişət zorakılığının qarşısının alınması: imkanlar və perspektivlər"** mövzusunda Beynəlxalq Konfrans keçirilmişdir.

Konfrans 5 panel sessiyası üzrə (I panel "Məişət zorakılığından zərərçəkmiş şəxslərin ədalət mühakiməsinə çıxış imkanları", II Panel "Məişət zorakılığı hallarının profilaktikası və aşkarlanması", III Panel "Məişət zorakılığına multidisiplinar yanaşma və mütəxəssis hazırlığı", IV Panel "Məişət zorakılığının qarşısının alınması və reabilitasiya tədbirlərinin həyata keçirilməsində







QHT-lərin rolu”, V Panel “Məişət zorakılığında medianın rolu” mövzusunda) işini davam etdirmişdir.

Konfransda məişət zorakılığı ilə mübarizəyə dair Milli Fəaliyyət Planının icrası ilə bağlı məlumatlar, bu sahədə digər ölkələrdəki müsbət təcrübələr təqdim edilmiş, mövcud problemlər və perspektivlər barədə panel müzakirələri keçirilmişdir.

1998-ci ildən etibarən hər beş ildən bir Azərbaycan qadınlarının qurultayları keçirilir. Bu qurultaylar dövlət qadın siyasəti sahəsində ən əlamətdar və böyük hadisələrdən biri kimi qiymətləndirilir. Qadın hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin olunması sahəsində nailiyyətlərin müzakirəsi, qarşıda dayanan vəzifələrin müəyyən edilməsi məqsədilə keçirilən hər bir Qurultayın özünəməxsus mövzusu olur.

19 oktyabr 2023-cü il tarixində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi, eyni zamanda ilk Qadın Qurultayının 25 ili münasibətilə **Azərbaycan Qadınlarının VI Qurultayı** keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qurultay iştirakçıların təbrik məktubu ünvanlamışdır. Qurultayın sonunda növbəti beş ilə dair Qətnamə qəbul olunmuş, Azərbaycan Qadınlarının Prezidentə Müraciəti ünvanlanmışdır.

Qurultay açılış hissəsindən sonra 4 panel üzrə  “Ulu Öndər Heydər Əliyevin əsas missiyası: Böyük Qayıdış”, “Gender məsələləri hüquqi müstəvidə: Mövcud vəziyyət, qarşıda duran məsələlər”, “Sosial-iqtisadi islahatların gender aspektləri. Formal və qeyri formal məşğulluqda qadın təmsilçiliyi”, “Qadın hüquqlarının həyata keçirilməsində çağırışlar və qlobal tendensiyalar” mövzularında işini davam etdirmişdir.








*Azərbaycan Qadınlarının son Qurultayından ötən beş il ərzində ölkədə qadınların ictimai-siyasi və sosial həyatında ciddi dəyişikliklər baş vermişdir.* Ölkədə regionların sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər, qadınların vəziyyətinə müsbət təsirlərini göstərmiş, onların iqtisadi cəhətdən gücləndirilməsinə, regiondakı irəliləyişlərə öz töhfələrini vermə imkanlarının genişlənməsinə səbəb olmuşdur. Qadın və qızlar arasında onlar üçün qeyri-ənənəvi olan təhsil və məşğulluq sahələrinə, xüsusilə də elm, texnologiya, mühəndislik, maliyyə sektorlarına maraq artmışdır. Bu dövrdə dövlətin qadın sahibkarlığına verdiyi dəstək artıq öz müsbət nəticələrini verməkdədir. Dövlət idarəçiliyində və özəl sektorda gender bərabərliyinin təşviqi üzrə tədbirlər bu sahədə məlumatlılığın artması və gender amilinin qurumların və iri şirkətlərin daxili siyasətlərinə daxil edilməsi ilə nəticələnmişdir. Çətin həyat şəraitində olan qadınların müdafiəsi gücləndirilmiş və bu istiqamətə maddi və insan resurslarının cəlb olunmasına, habelə sosial infrastrukturun yaradılmasına diqqət artırılmışdır.

Lakin müsbət dəyişikliklərlə yanaşı ailədə və ictimai həyatda cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə səbəb olan bir sıra amillər, xüsusilə mənfi adət və təcrübələr, gender əsaslı zorakılıq, erkən nikah halları, təhsil, əmək, reproduktiv sağlamlıq kimi hüquqların reallaşdırılması ilə bağlı problemlər hələ də ciddi problem olaraq qalmaqdadır.

Ölkədə idarəetmənin müxtəlif səviyyələrində qadınların kişilərlə bərabər təmsilçiliyinin genişləndirilməsi, onların iqtisadi fəallığının artırılması, qadın sahibkarlığının stimullaşdırılması, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması ilə bağlı tədbirlərin daha da gücləndirilməsinə ehtiyac vardır.





# 1

# GENDER BƏRABƏRLİYİNİN TƏMİN EDİLMƏSİ İLƏ BAĞLI DÖVLƏT SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ DÖVLƏTİN VƏZİFƏLƏRİ

(Maddə 2.0.4, 3, 4, 5, 6)

## 1.1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 avqust 2023-cü il tarixli 4059 nömrəli Sərəncamı ilə **"Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"** təsdiq edilmişdir. Sərəncamda hamı üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin formalaşması, ailədaxili mübahisələrin həlli ilə bağlı mediasiya xidmətlərinin tətbiqinin genişləndirilməsi üçün müvafiq tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.*

Ölkədə əmək münasibətlərinin gender bərabərliyi prinsipləri əsasında qurulmasının, qadınların məşğulluq imkanlarının genişləndirilməsinin və daha yüksək əmək haqqı ödənilən sahələrdə çalışmasının təmin edilməsi məqsədilə bu sahədə mövcud qanunvericiliyin təkmilləşdirilməsi üzrə işlər aparılır.

Belə ki, "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı"nın və "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahısı"nın və onların tətbiqi qaydalarının təsdiq edilməsi və "Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 20 oktyabr tarixli 170 nömrəli Qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 172 nömrəli Qərarı qəbul edilmişdir. Qərarın təsdiqi ilə mövcud qanunvericilikdə qadınların əməyi qadağan olunan 674 peşə (vəzifə) və iş yeri azaldılaraq 204 müəyyən edilir, eyni zamanda qadağan edilən bu peşə (vəzifə) və iş yerləri bütün qadınlara deyil, yalnız hamilə və ya bir yaşınadək uşağı olan qadınlara tətbiq edilir.

Bununla yanaşı, cinsi ayrı-seçkiliyin aradan qaldırılması məqsədilə **"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2023-cü il 22 dekabr tarixli 1063-VIQD nömrəli Azərbaycan Respublikasının Qanununa** əsasən Məcəllənin 98-ci və 242-ci maddələrinə dəyişiklik edilmişdir. Bu dəyişikliyə əsasən hamilə, 14 yaşınadək uşağı olan, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan qadınların kişilərlə bərabər qaydada gecə vaxtı yerinə yetirilən işlərə, iş vaxtından artıq işlərə cəlb edilmə və istirahət, iş günü hesab edilməyən bayram və digər günlərdə işə cəlb edilməsinə və ezamiyyətə göndərilməsinə onların yazılı razılığı ilə icazə verilir.

Eyni zamanda, hamiləliyə və doğuşa görə arvadı məzuniyyətdə olan kişilərə tibb müəssisəsinin arayışı əsasında doğuş gününə təsadüf edən ərəfədə 14 təqvim günü müddətində ödənişli məzuniyyət verilməsi ilə bağlı dəyişiklikləri ehtiva edən "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanun layihəsi hazırlanmışdır.

“Beynəlxalq Əmək Təşkilatının “Kişi və qadın işçilər – ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında” 156 nömrəli Konvensiyasına qoşulmaq barəsində” 2010-cu il 11 may tarixli 1003-IIIQ nömrəli Azərbaycan Respublikasının Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Əmək Məcəlləsinə ailə vəzifələri olan işçi anlayışının daxil edilməsinə dair layihə hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2307 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı”nın icrasının təmini məqsədilə AQUPDK-si tərəfindən məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, məişət zorakılığından zərər çəkmiş şəxslər üçün əlaqələndirmə mexanizminin yaradılması, məişət zorakılığından zərər çəkmiş şəxslərə pulsuz hüquqi yardım göstərilməsi barədə təklifləri özündə əks etdirən normativ hüquqi akt layihələri hazırlanmışdır.

Hazırlanmış hüquqi akt layihələrindən 2 qanun layihəsi - “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu və “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasının Milli Məclisinin 30 dekabr 2023-cü il tarixli plenar iclasının gündəliyinə müzakirəyə çıxarılması üçün (birinci oxunuşa) təklif olunmuş və növbəti oxunuşa tövsiyə edilmişdir.



# Gender bərabərliyi siyasətinin təbliği və təşviqi, gender əsaslı ayrı-seçkiliyin qarşısının alınması sahəsində ixtisaslaşmış institusional mexanizmlərin fəaliyyəti

## Uşaq və Ailələrə Dəstək Mərkəzləri (UADM)

Komitənin 11 Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən erkən nikah, məişət zorakılığı, sağlam həyat tərzi və reproduktiv sağlamlığın, milli mənəvi dəyərlər və vətənpərvərlik, insan hüquqlarının təbliği eyni zamanda dövlət proqramları və milli fəaliyyət planlarının müvafiq bəndlərinin icrası məqsədilə 601 tədbir keçirilmiş, həmin tədbirlərdən 27807 nəfər iştirakçı bəhrələnmişdir.

Mərkəzlər tərəfindən əhaliyə müxəllif mövzularda 6417 ədəd maarifləndirici vərəqələr paylanılıb.

"Erkən nikah və qohum evliliyinin fəsadları" ilə bağlı 36 tədbir keçirilmiş 2268 nəfər bəhrələnmişdir. Tədbirlərdə idarə, müəssisə və təşkilatlar, icma sakinləri, ümumtəhsil müəssisələrinin müəllim şagird kollektivi, tələbələr iştirak edib. Həmçinin tədbirlərdə 3360 nüsxə maarifləndirici materiallar paylanıb, onlardan 2737-i "Ailə başçısına məktub" adlı maarifləndirici vərəqələrdir.

15 May Beynəlxalq Ailə Günü münasibətilə aidiyyəti qurumların dəstəyi ilə maarifləndirici görüşlər keçirilib, şəhid və qazi ailələri, uzunömürlü və həssas təbəqədən olan ailələrə səfərlər edilib, yeniyetmə və gənclərin nümunəvi ailələrlə görüşləri təşkil edilib, ümumilikdə 800 nəfər faydalanıb.

2023-cü il ərzində 11 Uşaq və Ailələrə Dəstək Mərkəzlərinə 3043 nəfər tərəfindən müxtəlif mövzularda 3096 müraciət daxil olub. Müraciət edənlərin 2104 nəfəri qadındır.

Mərkəzlər (UADM) tərəfindən psixoloq, sosial işçi və hüquqşünasların iştirakı ilə 8 "açıq qapı" günü keçirilib. Ümumilikdə "açıq qapı" günlərində 931 nəfər müraciət edib. İl ərzində UADM əməkdaşları tərəfindən 1001 ailəyə səfər edilib.

Təhsildən yayınma ilə bağlı 68 ailəyə, qəyyumluğa və himayəyə verilmiş uşaqlarla bağlı 56 ailəyə, erkən nikah faktları ilə bağlı 27 ailəyə, 16 yaşında ana olmuş qızlarla bağlı 12 ailəyə monitorinq səfərləri edilib.

Ümumilikdə 32399 nəfər Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyətindən bəhrələnmişdir. 2022-ci illə müqayisədə bu rəqəm 11% artmışdır.

*Səmərəli fəaliyyətini nəzərə alaraq UADM-lərin sayının artırılmasına ehtiyac var.*

## Qadın Resurs Mərkəzləri

**Ümumilikdə 17 Qadın Resurs Mərkəzi fəaliyyət göstərir və 8336 üzvü var. Layihə çərçivəsində cəmi 824 nəfər qadın biznes fəaliyyətinə başlamışdır.** Bu da sosial iştirak baxımından müsbət dinamikanı əks etdirir.

2023-cü ildə Qadın Resurs Mərkəzləri fəaliyyətini davam etdirmiş, qadınların məlumatlılığının və fəallığının artırılmasına, məşğulluğunun təmin olunmasına, onlar arasında sahibkarlığın inkişafına dəstək göstərmişdir.

Qadın Resurs Mərkəzləri tərəfindən qadınlar üçün *"İnsan hüquqları", "Gender bərabərliyi", "Liderliyin Əsasları və Özünə İnamın Formalaşması", "Gənclərin asudə*

*vaxtlarının səmərəli təşkili", "Gender əsaslı zorakılıq və onunla mübarizə yolları", "Sahibkarlıq və Biznes bacarıqlarının artırılması", "Karyera qurmağın sirləri" "Sosial sahibkarlıq", "Məşğulluq və peşə ayrı-seçkiliyinə dair məlumatlılığın artırılması", "Marketinq, Brendinq və Satış", "Strateji planlaşdırma", "Fandreyzinq Sessiyası", "Rəqəmsal Marketinq və Sosial Media Marketinqi", "Sosial medianın idarə edilməsi", "Mühasibat uçotu və vergilərin hesablanması", "Biznesin dayanıqlı inkişafı məqsədi", "QHT-lərin yaradılması, idarə olunması və maliyyə vəsaitlərinin toplanması", "Kommunikasiya və Təşviqat", "Qida təhlükəsizliyi və Gigiyena", "Kompüter bacarıqları", "Valideyn və Uşaq münasibətlərinin möhkəmləndirilməsinə təsir edən amillər", "Stress və travma"* mövzularında təlimlər təşkil olunmuşdur. **Bu təlimlərdən 2575 nəfər bəhrələnmişdir.**

Mərkəzlər tərəfindən *"Dərzilik", "Qənnadıçılıq", "Dırnaq qaynağı", "Bərbərlik", "Kargüzarlıq", "Kompüter bacarıqları", "1 C Mühasibatlıq", "Arıçılıq"* sahələrini əhatə edən **peşə kursları təşkil olunmuşdur. Peşə kurslarından 395 nəfər qadın yararlanmışdır.**

**İl ərzində Mərkəzlər tərəfindən 182 təlim, 311 tədbir keçirilmiş, 90 qadın biznes fəaliyyətinə başlamışdır. 941 nəfərə psixoloji, 1331 nəfər hüquqi yardım göstərilmişdir.**

Xaçmaz, Tərtər, Bərdə, Biləsuvar Qadın Resurs Mərkəzinin üzvləri olan qadın sahibkarlar Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə keçirilən Aqrar İnnovasiya Festivalında iştirak etmiş, əl işlərinin nümayişini və satışını həyata keçirmişlər.

Həmçinin, Xaçmaz, Zaqatala, Xəzər, Masallı, Biləsuvar rayonlarında təşkil olunan satış sərgilərində Qadın Resurs Mərkəzlərinin biznes qaliblərinin istehsal etdikləri məhsulların nümayişi və satışı təşkil edilmişdir.

Ümumilikdə 2023-cü ildə Qadın Resurs Mərkəzlərinin fəaliyyətindən 11679 nəfər bəhrələnmişdir.

**2023-ci il ərzində Resurs Mərkəzlərindən 11679 nəfər bəhrələnmişdir**



## Gender məsələləri üzrə məsul şəxslər

16 iyun 2022-ci il tarixində BMT-nin qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin (CEDAW) Cenevrə şəhərində keçirilmiş 82-ci sessiyasında Azərbaycan Respublikası Hökumətinin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiyası"nın altıncı dövri məruzəsi üzrə növbəti atılmalı olan addımlara dair tövsiyələr verilmişdir. Qurumlararası əlaqələndirilmiş fəaliyyətin təşkili məqsədilə Dövlət Komitəsi yanında aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəhbər və mütəxəssis heyətinin təmsil olunduğu iki **İşçi Qrup yaradılmışdır.** İşçi Qrup BMT Komitəsinin yekun tövsiyələrinin icrası ilə bağlı yol xəritəsinin müəyyən edilməsi, fəaliyyətlərin əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsi, müəyyən edilmiş müddətdə ölkə hesabatının hazırlanması və müzakirəsinin həyata keçirilməsi ilə məşğuldur. **Bu İşçi Qrupa 17 dövlət orqanının (qurumunun) nümayəndələri, xüsusilə gender məsul şəxslər daxildir.**

2023-cü idə gender məsul şəxslərin işinin təkmilləşdirilməsi məqsədilə "**BMT-nin CEDAW Komitəsinin tövsiyələri: gender bərabərliyi istiqamətində mövcud vəziyyət və perspektivlər**" mövzusunda təlimlər keçirilmişdir. Təlimlərdə ümumilikdə 83 nəfər iştirak etmişdir.

Təlimdə qadınlara qarşı gender əsaslı zorakılıq, ədalət mühakiməsinə çıxış, həssas kateqoriyadan olan qadınların problemlərinin həlli və qadınların vəziyyətinin yaxşılaşdırılması üçün milli mexanizmlər haqqında məlumat verilib. Müvafiq tövsiyələrin icrası üzrə mümkün fəaliyyət konsepsiyasının hazırlanması istiqamətində müzakirələr aparılıb.

Təlimlərdə gender məsul şəxslər arasında operativ və səmərəli koordinasiyanın qurulması məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə əməkdaşlığı çərçivəsində yaradılan ***www.genderazerbaijan.com*** portalından istifadə qaydaları haqqında məlumat verilib və müvafiq elektron açarlar paylanılıb.

**Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi** tərəfindən 2023-cü ildə gender bərabərliyi siyasətini səmərəli şəkildə həyata keçirmək məqsədilə muxtar respublikanın nazirlik, komitə, agentlik, xidmət və digər dövlət müəssisə və təşkilatlarında gender məsələləri üzrə məsul şəxslər təyin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun həyata keçirilməsində genderə məsul şəxslərin rolu" mövzusunda təlim keçirilmişdir. Təlimdə gender bərabərliyinin təmin edilməsi, qadın hüquqlarının müdafiəsi, mövcud gender siyasəti, bu istiqamətdə milli qanunvericilik və beynəlxalq təşkilatlarla əməkdaşlıq, cinsi ayrı-seçkiliklə mübarizə üsulları və digər məsələlərlə bağlı məlumat verilib, mövzu ətrafında müzakirələr aparılıb və təlim iştirakçılarını maraqlandıran suallar cavablandırılıb. Təlimdən 80 nəfər yararlanmışdır.

## Bələdiyyələrdə Gender komissiyaları

2023-cü ilə qədər Azərbaycanda 30 bələdiyyədə Gender Komissiyası fəaliyyət göstərmişdir.

Komitə tərəfindən 2023-cü ildə bütün yerli icra hakimiyyətləri orqanlarına müraciət olunmuş, Dövlət Komitəsinin tövsiyəsi ilə bütün Bələdiyyələrdə Gender Komissiyaları yaradılmışdır. Bələdiyyələrdə Gender Komissiyalarının yaradılmasının əsas məqsədi yerli idarəetmənin genderə həssas yanaşma və gender bərabərliyi prinsipləri üzərində qurulmasının təşviqi, yerlərdə, xüsusilə ucqar kənd və qəsəbələrdə baş verən gender əsaslı zorakılıq hallarının vaxtında qarşısının alınması və aidiyyəti üzrə yönləndirilməsidir.

Yeni yaradılmış komissiyaların üzərinə düşən vəzifələr və onların fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə "Gender bərabərliyi və yerli idarəetmə" mövzusunda təlimlər keçirilmişdir. Təlimdə respublikanın bütün şəhər, rayon, qəsəbə və kəndlərində bələdiyyələrdə fəaliyyət göstərən gender komissiyalarının üzvləri iştirak etmişdir.

Bakı şəhəri Sabunçu rayonunda keçirilən "Susma, səsini eşitdir!" adlı layihə çərçivəsində rayon üzrə bütün bələdiyyələrin inzibati binalarında yerləşdirilmiş xüsusi qutulara məişət zorakılığına məruz qalan, həmçinin bənzər hallara şahid olan, lakin aidiyyəti qurumlara vaxtında müraciət etməkdən çəkinən vətəndaşlar yaşadıqları ərazi üzrə bələdiyyənin inzibati binasına yaxınlaşaraq öz şikayətlərini məktub şəklində daxil edirlər. Daxil olan müraciətlər Komissiya tərəfindən araşdırılır.

Gender bərabərliyi, qadınlara qarşı zorakılığın və məişət zorakılığın qarşısının alınması və zorakılıq qurbanlarına kömək üçün effektiv mexanizmlərin yaradılması barədə məlumatlılığın artırılması məqsədi ilə Bakı şəhəri Nəsimi rayon bələdiyyəsində qaynar xətt yaradılmışdır (012 440-50-71, 077 282-00-09). Həmçinin bələdiyyədə müvafiq poçt qutusu yerləşdirilmiş, maarifləndirici vəsaitlər hazırlanmış, sakinlər arasında paylanmışdır.

## Gender əsaslı zorakılıqla bağlı Dəstək Xətti (860)

860 saylı Dəstək Xəttinə 2023-ci il ərzində 302 müraciət daxil olmuşdur. Müraciət edənlərin 237 nəfəri qadın, 65 nəfəri kişi olmuşdur. Dəstək xəttinə edilən müraciətlərin sayı 2022-ci illə müqayisədə 12,3% artmışdır.

Müraciətlərin əksəriyyəti psixoloji (288) və fiziki zorakılıqla (146), cinsi zorakılıqla (6) bağlı olub. Şikayət edənlərin əksəriyyəti zorakılığın bir neçə növünün qurbanı olub və onlardan 175 nəfəri münasibətdə olduğu şəxs tərəfindən zorakılığa məruz qalıb.

Zənglər bir neçə meyara əsasən təhlil edilir. Bu meyarlara zəng edənin kimliyi, yaşı, cinsi, ailə vəziyyəti, təhsili, məşğulluğu, zorakılığın növü, yaşadığı bölgə, eləcə də yönləndirildiyi tərəfdaş qurum daxildir.

2023-ci il ərzində qəbul edilən zənglərin təhlilinə əsasən müəyyən edilmişdir ki, müraciət edənlərin əksəriyyəti evli, orta təhsilli, işsiz şəxslərdir.




## Qadın Dəstək Xətt Xidməti (116111)

“Qadın Dəstək Xətti”nə müraciət edənlər peşəkar işçi heyəti tərəfindən hüquqi, tibbi xidmətlərə çıxış, məşğulluqla bağlı məlumatlandırılma, onların ailə və yaşayış şəraitinin qiymətləndirilməsi əsasında sosial dəstəklə təmin olunurlar. Eləcə də mərkəzin psixoloqları, sosial işçi və hüquqşünasları tərəfindən icma əsaslı hüquq klinikalarına, reabilitasiya mərkəzlərinə, sığınacaqlara yönləndirilmə, hüquqi məsləhətlə təmin olunurlar. Zəruri hallarda müvafiq dövlət qurumları, yerli strukturlar və sosial xidmət müəssisələri ilə əməkdaşlıq çərçivəsində müraciətlərin həllinə nail olunur.

“Qadın Dəstək Xəttinə” **2023-cü il** ərzində **4079** müraciət daxil olub.

- **Ailədaxili problemlər – 958**
- **Məişət zorakılığı – 521**
- **Boşanma – 358**
- **Alimentin alınmasında çətinlik – 447**
- **Sosial-maddi rifah – 522**
- **Sağlamlıq hüququnun təmin edilməsi – 181**
- **Hüquqi yardım – 971**
- **Sığınacaqla təmin olunma – 121**

*Rəqəmlərdən görünür ki, 2022-ci ilə müqayisədə 2023-cü ildə "Qadın Dəstək Xətti"nə edilən müraciətlərin sayı 2050-dən 4079-a qədər artmışdır.*

*Ailədaxili problemlər 676-dan 958-ə, məişət zorakılığı 361-dən 521-ə, boşanma 182-dən 358-ə, alimetin alınmasında çətinlik 235-dən 447-yə, hüquqi yardımla təmin olunma 320-dən 971-ə, sağlamlıq hüququnun təmin edilməsi 105-dən 181-ə, sosial-maddi rifah 142-dən 522-yə, sığınacaqla təmin olunma ilə 29 müraciətdən 121 müraciətə qədər artmışdır.*

***Diagram 1. Müraciətlərin təsnifatına görə bölgüsü***




***Diagram 2. Müraciətlərin daxilolma vasitələri əsasında bölgüsü***




Qadın Dəstək Xətt Xidmətinin (QDXX) İnstagram və Facebook sosial şəbəkə səhifələrinin tanıtımı üçün maarifləndirici videoroliklər çəkilmiş, qadın/qızların hüquqlarını əhatə edən xüsusi çağırışlardan ibarət postlar, plakatlar hazırlanaraq paylanılmışdır. Bu da müraciətlərin sayının artımı ilə nəticələnmişdir.

## Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları

Yerli İcra Hakimiyyətlərində yaradılmış Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları 2023-cü ildə məişət zorakılığı hallarının qarşısının alınmasında operativ və səmərəli fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasıbda Məişət Zorakılığı ilə Mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın müvafiq bəndlərinin icrası uğurla həyata keçirilmiş və əvvəli illərlə müqayisədə qısamüddətli mühafizə orderlərinin verilməsində artım müşahidə olunmuşdur.

AQUPDK tərəfindən məişət zorakılığının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi və regionlarda zorakılıqla mübarizə sahəsində maarifləndirmə işinin aparılması məqsədilə 33 rayon və şəhər rayon icra hakimiyyətlərində, Naxçıvan Muxtar Respublikasının rayon icra hakimiyyətlərində Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupunun üzvləri üçün təlimlər təşkil edilmişdir.



İl ərzində Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları tərəfindən 254 tədbir həyata keçirilmişdir.



## Media, televiziya və İKT resurslarında fəaliyyət

Ailə, qadın və uşaq məsələləri istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər barədə ictimaiyyətin doğru və vaxtında məlumatlandırılması istiqamətində informasiyanın əlçatanlığının təmin edilməsi, məlumatların daha geniş auditoriyaya dolğun və operativ şəkildə çatdırılmasında medianın imkanlarından istifadə edərək, eləcə də qeyri-hökumət təşkilatlarının, ekspertlərin dəstəyi ilə uğurlu kommunikasiyanın qurulması məqsədilə 2021-ci il noyabrın 2-də Komitənin 3 illik **Kommunikasiya Strategiyası təsdiq edilmişdir.**

Həmçinin bu strategiyanın qarşıya qoyduğu məqsədləri sosial media platformalarında dəstəkləyən, eləcə də sosial şəbəkələrin imkanlarından effektiv istifadə edilməsi, əhali ilə birbaşa əlaqələrin gücləndirilməsi məqsədilə 2022-ci ildə **Sosial Media Siyasəti** hazırlanaraq, müvafiq əmrlə təsdiq edilmişdir.

Ötən üç il ərzində ailə, qadın və uşaq mövzularında yazan jurnalistlərin peşə bacarıqlarının artırılması istiqamətində də iş aparılmışdır ki, təkcə Komitənin təşkil etdiyi təlimlərdə 131 jurnalistin iştirakı təmin edilmiş, əməkdaşlıq çərçivəsində 619 informasiya sorğusu cavablandırılmışdır. Həmçinin sosial şəbəkələrdə maarifləndirmənin gücləndirilməsi məqsədilə 62 bloger Komitənin fəaliyyətinə və tədbirlərə cəlb edilmişdir.

2023-cü ildə AQUPDK-nin sosial şəbəkə səhifələrində 708 məlumatlandırıcı, 84 maarifləndirici, 26 reaksiya tipli paylaşım edilib. Uğur hekayəsi olan qadınlarla bağlı paylaşımlarda 2 dəfədən çox artım müşahidə edilib.



**Komitə tərəfindən media nümayəndələrinin gender məsələlərinə həssaslığının artırılması, gender məsələlərinin işıqlandırılması istiqamətində çox sayda təlim və tədbirlər görülmüşdür.**

- ✓ BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitəsinin tövsiyələrinin icrası məqsədilə media nümayəndələri üçün “İnsan alveri ilə mübarizədə medianın rolu: qadın və uşaq hüquqları” adlı təlim keçirilib. Təlimdə 26 jurnalist iştirak etmişdir.
- ✓ Dövlət Komitəsinin 2021-2023-cü illəri əhatə edən Kommunikasiya Strategiyası və Sosial Media Siyasəti sənədinin müvafiq bəndlərinin icrası

istiqamətində, sosial şəbəkələrdə aktiv səhifələri olan 35 nəfər gənc blogerlə görüş keçirilmişdir.

- ✓ Komitə tərəfindən “Qadın və uşaq mövzularının mediada işıqlandırılması prinsipləri”ni əks etdirən maarifləndirici vəsait hazırlanmış və çap edilmişdir. Tövsiyələrin hazırlanmasında məqsəd mediada qadın və uşaqların hüquq, mənafelərinə zərbə vuracaq məlumatların paylaşılmasının qarşısını almaq, cəmiyyətin maraqlarına xidmət edən mediaya dəstək göstərməkdir.
- ✓ Dövlət Komitəsi tərəfindən “Ailə, qadın və uşaq mövzuları mediada” və “Ailə dəyərləri, qadın və uşaq hüquqlarının təbliği üzrə ən fəal bloger” mövzusunda müsabiqələr keçirilmiş, qaliblər mükafatlandırılmışdır.

Gender bərabərliyinin təmin edilməsi istiqamətində Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) rəsmi informasiya saytında həm müxtəlif dövlət qurumları, həm də digər təşkilatlar tərəfindən həyata keçirilən tədbirlər işıqlandırılmaqla ictimaiyyətə çatdırılmış, o cümlədən AZƏRTAC-ın müəllifi olduğu məqalələr də daxil olmaqla toplam 366 məlumat-informasiya yayınlanmışdır.

Vəkillər Kollegiyası, Avropa Şurasının Bakıdakı Ofisi və Ədliyyə Akademiyası tərəfindən təşkil edilmiş “Gender bərabərliyi və media azadlığı” mövzusunda tədbir də daxil olmaqla, məişət zorakılığı və genderlə əlaqəli digər mövzularda bir sıra təlimlər və ixtisasartırma kursları keçirilmişdir.

**Azərbaycan Respublikası Audiovizual Şurasının tövsiyyəsinə əsasən televiziya kanallarında aşağdakı qeyd olunan proqramlarda** gender bərabərliyi, cinsi ayrı-seçkilik, erkən nikahlar, selektiv abortlar, ailədə qız uşaqlarının dəyəri, qızların təhsildən yayınması və uşaqlar arasında cins seçiminin qarşısının alınması mövzularında maarifləndirici proqramlar yayımlanmışdır.

***Xəzər TV-****də “Xoşbəxt sabahlar” Maarifləndirici uşaq proqramı, “Xəzər Xəbər” xəbərlər proqramı, “Səhər Mərkəzi” Musiqili - əyləncəli proqramı, “Xəbər ertəsi” Səhər informasiya şousu, “İncə səhər” Musiqili - əyləncəli proqramı, “Təsir dairəsi” Sosial-ictimai proqramı  və “Ata ocağı” serialı*

***AZTV -****də “Çıxışa doğru” Tok-şousu, “Gün başladı” Səhər informasiya şousu, “Günə davam” Sosial proqramı, “Uşaqların doğulanadək cins seçiminin qarşısının alınması” Sosial çarxı*

***Mədəniyyət TV*** *-də “Evimizdə” Sosial proqramı*

***Space TV-də*** *“Qarşı-qarşıya” Tok-şou, “Ana və Bala” Maarifləndirici uşaq proqramı, “Xəbərlər” xəbər proqramı, “Gəl danış” sosial proqramı*

***ARB TV-də***  *“Günə doğru” səhər xəbər şousu, “Səni axtarıram” Sosial proqramı, “Günə son” gecə xəbər şousu*

***ITV-****də “MAG” gənclər üçün proqram, “Sabaha saxlamayaq” Sosial-ictimai proqramı, “Sabahın xeyir, Azərbaycan!” Səhər xəbər şousu, “Dikdaban” Sosial-ictimai proqram, “Yaxşı həkim” Sağlamlıq proqramı*

**Real TV**-də *“Xəbərlə” xəbər proqramı, “Sabaha Elnarə ilə” səhər xəbər şousu*

## 1.2. Gender bərabərliyi mədəniyyətinin təbliği (maddə 5.0.4)



Beynəlxalq ictimaiyyət bəşəriyyətin inkişaf məqsədlərini müəyyənləşdirərkən demokratiyanın inkişafının, sosial ədalət və tolerantlığın əldə olunmasının gender bərabərliyindən asılı olduğunu bəyan etmişdir.

Odur ki, əsas beynəlxalq sənədlərdə və normativ hüquqi aktlarda cinslər arasında bərabərlik insanın başlıca hüquqlarından biri kimi təsbit edilir. Qadınların hüquqlarının qorunması isə cəmiyyətin inkişafında mühüm yer tutur.

Ölkəmizdə insan hüquqlarının ayrılmaz hissəsi olan qadın hüquqlarının müdafiəsi və təbliği, gender bərabərliyinin təmin olunması, qadınların pozulmuş hüquqlarının bərpası və təmini daim diqqət mərkəzində saxlanılır.

Bu səbəbdən də cəmiyyətimizdə gender bərabərliyinin təmin olunmasına, qadınların kişilərlə bərabər ictimai və siyasi fəallığının artırılmasına yönəlik tədbirlər davamlı xarakter daşıyır.

Ali təhsil müəssisələri tələbələrinin gender məsələləri ilə bağlı biliklərinin artırılması məqsədilə universitetlərin bütün fakültələrində “Genderə giriş”, “Genderologiyanın əsasları” və digər fənlərdə gender məsələlərinə aid mövzular tədris olunur. Bakı Dövlət Universitetində və Qərb Universitetində isə “Gender və tətbiqi psixologiya” kafedrası fəaliyyət göstərir.

2023-cü il ərzində gender bərabərliyi mədəniyyətinin təbliği istiqamətində Dövlət Komitəsi, mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən çoxsaylı layihələr və tədbirlər planları çərçivəsində seminarlar, təlimlər keçirilmiş, geniş maarifləndirmə işləri aparılmışdır.



- **Gənclər və İdman Nazirliyinin** nəzdində olan "Gənclər evi" sosial xidmət müəssisələrinin 17-si tərəfindən "Gender bərabərliyi", "Gender bərabərliyi, gender əsaslı stereotiplərin mahiyyəti və onlarla mübarizə", "Gender bərabərliyi və qadın zorakılığına qarşı mübarizə", "Gender-əsasli zorakılıq və onun ailədaxili münasibətlərə təsiri", "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq kampaniyası", "Ailə münasibətlərinin gender problemi", "Gender əsaslı zorakılıq, sosial-psixoloji nəticələr" mövzusunda təlim, seminar və digər tədbirlər keçirilib. Ümumilikdə 33 tədbirdə 1200-ə yaxın gənc iştirak etmişdir.
- 2023-cü il ərzində **Gənclər və İdman Nazirliyi** və "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin birgə təşkilatçılığı ilə 2 "QadınTalks" layihəsi, "Gender əsaslı zorakılıq və ayrı-seçkiliyə qarşı Debat Forumu", "Qadınlara qarşı zorakılıq və ayrı-seçkiliyin aradan qaldırılmasında kişilərin töhfəsi əvəzedilməzdir" mövzusunda 30-dan cox təlim, görüşlər və 5 debat turniri keçirilib. Ümumilikdə 1100-dən artıq gənc iştirak edib.
- **Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin və Təhsilin İnkişafı Fondunun** təşkilatçılığı ilə **"Gənc Qızların Təhsilinə Dəstək"** Layihəsi həyata keçirilir. Layihənin məqsədi ali məktəbə yüksək balla daxil olmuş, regionlardan, aztəminatlı ailələrdən olan qızların təhsilinə dəstək göstərməkdir. 2023-cü ilə **55 qızın təhsilinə dəstək** göstərilmişdir. (*2021-ci ildə 14 qıza, 2022-ci ildə 25 qıza*)
- Həmçinin BMT-nin Əhali Fondu (UNFPA) və Avropa İttifaqının dəstəyi ilə Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən icra olunan "Ümumi təhsildə gender yönümlü yanaşmanın təşviqi" layihəsinin ikinci fazası çərçivəsində təlimçilərin təlimi keçirilib.
- **Dövlət İmtahan Mərkəzi tərəfindən** Müdafiə Sənayesi Nazirliyinin və Baş Prokurorluğun əməkdaşları üçün "Dövlət qulluğunda gender bərabərliyi" mövzusunda təlim keçirilmişdir.
- **Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA)** Fəlsəfə və Sosiologiya İnstitutu 2022-2023-cü illər üzrə iştirak proqramı çərçivəsində UNESCO-nun tərəfdaşlığı ilə Azərbaycan-Bolqarıstan-Türkiyə birgə "Mənəvi dəyərlər və ailədə gender bərabərliyi: Azərbaycan, Bolqarıstan, Türkiyə" adlı subregional layihə həyata keçirmiş, "Values and gender equality in family: Azerbaijan, Bulgaria, Turkey" adlı kollektiv monoqrafiya çap etmişdir.
- **AMEA-nın** Fəlsəfə və Sosiologiya İnstitutunda "Qadınların elmə töhfə verməsi cəmiyyətin davamlı və ədalətli inkişafının təminatçısıdır" və s. mövzularda dəyirmi masalar keçirilmişdir. AMEA-nın Qafqazşünaslıq İnstitutu və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya və Dendrologiya institutlarının Qadınlar şuralarının birgə təşkilatçılığı ilə "Beynəlxalq Ailə Günü" münasibətilə "Müasir ailə, elm və təhsil" mövzusunda tədbir keçirilmişdir.
- **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi** ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) arasında imzalanmış memoranduma əsasən, Komitənin bir qrup əməkdaşları üçün gender bərabərliyi, gender rolları və genderə həssas yanaşma ilə bağlı təlimlər keçirilmişdir.
- **Dövlət Miqrasiya Xidmətinin işçiləri** üçün "Gender bərabərliyi və uşaqlara qarşı zorakılıq", "Gender təhlili", "İnsan alveri və məcburi əməyə qarşı mübarizə", "Qadın Hüquqlarının İnkişafı və Qadınların səlahiyyətləndirilməsi" mövzularında təlimlər təşkil edilmişdir.

- **Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası** (AHİK) tərəfindən “Sağlam ailə - sağlam gələcəyin təminatıdır”, “Müasir dövrdə insan hüquqlarının qorunması və gender bərabərliyi”, “Qadın dünyanın tacıdır”, “İctimai sektorda qadınlar və müasir çağırışlar”, “Qızların təhsilinə dəstək”, “Erkən və məcburi nikah – sosial həyatın aktual problemi kimi”, “Zorakılığa son qoyaq!”, “Qadın hüquqları: Məişət zorakılığı” və s. mövzular üzrə seminar və müzakirələr keçirilib.
- Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək layihəsi çərçivəsində **Vəkillər Kollegiyası,** Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi (Mərkəz), Hüquq və İnsan haqları İnstitutu və Avropa Şurasının birgə təşkilatçılığı ilə İnsan hüquqları üzrə Avropa Konvensiyasının 3, 5 və 6-cı maddələrinə dair təlimçilər üçün təlim keçirilmişdir. Təlimlərdə “Konvensiya sistemi:təfsir prinsipləri. İHAK-a gender əsaslı yanaşma” da daxil olmaqla, bir çox mövzu üzrə ətraflı məlumatlar verilmişdir.
- **Vəkillər Kollegiyası** Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası ilə birgə Naxçıvanda “Azərbaycanda gender bərabərliyinin təminatçısı ulu öndər Heydər Əliyev” mövzusunda konfrans keçirilib.
- **Vəkillər Kollegiyasının** və Özbəkistan Respublikasının Vəkillər Palatasının birgə təşəbbüsü ilə türk dövlətlərinin ilk qadın vəkili Süreyya Ağaoğlunun 120 illik yubileyinə həsr edilən “Gender bərabərliyi beynəlxalq insan hüquqlarının hissəsi kimi” mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Tədbirdə Konfrans iştirakçıları tərəfindən “Gender bərabərliyinin təmin edilməsi üzrə” Birgə Bəyanat qəbul edilmişdir.
- **Vəkillər Kollegiyasının** nümayəndə heyəti “2023-cü il Lissabon Sammiti”ndə iştirak etmişdir. Tədbir “Vəkillikdə Qadın Liderlər” mövzusuna həsr edilib və bu çərçivədə “Məhkəmə sistemində qadın liderlər üçün mövcud və gələcək problemlər”, “Dövlət idarəçiliyində qadın liderlərin nüfuzlu təmsilçiliyinin əhəmiyyəti”, “Vəkillik peşəsində qadın liderlərin rolu”, “Vəkillik peşəsində qadın liderlərin gələcəyi” və bir sıra digər aktual mövzular üzrə dəyirmi masalar, sessiyalar və vörkşoplar keçirilib.



## Milli səviyyədə iqlim dəyişmələri ilə bağlı siyasətlərin və proqramların gender perspektivləri;

Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı tərəfindən həyata keçirilən “EU 4 Climate layihəsi” çərçivəsində Azərbaycan üçün “Aşağı Emissiyalı İnkişaf Strategiyası” (LEDS) Hesabatında İqlim dəyişmələri ilə bağlı milli səviyyədə siyasət və proqramların gender perspektivlərinin sektoral və ümumi təhlilləri aparılmışdır.

Qlobal Ekologiya Fondu (GEF) tərəfindən maliyyələşdirilən, BMT Ətraf Mühit Proqramı (UNEP) tərəfindən idarə edilən və Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Qafqaz üçün Regional Ekoloji Mərkəzin Azərbaycan filialı tərəfindən icra edilən “Paris Sazişinin şəffaflıq mexanizmininin tələblərinə cavab verə bilməsi üçün Azərbaycanda potensialın artırılması” (CBİT) texniki yardım layihəsində gender aspektləri üzrə komponentlər nəzərə alınmışdır.

BMT-nin İnkişaf Proqramının (UNDP) Azərbaycandakı Nümayəndəliyinin təşkilatçılığı ilə “Azərbaycanda iqlim dəyişmələrinə uyğunlaşmanın planlaşdırılması və icrası məqsədilə Milli Uyğunlaşma Planına (MUP) dəstək” layihəsi icra olunmuş, bu layihə çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının tərəfdaşlığı ilə iqlim dəyişmələri sahəsində qərar qəbul edənlər üçün təlim proqramlarına genderlə bağlı sessiyalar daxil edilmişdir.

Milli Hidrometeorologiya Xidmətinin Beynəlxalq əməkdaşlıq və ictimaiyyətlə əlaqələr sektorunun təşəbbüsü ilə Odlar Yurdu Universitetində “İqlim dəyişmələri üzrə müasir çağırışlar” mövzusunda seminarda **“Dünyada və Azərbaycanda iqlim dəyişmələrinin gender bərabərliyinə təsirləri”** mövzusunda mühazirə və müzakirələr aparılmışdır.

---

**Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi** tərəfindən “Gender bərabərliyi” mövzusunda məhkəmə işçilərinin iştirakı ilə elmi praktik seminar keçirilmişdir.

**NMR-nın Turizm Departamenti** tərəfindən gender mədəniyyətinin təbliği məqsədilə bütün əməkdaşları qüvvədə olan normativ hüquqi aktlarla və elektron gender kitabları ilə təmin olunmuş, maarifləndirmə tədbirləri və məsləhətləşmələr həyata keçirilmişdir.

**NMR-nın Bəstəkarlar Təşkilatında** “Gender bərabərliyi” mövzusunda tədbir keçirilib**.**

**Yerli İcra Hakimiyyətləri tərəfindən** gender bərabərliyinin təmin edilməsi, gender mədəniyyətinin təbliği istiqamətində kəndlərdə, qəsəbələrdə, idarə, müəssisə və təşkilatlarda “Gender bərabərliyi”, “Qadın hüquqları və onların qorunması”, “Gender əsaslı zorakılığa qarşı mübarizə”, “Zorakılığa son qoyaq”, “Erkən nikahlara YOX” və müxtəlif mövzularda maarifləndirmə tədbirləri keçirilmiş, kənd və qəsəbələrdə yaşayan qadınların cəmiyyətdə fəallığını daha da artırmaq məqsədilə təbliğat işləri aparılmışdır.

## 1.3. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması (maddə 2.0.4.)



**Erkən yaşda evlilik, məişət zorakılığı, mənfi gender stereotipləri, selektiv abortlar ümumən dünyada gender bərabərliyinin tam təmin edilməsi prosesini ləngidən amillərdir.**

Hər bir zorakılıq əməli, o cümlədən, məişət zorakılığı qadınlar, uşaqlar, ailələr və bütövlükdə cəmiyyət üçün ağır fiziki, emosional, iqtisadi və sosial nəticələr doğurur. Məişət zorakılığı ailədə böyüyən uşaqların tərbiyəsinə, psixologiyasına, sağlam düşüncə tərzinin formalaşmasına mənfi təsir göstərir. Zorakılığın şahidi olmuş uşaqların sağlamlığı ilə yanaşı, davranışında da problemlər ortaya çıxır.

### Məişət zorakılığı ilə mübarizə sahəsində tədbirlər

Hesabat ilində dövlət orqanları tərəfindən məişət zorakılığının qarşısının alınması istiqamətində həyata keçirilmiş tədbirlər **"Məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"na** əsasən müəyyən edilmişdir:

- Dövlət Komitəsi və Azərbaycan Respublikasının Ali Məhkəməsinin birgə təşkilatçılığı ilə "Məişət zorakılığına dair qanunvericiliyin tətbiqi" mövzusunda Bakı, Sumqayıt şəhər və Abşeron rayon məhkəmələrinin hakimləri və AR Vəkillər Kollegiyasının üzvlərinin iştirakı ilə dəyirmi masa keçirilmişdir. Dəyirmi masada məişət zorakılığına dair qanunvericiliyin tətbiqi sahəsində mövcud boşluqlar müzakirə edilmiş və onların aradan qaldırılması istiqamətində təkliflər irəli sürülmüşdür.
- Vəkillər və hakimlər üçün məişət zorakılığı ilə mübarizə, həmçinin məişət zorakılığından zərər çəkmiş şəxslərlə davranış sahəsində təlim keçirilmişdir. Təlimdə 15 nəfər hakim və 15 nəfər vəkil iştirak etmişdir.
- "Məişət zorakılığı qurbanlarının hüquqları" adlı vəsait hazırlanaraq 12000 ədəd çap edilmiş və aidiyyəti təşkilatlara paylanılmışdır.
- Məişət zorakılığı hallarının qarşısının alınması məqsədilə Komitə, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə "Məişət zorakılığına YOX deyək!" adlı layihə çərçivəsində Bakı Ali Neft Məktəbində, 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində, Bakı şəhəri Xətai rayonunda yerləşən 86 nömrəli tam orta məktəbdə və Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində gənclər ilə görüşlər keçirdib. Görüşlərdə 500 nəfərə yaxın gənc iştirak edib.
- Dövlət Komitəsi və Dənizkənarı Bulvar İdarəsi Publik Hüquqi Şəxsin birgə əməkdaşlığı ilə idarənin rəhbər və işçi heyəti üçün "Ailə. Ailə dəyərləri və ənənələr", "Məişət zorakılığı" mövzularında görüş keçirdib. Görüşdə 80 nəfər iştirak edib.
- 11 Uşaq və Ailələrə Dəstək Mərkəzinin əməkdaşları üçün "Erkən nikahın və qohumlar arasında nikahın fəsadları" və "Məişət zorakılığı və onunla mübarizə yolları" mövzularda təlimlər keçirilib.
- Dövlət Komitəsi tərəfindən, "Səssiz qalma! Məişət zorakılığına YOX de!", "Uşaq evliliyinə YOX de", "Gender bərabərliyi ana bətnindən başlayır" adlı elektron posterlər hazırlanıb və metro

stansiyalarında yerləşən elektron lövhələrdə nümayiş etdirilib.

- Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), Salyan Rayon İcra Hakimiyyətinin birgə əməkdaşlığı ilə Salyanda “Məişət zorakılığına yox deyək!” mövzusunda maarifləndirici tədbir və aksiya keçirilmişdir.
- Daxili İşlər Nazirliyi “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyi ilə birgə Xəzər, Binəqədi, Sumqayıt, Abşeron və Şirvan şəhər, rayon polis orqanları əməkdaşları üçün “məişət zorakılığı və onun formaları”, “zorakılıq qurbanlarını dindirmə metodları” mövzusunda təlimlər keçirilib.
- Daxili İşlər Nazirliyi Beynəlxalq təşkilatların xətti ilə təşkil olunmuş “Ailədaxili zorakılıq zamanı qadın hüquqlarının müdafiəsində polisin rolu”, “Məişət zorakılığının formaları və zorakılıq qurbanlarının dindirilmə metodları”, “Məişət zorakılığına məruz qalan şəxslərin təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi” və “Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikası Qanununun icrasına kömək” layihələri çərçivəsində onlayn treninqlər, zona-seminar müşavirələri keçirilib.
- Bakı Dövlət Universitetinin (BDU) Hüquq fakültəsinin müəllim və tələbə heyəti “Qadınlara qarşı zorakılıq, məişət zorakılığının qarşısının alınması və onunla mübarizə” layihəsi çərçivəsində Strasburq şəhərində - Avropa Şurasının mənzil-qərargahında təşkil edilmiş təlim səfərində olmuşlar.
- 2023-cü il ərzində Bakı şəhərində yerləşən ümumtəhsil məktəblərində “Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq kampaniyası” çərçivəsində tədbirlər keçirilib.

## Ölkədə məişət zorakılığı ilə bağlı vəziyyət

**2023-cü ildə Daxili İşlər Nazirliyində** məişət zorakılığı ilə bağlı 9389 müraciət qeydə alınıb. 2022-ci ildə bu rəqəm 9864 olmuşdur. *Bu da məişət zorakılığı ilə bağlı müraciətlərin azaldığını göstərir.*

Ailə münaqişəsi zəminində Daxili İşlər Nazirliyinə daxil olmuş məlumatlar üzrə görülən operativ cavab tədbirləri ilə 9389 hüquqazidd əməlin qarşısı alınıb.

Məişət zorakılığı ilə bağlı 1482 cinayət törətmiş 1386 (qadın - 88; kişi - 1298) şəxs məsuliyyətə cəlb olunub. Bu hüquqazidd əməllər nəticəsində 1513 zərərçəkmiş şəxs (qadın - 1224; kişi - 289) müəyyən edilib.

*Statistik rəqəmlər göstərir ki, məişət zorakılığı ilə bağlı cinayət törətmiş şəxslərin əksəriyyəti kişilər, zərərçəkmiş şəxslərin isə çoxu qadınlar olmuşdur.*

Məişət zorakılığı zəminində törədilən cinayətlərdən 1236-sı qəsdən sağlamlığa yüngül zərər vurma, 88-i qəsdən sağlamlığa az ağır zərər vurma, 62-i qəsdən adam öldürmə, 49-u qəsdən sağlamlığa ağır zərər vurma, 18-i adam öldürməyə cəhd, 6-sı əzab vermə, hərəsi 2 fakt olmaqla öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə, qanunsuz azadlıqdan məhrum etmə, hərəsi bir fakt olmaqla özünü öldürmə həddinə çatdırma, zorlama, seksual xarakterli zorakılıq hərəkətləri, 16-sı digər növlərdir. Həmin cinayətlərdən yalnız biri təkrar törədilib.

2023-cü ildə **ailə münaqişəsi və qısqanclıq zəminində qadınlara qarşı ölümlə nəticələnən** 49 cinayət (2022-ci ildə 51) qeydə alınıb.

2023-cü ildə qadınlarla bağlı 6825, o cümlədən zorakılıqla müşayiət olunan 2344 cinayət qeydə alınıb. Qısqanclıq, ailə münaqişəsi və sairə məişət zəminli cinayətlərin sayı 1210 (2022-ci ildə 1175) , o cümlədən qadının cinsi toxunulmazlığı əleyhinə törədilmiş cinayətlərin sayı 147 fakt olub.

Qadınlara qarşı törədilmiş cinayətlərlə bağlı 4519 şəxs müəyyən edilərək 63,3%-i (2861-i) məsuliyyətə cəlb olunub.

Qadınlara qarşı həyat və sağlamlıq əleyhinə törədilmiş 1822 cinayət qeydə alınıb. Onlardan 1544-ü qəsdən sağlamlığa yüngül zərər vurma, 176-ı qəsdən sağlamlığa ağır və az ağır zərər vurmalar, 68-i qəsdən adam öldürmə, 18-i özünü öldürmə həddinə çatdırma, 16-ı əzab vermə ilə bağlı cinayətlər olub.

**Bundan başqa, Baş Prokurorluğun məlumatına əsasən,**

2023-cü il ərzində qeydə alınmış cinayət hadisələri üzrə 24287 zərərçəkmiş şəxsin 7134-ü qadın olmuşdur. Zərərçəkmiş qadınlardan 2996-ı xəsarət almış, 296-sı isə ölmüşdür. Müqayisə üçün bildirilir ki, 2022-ci ildə 25449 zərərçəkmiş şəxsin 7455-i qadın olmuşdur. Zərərçəkmiş qadınlardan 2945-i xəsarət almış, 309-u ölmüşdür.

2023-cü il ərzində məişət zorakılığı ilə bağlı baş vermiş cinayət hadisələri üzrə 1513 (2022-ci ildə -1475) zərərçəkmiş şəxsdən 1224-ü (2022-ci ildə - 1196) qadın olmuş, onlardan 1173-ü (2022-ci ildə - 1132-i) xəsarət almışdır.

Məişət zorakılığı ilə bağlı ölən qadınların sayı 49 (2022-ci ildə - 51) olmuş, onlardan 47-i qəsdən adam öldürmə (CM-in 120-122-ci maddələri nəzərdə tutulur) cinayətinin, 1-i özünü öldürmə həddinə çatdırılma, 1-i isə qəsdən sağlamlığa ağır zərər vurma cinayətinin qurbanı olmuşdur.

2023-cü ildə 25006 cinayət törətmiş şəxs müəyyən edilib, onlardan 1299-u qadın olmuşdur. 2022-ci ildə isə 24432 cinayət törətmiş şəxsdən 1227-i qadın olmuşdur.

**Ədliyyə Nazirliyinin məlumatına əsasən, Mühafizə orderləri:**

**2023-cü ildə 180-ı qısamüddətli, 16-sı uzunmüddətli olmaqla, ümumilikdə 196 mühafizə orderi icraatda olmuş, onlardan 187-si qadınlar, 9-u kişilər barədə verilmişdir;**

– 139 mühafizə orderinin icrası təmin olunmuş və icraatına xitam verilmişdir.

– 3 mühafizə orderinin icraatına digər əsaslarla xitam verilmiş, 14 mühafizə orderi “İcra haqqında” qanunun 7 və 9-cu maddələrinə, 3 mühafizə orderi “İcra haqqında” qanunun 23.1.1-ci maddəsinə əsasən geri qaytarılmış, 8-i digər maddələr ilə icraatdan çıxarılmış, 29 mühafizə orderi növbəti hesabat dövrünə qalıq keçmişdir;

– Mühafizə orderinin icrası ilə bağlı icra məmurunun tələblərinin yerinə yetirilməməsinə görə kişi cinsindən olan 1 borclu barəsində inzibati tənbeh tətbiq edilmişdir:

– Uzunmüddətli mühafizə orderi üzrə məhkəmə qərarlarının icra edilməməsinə görə borclular barədə cinayət məsuliyyətinə cəlb edilmə ilə bağlı təqdimat verilməmişdir.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə 2023-cü ildə məişət zorakılığı ilə bağlı 560 müraciət daxil olmuşdur. Müraciət edənlərin** 27-si kişi, 478-i qadın, 328-u uşaq, 9-u əlil, 1-i ahıl, 2-

si miqrant, zorakılıq törədənlərin isə 497-si kişi, 133-u qadın olmuşdur.

Məişət zorakılığı halları cəmiyyətin inkişafına, dövlətin ailə institutuna mənfi təsir göstərməklə bərabər, ailələrin dağılmasına səbəb olur.

*Dövlət Statistika Komitəsinin məlumatına əsasən,*

**Rəsmi qeydə alınmış nikah və boşanmaların sayı**




*2022-ci illə müqayisədə 2023-cü ildə nikahların sayında 7739 azalma, boşanmaların sayında 5705 artma müşahidə olunur.*

**2023-cü il ərzində mediasiya təşkilatlarına ümumilikdə 43639 müraciət daxil olmuşdur.** Daxil olan müraciətlərdən 35863 müraciət ailə mübahisələri üzrə qeydiyyata alınmışdır.

Ailə mübahisələri üzrə daxil olan 35863 işdən əsassız iddiaların və ilkin mediasiya sessiyalarında iştirak etdikdən sonra məhkəməyə müraciət etmək fikrindən imtina edən müraciətlər üzrə xitam verilən müraciətlərin sayı 6297 təşkil etmişdir.

**Mediasiya Şurasının 2023-cü il üzrə** barışıq sazişi ilə nəticələnən işlərin ümumi faiz nisbəti 51.4% olmuşdur.



Barışıq sazişlərinin mübahisənin növü üzrə təsnifatında isə ailə mübahisələri üzrə 2472 barışıq sazişi imzalanmışdır.




Mediasiya təşkilatlarına daxil olmuş ailə mübahisələri üzrə mediasiya müraciətlərinin 34%-i nikahın pozulması, 24%-i alimentin müəyyən edilməsi, 14%-i zinyət və cehiz əşyalarının qaytarılması, 13%-i uşağın ölkə xaricinə çıxarılması, 11%-i uşaqla ünsiyyət tələbi, 4%-i isə digər məsələlər üzrə olmuşdur.

2023-cü ildə Mediasiya Şurasının Çağrı Mərkəzinə 1291 vətəndaş müraciəti daxil olmuşdur ki, onların 1161-i ailə mübahisələri ilə bağlı olmuşdur.

**Ailə mübahisələri ilə bağlı Mediasiya Şurası tərəfindən aşağıdakı tədbirlər həyata keçirilmişdir:**

- “Ailə mübahisələri üzrə mediasiyası proseslərində psixoloqun rolu” mövzusunda vebinar;
- “Ailə mübahisələrinin tənzimlənməsində mediasiyanın əhəmiyyəti” mövzusunda tədbir;
- “Ailə mübahisələri və erkən nikahın fəsadları” mövzusunda maarifləndirici - profilaktik görüş;
- “Nikahın xitamı ilə bağlı ailə qanunvericiliyinin tətbiqi sahəsində mövcud vəziyyət” mövzusunda konfrans.

*Son illər ailə institutunun ən vacib sosial problemlərindən olan boşanma hallarının sayının çoxalması aliment məsələsinin daha qabarıq şəkildə üzə çıxmasına səbəb olmuşdur.*

**Yerli icra hakimiyyəti orqanlarının məlumatına əsasən,** 2023-ci ildə Bakının 12 rayonu üzrə 26822 (2022-ci ildə 26463), Azərbaycanın bölgələri üzrə 64374 (2022-ci ildə 58157) aliment ödəyicisi var. 2022-ci illə müqayisədə aliment ödəyicilərinin sayı artmışdır. Aliment ödənişində yaranan ən başlıca problem aliment ödəyicisinin daimi iş yerinin olmaması ilə bağlıdır. Bundan başqa borclunun aldığı məvaciblə ödəmə məbləğinin adekvat olmaması, faktiki yaşayış yerlərinin qeyd edilməməsi, aliment ödəyicilərinin özlərini süni şəkildə işsiz təqdim etmələri də ödənişlərin gecikməsinə səbəb olur.

Hazırda həssas əhali qruplarından olan şəxslər üçün sığınacaq və sosial reabilitasiya üzrə **1 (bir) dövlət** müəssisəsi və **məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım göstərilməsi üçün 8 (səkkiz) akkreditasiyadan keçmiş qeyri-dövlət yardım mərkəzləri ödənişsiz fəaliyyət göstərirlər.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən 2023-cü il ərzində məişət zorakılığından zərər çəkmiş 50 nəfər sosial reabilitasiya xidmətlərinə cəlb edilmişdir. Onlardan 14 nəfəri valideyn, 36 nəfəri isə uşaqlardır (12-i oğlan, 24-ü qız).

**Qeyri-dövlət yardım mərkəzlərinə** məişət zorakılığı ilə bağlı 12000-dən çox müraciət daxil olmuşdur. 5000-dən çox qadın, 6000-dən çox uşaq və 200-dən çox kişi hüquqi, psixoloji, tibbi, sosial yardımla təmin olunmuşdur.

**Dövlət Komitəsi tərəfindən "Gələcəyin ailə modelini simvollaşdıran əsas dəyərlər mövzusunda təhlil" aparılmışdır**

***http://family.gov.az/store/media/aida/Gelecek%20Aile_%D0%9C%D0%B0%D0%BA%D0%B5%D1%82%201.pdf***

Respondentlərin boşanmanın əsas səbəbləri haqqında münasibətləri də öyrənilmişdir. Sorğuda şəxslərə əsasən 5 səbəbə münasibət bildirilməsi tələb olunmuşdur. Bunlar xasiyyət uyğunsuzluğu, xəyanət, zərərli vərdişlər, maddi vəziyyət, zorakılıq və digər səbəblər. Ümumi nəticə aşağıdakı qrafikdə göstərilmişdir:

***Respondentlərə görə boşanma səbəbləri***




Qrafikdən göründüyü kimi şəxslər boşanma səbəbləri arasında ən güclü səbəb kimi həyat yoldaşına xəyanətdə görməkdədir. İkinci səbəb isə zorakılıq, üçüncü sırada zərərli vərdişlər gəlməkdədir. Boşanma səbəbləri arasında ən zəif səbəb kimi ailədə maddi vəziyyətin yaxşı olmaması göstərilməkdədir.

Bu nəticələr onu göstərir ki, respondentlər boşanma səbəblərində mental faktorları iqtisadi faktorlardan daha çox üstün tutur.

*Cəmiyyətimizdə ailə modelini gələcəyə hazırlamaq və baş verən dəyişikliklərdən irəli gələn sosial-demoqrafik fəsadların qarşısının alınması üçün gələcək dövr üçün aşağıdakı istiqamətlərdə fəaliyyətlərin həyata keçirilməsi tövsiyə olunur: İntiharlarla bağlı statistika*

## TÖVSİYƏLƏR

*– Gələcək ailə modeli ilə bağlı mənfi mülahizələri daha yüksək qiymətləndirən risk qrupları ilə fərqli maarifləndirmə strategiyasının hazırlanması və maarifləndirmə işlərində bu cür əhali qrupunun prioritet seçilməsi tövsiyə olunur. – Bu, xüsusi ilə nikahdan kənar cütlüklərin birgə yaşayışı, uşaqsız ailələrə laqeyd münasibət kimi mülahizələr ciddi sosial-demoqrafik nəticələrə səbəb ola bilər. Maarifləndirmə işlərində bu tədqiqatın nəticələrindən çıxan risk qruplarının nəzərə alınması tövsiyə olunur.*

*– Gələcək tədqiqatlarda gələcək ailə modelinə dəstəyi müəyyənləşdirən iqtisadi və sosial səbəblər kontekstində qiymətləndirilməsi, bu çərçivədə regionların və ayrı ayrı sosial qrupların iqtisadi göstəriciləri ilə əlaqəli təhlili əhatə edən tədqiqat metodlarının seçilməsi tövsiyə olunur.*

*– Tədqiqat nəticəsində erkən nikah, qohum evliliyi, rəsmi nikah olmadan cütlüklərin birgə yaşayışı kimi mülahizələrə daha çox dəstək verən sosial təbəqələr və regionlarda müvafiq maarifləndirmə işlərini gücləndirmək tövsiyə olunur.*

*– Gələcəkdə hər iqtisadi rayon üzrə boşanmaların sayı ilə hər 1000 nəfərə düşən boşanmaların sayı ilə həmin iqtisadi rayonlarda əhalinin məşğulluğu, gəlir səviyyəsi, iqtisadi göstəricilər arasında əlaqə qurulacaq tədqiqatların aparılması tövsiyə olunur.*

*– Qeyd edilən mülahizələr əhalinin nisbətən az dəstək olduğu düşüncələr olsa da reallıqda bunun artmasının sosial-iqtisadi səbəbləri olub olmadığını yoxlamaq baxımdan qeyd edilən istiqamətdəki tədqiqatlar faydalı olardı. Bu, ideal gələcək ailə modelləşməsinə mənfi təsir göstərəcək erkən nikah, qohum evliliyi və boşanmaların artması kimi trendlərə yol açacaq səbəblərin aradan qaldırılmasına və gələcəkdə əlaqədar qurumların fəaliyyət istiqamətlərini müəyyənləşdirməyə imkan yaradardı.*



**Vəkillər Kollegiyasının Hüquqi Yardım Mərkəzi tərəfindən pulsuz hüquqi yardım göstərilmiş qadın və kişilərin sayı.**

| İllər üzrə (ümumi) | Qadınların sayı | Kişilərin sayı |
|---|---|---|
| 2020 | 87 | 123 |
| 2021 | 185 | 287 |
| 2022 | 219 | 247 |
| 2023 | 198 | 215 |

| İllər üzrə (şəhid, qazi ailələri) | Qadınların sayı | Kişilərin sayı |
|---|---|---|
| 2020 | 10 | 10 |
| 2021 | 26 | 38 |
| 2022 | 15 | 18 |
| 2023 | 4 | 7 |

2023-cü ildən bu günə qədər ödənişsiz hüquqi yardım aksiyalarında ümumilikdə 5000 nəfərdən çox şəxsə hüquqi yardım göstərilmişdir.

## İNTİHARLARLA BAĞLI STATİSTİKA

2023-cü il ərzində rayon (şəhər) prokurorluqlarında 620 özünü öldürmə hadisəsi qeydə alınmışdır ki, onlardan 460-ı kişi, 160-ı qadın olmuş, o cümlədən qeyd olunan şəxslərdən 38-i yetkinlik yaşına çatmayan şəxslər olmuşdur.

| Intaharların statistikası | | | | |
|---|---|---|---|---|
| **İllər** | **Ümumi say** | **Qadınlar** | **Kişilər** | **Onlardan yetkinlik yaşına çatmayan** |
| 2019 | 585 nəfər | 181 nəfər | 404 nəfər | 20 nəfər |
| 2020 | 597 nəfər | 157 nəfər | 440 nəfər | 37 nəfər |
| 2021 | 612 nəfər | 174 nəfər | 438 nəfər | 46 nəfər |
| 2022 | 609 nəfər | 152 nəfər | 457 nəfər | 42 nəfər |
| 2023 | 620 nəfər | 160 nəfər | 460 nəfər | 38 nəfər |

Cədvəldən görünür ki, əvvəlki illərlə müqayisədə özünü öldürmə hadisələrinin sayı artmışdır.

2023-cü il ərzində baş vermiş və ya rayon (şəhər) prokurorluqlarında qeydə alınmış 166 qəsdən adam öldürmə cinayəti üzrə zərərçəkənlərdən 105-i kişi, 70-i qadın olmuş, təqsirləndirilənlərdən 171-i kişi, 4-ü qadın olmuşdur.

2022-ci il ərzində baş vermiş və ya rayon (şəhər) prokurorluqlarında qeydə alınmış 166 qəsdən adam öldürmə cinayəti üzrə zərərçəkənlərdən 98-i kişi, 83-ü qadın olmuş, təqsirləndirilənlərdən 160-ı kişi, 8-i qadın olmuşdur.

## SEKSUAL QISNAMA

Əmək Məcəlləsinin 31-cı maddəsinin 2-ci hissəsinin "o" bəndinə əsasən kollektiv müqaviləyə iş yerində və ya işlə əlaqədar olaraq seksual təhrik məsələlərinə dair izahat işi aparılmasına və informasiya verilməsinə yardım göstərilməsi və belə təhriklərin qarşısının alınması, işçiləri bu cür davranışdan qorumaq üçün bütün lazımi tədbirlərin görülməsi məsələlər üzrə tərəflərin qarşılıqlı öhdəlikləri daxil edilir.

Əmək Məcəlləsinin 195-ci maddəsinin "g" bəndinə əsasən işəgötürən əmək münasibətləri prosesində işçi seksual qısnamaya məruz qaldıqda işçiyə vurulan ziyana görə tam maddi məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 205-ci maddəsinə əsasən seksual qısnamaya görə işəgötürəndən və ya rəhbərindən şikayət etmiş işçiyə təzyiq göstərilməsinə və ya işçinin təqib olunmasına görə vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilirlər.

Əmək Məcəlləsinin 69-cu maddəsinin 3-cü hissəsinə əsasən işçi seksual qısnamaya məruz qaldıqda ərizəsində göstərdiyi gün əmək müqaviləsi ləğv edilə bilər. Bu normanın imperativ norma olaraq müəyyən edilməsi məqsədi ilə "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanun layihəsi hazırlanmışdır. Layihəyə əsasən işçi seksual qısnamaya məruz qaldıqda ərizəsini göstərdiyi həmin gün əmək müqaviləsinə xitam veriləcəkdir.

Qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə bir neçə xarici ölkələrin (Qazaxıstan) təcrübəsi araşdırılmış, eləcə də Dövlət Komitəsinin sifarişi əsasında 2022-ci ildə hazırlanmış "Azərbaycanda seksual qısnama: Qanunvercilik və onun tətbiqi praktikası haqqında Analitik hesabat nəzərə alınaraq məsələ ilə bağlı Azərbaycan Respublikasının Əmək Məcəlləsinin təkmilləşdirilməsinə dair təkliflərin ilkin versiyası hazırlanmışdır.

2023-cü il ərzində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən aşağıda adları qeyd olunan daxili prosedur qaydaları hazırlanmışdır:

- Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Aparatında, strukturuna daxil olan və strukturuna daxil olmayan tabeli qurumlarında cinsi qısnama hallarının baş verməsini istisna edən iş şəraitinin yaradılması məqsədilə – "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi işçilərinin cinsi qısnamaya məruz qalmasının qarşısının alınması Qaydaları";

- Nazirliyin Aparatında, strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumlarında qısnama və bullinqə qarşı mübarizə barədə işçilərin aydın şəkildə məlumatlandırılması, qısnama və bullinqə qarşı davranış gözləntilərinin, bu barədə məlumat və şikayətlərin verilməsi prosedurlarının müəyyən edilməsi məqsədilə – "Qısnama və bullinqi qadağan edən qaydaları.

2023-cü il ərzində Dövlət Gömrük Komitəsinə baş vermiş seksual qısnama halları ilə bağlı müraciət daxil olmamış və bu kimi halların qarşısının alınması üçün Dövlət Gömrük Komitəsi Kollegiyasının 2023-cü il 3 noyabr tarixli 3-33/3-2-000001/2023 nömrəli Qərarı ilə "zorakılıq və qısnama təzahürlərinin yolverilməzliyi" ilə bağlı müddəanın əks olunduğu "Gömrük orqanlarının vəzifəli şəxslərinin Etik Davranış Kodeksi" təsdiq edilmişdir.

## Erkən nikahların qarşısının alınması ilə bağlı görülən tədbirlər

Mütəmadi olaraq aparılan maarifləndirmə işləri, profilaktik tədbirlərə baxmayaraq hələ də erkən nikah problemi qalmaqdadır. Dünyada milyonlarla uşaq hər il bu zorakılığın qurbanı olurlar.

Erkən nikahların qarşısının alınması istiqamətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 213 saylı Qərarı ilə təsdiq edilmiş "Gənclər arasında ailə və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair Qaydası" qəbul edilmişdir. 13 dövlət qurumu və bütün yerli icra hakimiyyəti orqanları bu qaydaya uyğun olaraq tədbirlər həyata keçirilər.

Qaydada qeyd olunan 7 istiqamət üzrə **AQUPDK tərəfindən 2023-cü il ərzində ümumilikdə 107 maarifləndirici tədbir keçirilib, bu tədbirlərdən 210297 nəfər faydalanmışdır.**

İl ərzində 13 elektron poster Komitənin rəsmi saytında və facebook səhifəsində, eyni zamanda əhalinin geniş kütləsinin istifadə etdiyi məkanlarda (metro stansiyaların reklam lövhələrində, Baku Bus ASC nəqliyyat vasitələrinin lövhələrində) yerləşdirilib, 4000 stiker hazırlanıb və tədbir iştirakçılarına paylanılıb, 1 sosial reklam TV, sosial şəbəkələr vasitəsilə yayımlanıb.

Erkən nikahın və qohumlar arasında nikahın mənfi fəsadlarının izah edilməsi, belə halların baş verməsinin səbəblərinin təhlili və onların aradan qaldırılması istiqamətində **Dövlət Komitəsi tərəfindən aşağıdakı işlər görülmüşdür:**

- Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı şəhərinin tam orta məktəblərində və Abşeron rayonu, Masazır qəsəbəsi, Zəngilan şəhərciyində Zəngilan rayon məktəblərinin şagirdləri, valideynlər, məktəb psixoloqları və müəllimlərlə "Erkən nikahın və qohumlar arasında nikahın fəsadları" mövzusunda görüşlər keçirilib.

- Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzinin tələbələri və onların valideynləri ilə, Peşə Təhsili üzrə Dövlət Agentliyinin tabeliyində olan Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində və Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində tələbələrlə "Erkən nikah və qohumlar arasında nikahın mənfi nəticələri" mövzusunda görüşlər keçirilib. Tədbirlərin ümumi sayı: 10 Faydalananların ümumi sayı: 1124 nəfər

- Uşaq və Ailələrə Dəstək Mərkəzləri aidiyyəti qurumların əməkdaşları ilə birlikdə "Tibb müəssələrindən kənarda baş verən doğuş faktlarına nəzarətin gücləndirilməsi" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masada 200 nəfər iştirak edib

Uşaq evliliklərinin və erkən nikah hallarının qarşısının alınması məqsədilə **Komitə tərəfindən aşağıdakı maarifləndirici sosial reklamlar, vəsaitlər hazırlanıb əhaliyə paylanmış və elektron lövhələrdə nümayiş olunmuşdur.**

- "Uşaq evliliyinə YOX de" adlı elektron poster hazırlanıb və Bakı şəhərində metro stansiyalarında yerləşən elektron lövhələr, Dövlət Komitəsinin sosial şəbəkə səhifələri vasitəsilə nümayiş etdirilib.

- "Erkən nikah valideyni cinayətkar edir!", "Uşaqlarımızın hüquqlarını qoruyaq!" mövzularında stikerlər il ərzində keçirilən maarifləndirmə tədbirlərində iştirakçılar arasında paylanılıb.

- Erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair "Ölkədə qo-

hum evlilikləri üzrə vəziyyətin öyrənilməsinə dair keçirilmiş tədqiqatın təhlili” adlı kitabça çap edilib.

• Övladlarımız ən böyük layihəmizdir” adlı sosial-çarx hazırlanıb və Dövlət Komitəsinin sosial şəbəkə səhifələrində yayımlanıb, geniş kütləyə çatdırılması məqsədilə Audiovizual Şuraya göndərilib.

Hesabat ili ərzində erkən evliliyin qarşısının alınması ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən maarifləndirici tədbirlər keçirilmişdir.

**Elm və Təhsil Nazirliyi tərəfindən** 2023-cü ildə erkən nikah, təhsildən yayınma hallarının qarşısının alınması məqsədilə aşağıdakı tədbirlər həyata keçirilmişdir:

Uşaq nikahlarının qarşısının alınması tədbirlərinin gücləndirilməsi məqsədilə 9-cu siniflər üçün nəzərdə tutulmuş “Həyat bilgisi” dərsliyinə “Sağlam ailə sağlam gələcəyin təminatıdır” adlı mövzu daxil edilib. Sözügedən mövzu vasitəsilə şagirdlərə qan qohumları arasında bağlanan nikahın və erkən nikahın sağlam ailənin qurulmasına mənfi təsiri, qan qohumları arasında bağlanan nikah nəticəsində dünyaya gələcək körpələrdə anadangəlmə qüsurların və bir sıra irsi xəstəliklərin əmələgəlmə riskinin çox yüksək olması barədə məlumatlar verilir.

- Uşaq nikahlarının, erkən və məcburi nikahların qarşısının alınması tədbirlərinin gücləndirilməsi məqsədilə BMT-nin Uşaq Fondunun Azərbaycandakı Nümayəndəliyinin (YUNİSEF) və Elm və Təhsil Nazirliyinin birgə tədbirlər planına uyğun olaraq ümumtəhsil məktəblərində erkən nikahlar, məişət zorakılığı, gənclərin sağlam həyat tərzi və s. mövzularda dəyirmi masalar keçirilib.
- İnternat məktəblərində “Erkən nikah hallarına qarşı mübarizə” mövzusunda yuxarı sinif şagirdlərinə mühazirələr keçirilib.
- Nazirlik Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşəbbüsü ilə “Uşaq nikahlarının qarşısının alınması tədbirlərinin gücləndirilməsi” istiqamətində onlayn platformada təlimlər keçirilib.



- Ümumtəhsil məktəblərində şagirdlərlə "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə" qaydasına əsasən onlayn formatda “açıq dərs” keçirilib. “Açıq dərs”də erkən nikahların ailə quran şəxslərə, onların uşaqlarına, ümumilikdə isə ailə quruluşuna və bütövlükdə cəmiyyətə mənfi təsir göstərməsi barədə danışılıb.
- "Ailə kiçik dövlətdir", erkən nikahın zərəri, nikahsız qurulmuş ailələrdə sonrakı problemlər, yaxın qohumlar arasında nikahın mənfi təsirləri, irsi xəstəliklər, qan xəstəlikləri, onların profilaktikası barədə maarifləndirici videotədbirlər keçirilib.

Elm və Təhsil Nazirliyinin sistemində fəaliyyət göstərən internat məktəblərində və internat tipli təhsil müəssisələrində qızların yeniyetməlik dövründə təhsildən yayınaraq və erkən nikahlara cəlb edilməsi hallarına yol verilmir. Bu kimi hallar yarandıqda müəssisə rəhbəri tərəfindən uşağın himayəçisinin yaxud yaxın qohumunun yaşadığı ərazi üzrə rayon/şəhər icra hakimiyyətinə və polis idarəsinə uşağın təhsildən yayındırılmasının qarşısının alınması üçün köməklik göstərilməsi ilə bağlı rəsmi müraciət olunur. Birgə həyata keçirilən tədbirlər nəticəsində uşağın təhsilə cəlb edilməsi təmin edilir.

**Daxili işlər orqanları tərəfindən** məişət zorakılığının, eləcə də erkən nikahların qarşısının alınması məqsədilə əhali arasında, həmçinin ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri ilə izahat və hüquqi maarifləndirmə tədbirlərinin təşkilinə önəm verilərək “Erkən nikahların hüquqi məsuliyyəti və sosial-psixoloji aspektləri”, “Ailə dəyərləri və qanunvericilik”, “Ailə dövlətin xüsusi himayəsindədir”



və s. mövzularda orta-ixtisas və ali təhsil müəssisələrində 2600-dən çox görüş, yığıncaq və maarifləndirmə tədbirləri keçirilib. Bununla yanaşı, təhsildən yayınma hallarının qarşısının alınması sahəsində görülmüş tədbirlərlə 65 yetkinlik yaşına çatmayan qız müəyyən edilərək təhsilə qaytarılmaları təmin olunub.

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən** 2023-cü il ərzində erkən nikahlar, qohumlar arasında nikahın fəsadları barədə gənclərin və valideynlərin məlumatlandırılması, eləcə də gender zorakılığına qarşı mübarizə məqsədilə ümumilikdə postlar hazırlanmış və Agentliyin 5 sosial media platformasındakı səhifələrində (“Facebook”, “Instagram”, “LinkedIn”, “Telegram”, “X(Twitter)”) paylaşılmışdır.

Bununla bərabər, gender zorakılığının səbəb olduğu erkən nikahın və qohumlar arasında nikahın tibbi fəsadları barədə 2023-cü il ərzində TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrinə, orta təhsil müəssisələrinə, Dövlət Komitəsinə və qeyri-hökumət təşkilatlarına ümumilikdə 20900 ədəd “Erkən nikahın və qohum evliliyinin ana və uşaq sağlamlığına mənfi təsirləri” adlı kitabça təqdim edilmişdir.

**Sosial Xidmətlər Agentliyi** 2023-cü il ərzində "Erkən nikah insan alverinə şərait yaradan amillərdən biri kimi" mövzusunda regionlarda Gənclər Evlərində maarifləndirici tədbirlər keçirilmişdir. Agentliyin rəsmi internet hesablarında “Erkən nikah halları və erkən nikahların fəsadları” haqqında məlumatlandırma tədbirlərinin genişləndirilməsi istiqamətində poster, press-reliz və videolar yayınlanmışdır.

**Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən** məişət zorakılığının, erkən nikahların qarşısının alınması, uşaq hüquqlarının profilaktikası, hüquqpozmaların və digər zərərli vərdişlərin qarşısının alınması istiqamətində il ərzində 51 dəfə tədbir həyata keçirilmişdir.

**“Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxs tərəfindən** Agentliyin sosial şəbəkələrində "Erkən nikah cinayətdir", "Ailə Məcəlləsinin 10-cu maddəsi qadınlar üçün nikah yaşını 18 yaş təyin edib", "Yetkinlik yaşına çatmayan qızların məcburən nikaha daxilolma halı uşağa qarşı törədilən zorakılıqdır" mövzularında 4 maarifləndirici post paylaşılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı ilə “Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası“na əsasən 2020-ci idən etibarən Dövlət Komitəsi tərəfindən hər il aidiyyəti qurumlardan il ərzində görülmüş işlər üzrə daxil olan məlumatlar ümumiləşdirilir, Dövlət Komitəsinin rəsmi internet saytında dərc edilir və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verilir.

2022-ci və 2023-cü illər üzrə hesabatlar dərc edilib. ***https://family.gov.az/az/reports***

Hər il erkən evliliklərin sayı 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı ilə müəyyən edilir. **2022-ci illə müqayisədə 2023-cü ildə 18 yaşınadək analar tərəfindən doğulan uşaqların sayı 269 nəfər azalaraq 1742 nəfər olmuşdur.**

**Bakı şəhərinin 12 rayon icra hakimiyyətlərinin**
**2022-2023 ci illər nikah yaşının 1 il azaldılması ilə bağlı statistikası**

| Şəhər icra hakimiyyətlərinin adı | Nikah yaşının 1 il azaldılması 2022 | Nikah yaşının 1 il azaldılması 2023 |
|---|---|---|
| Binəqədi | 1 | - |
| Nizami | - | - |
| Nəsimi | - | - |
| Nərimanov | - | - |
| Yasamal | - | - |
| Xətai | - | - |
| Xəzər | - | 3 |
| Suraxanı | 1 | 2 |
| Sabunçu | 2 | 4 |
| Səbail | - | - |
| Qaradağ | 1 | - |
| Pirallahı | - | - |
| **Cəmi:** | **5** | **9** |

**Bakı şəhərinin 12 rayonu üzrə** şəhər icra hakimiyyətlərinə erkən evliliklə bağlı 15 müraciət daxil olmuşdur. Hamiləlik, uşağın doğulması və digər üzürlü hesab oluna biləcək səbəblər araşdırılmış nəticə olaraq **2023-cü ildə 9 müraciət üzrə** (Sabunçu rayonu-4, Xəzər-3, Suraxanı rayonu-2) nikah yaşının 1 il azaldılmasına sərəncam verilmişdir. Müraciətlərlə əlaqədar vətəndaşlarla profilaktik söhbətlər aparılmış, ailələr nəzarətə götürülmüş, qanunvericiliyin tələbləri izah edilmiş və erkən evliliyin qarşısı alınmışdır.

**2022-ci ildə 5 müraciət üzrə** izacə verilmişdir. Bu da onu göstəriri ki, 2023-cü ildə erkən evliliklə bağlı müraciətlər üzrə icazələrin sayı artmışdır.

## Azərbaycanın iqtisadi rayonlarının 2023-cü il üzrə nikah yaşının 1 il azaldılması ilə bağlı statistikası

| İnzibati rayonların adı | Rayon və şəhərlərin sayı | Nikah yaşının 1 il azaldılması cəmi |
|---|---|---|
| **Abşeron-Xızı** | Sumqayıt şəhəri - 0<br>Abşeron rayonu - 1<br>Xızı rayonu - 1 | 2 |
| **Gəncə-Daşkəsən** | Gəncə şəhəri - 2<br>Naftalan şəhəri - 0<br>Daşkəsən rayonu - 4<br>Goranboy rayonu - 0<br>Göygöl rayonu - 5<br>Samux rayonu-2 | 13 |
| **Şəki-Zaqatala** | Şəki şəhəri - 3<br>Balakən rayonu - 2<br>Qax rayonu - 0<br>Qəbələ rayonu - 0<br>Oğuz rayonu - 4<br>Zaqatala rayonu- 0 | 9 |
| **Lənkəran-Astara** | Lənkəran şəhəri - 2<br>Astara rayonu - 0<br>Cəlilabad rayonu - 0<br>Masallı rayonu - 1<br>Lerik rayonu - 0<br>Yardımlı rayonu - 3 | 6 |
| **Quba-Xaçmaz** | Quba rayonu -5<br>Qusar rayonu - 0<br>Xaçmaz rayonu - 3<br>Siyəzən rayonu - 5<br>Şabran rayonu - 2 | 15 |
| **Mərkəzi Aran** | Mingəçevir şəhəri - 3<br>Kürdəmir rayonu - 0<br>Ağdaş rayonu - 7<br>Göyçay rayonu - 2<br>Ucar rayonu - 1<br>Yevlax rayonu - 15<br>Zərdab rayonu - 2 | 30 |
| **Qarabağ** | Şuşa şəhəri - 1<br>Ağcabədi rayonu - 20<br>Ağdam rayonu - 4<br>Bərdə rayonu - 26<br>Füzuli rayonu - 1<br>Xocalı rayonu - 2<br>Xocavənd rayonu - 3<br>Tərtər rayonu - 7 | 64 |
| **Şərqi Zəngəzur** | Kəlbəcər rayonu - 1<br>Qubadlı rayonu - 0<br>Zəngilan rayonu - 0<br>Laçın rayonu -0<br>Cəbrayıl rayonu - 0 | 1 |
| **Dağlıq Şirvan** | Ağsu rayonu - 10<br>İsmayıllı rayonu - 3<br>Qobustan rayonu - 4<br>Şamaxı rayonu - 8 | 25 |

| | | |
|---|---|---|
| **Qazax-Tovuz** | Ağstafa rayonu - 3<br>Gədəbəy rayonu - 0<br>Şəmkir rayonu - 7<br>Qazax rayonu - 2<br>Tovuz rayonu - 13 | 25 |
| **Mil-Muğan** | Beyləqan rayonu - 1<br>İmişli rayonu - 0<br>Saatlı rayonu - 9<br>Sabirabad rayonu - 6 | 16 |
| **Şirvan-Salyan** | Biləsuvar rayonu - 21<br>Hacıqabul rayonu - 6<br>Salyan rayonu - 0<br>Neftçala rayonu<br>Şirvan -0 | 27 |
| **Cəmi:** | | **233** |

***Yerli rayon icra hakimiyyətlərindən aldığımız məlumata görə, Azərbaycanın 12 iqtisadi rayonu üzrə*** *293 (2022-ci idə 269) erkən evliliyin qarşısı alınmışdır. Gədəbəy 29, Lənkəran 22, Abşeron 16, Şabran 15 rayonlarında erkən evlilik cəhdləri olmuş, qarşısı alınmışdır.*

*Bununla bərabər* ***12 iqtisadi rayon üzrə nikah yaşının 1 il azaldılması ilə bağlı*** *daxil olan məlumatlar araşdırılmış,* ***üzürlü səbəblər müəyyən edildikdən sonra 233*** *(2022-ci ildə 271)* ***yetkinlik yaşına çatmayan şəxsə icra orqanları tərəfindən icazə verilmişdir****.*

*Statistik rəqəmlər göstərir ki, nikah yaşının 1 il azaldılması ilə bağlı verilən icazələrin sayında 38 (nikah) azalma var.*

*Qarabağ (64 erkən evlilik) və Mərkəzi Aran (30 erkən evlilik) rayonları üzrə göstəricilər bu ərazilərdə erkən evliliyə daha çox meyl olduğunu göstərir. 2022-ci ildə Qazax-Tovuz (59) və Mərkəzi Aran (40) rayonlarında erkən evliliyə daha çox meyl olmuşdur.*

*Xüsusilə Bərdə-26, Biləsuvar-21, Ağcabədi-20 və Yevlax-15 rayonlarında nikah yaşının 1 il azaldılmasına daha çox razılıq verilmişdir.*

***Naxçıvan Muxtar Respublikasının icra hakimiyyətləri tərəfindən*** *(Babək, Culfa və Sədərək Rayon) ümumilikdə 7 nəfərə nikah yaşının azaldılması ilə bağlı icazə verilmişdir.*

*Dövlət Komitəsi tərəfindən* ***"Tibb müəssisələrindən kənarda baş verən doğuş faktlarına nəzarətin gücləndirilməsi, belə faktlar əsasında uşaq evliliklərinin aşkarlanması üzrə" Analitik hesabat*** *hazırlanmışdır.*

***http://family.gov.az/store/media/aida/do%C4%9Fu%C5%9F%20faktlar%C4%B1%20(1).pdf***

*Azərbaycanda tibb müəssisəsindən kənar baş verən doğuş faktlarına nəzarətin gücləndirilməsi eyni zamanda bu halların yaranmasına səbəb olan faktların aşkarlanmasına yönəlmiş analitik hesabat ölkə üzrə ev doğuşlarının səviyyəsinin, bu problemlərin meydana çıxma səbəblərinin, əhalinin müxtəlif qruplarının qeyd olunan problemlərə*

yanaşmasının və bu sahələrdə müsbət dəyişiklik yarada biləcək siyasətin müəyyən edilməsi məqsədilə hazırlanmışdır.

Aparılmış tədqiqatın nəticələrinə uyğun olaraq, tibb müəssisələrindən kənarda baş verən doğuş faktlarına nəzarətin gücləndirilməsi, belə faktlar əsasında uşaq evliliklərinin aşkarlanması məqsədilə respublika üzrə profilaktik və maarifləndirmə tədbirlərinin həyata keçirilməsinə ehtiyac vardır. Belə ki, sorğuların nəticəsindən aydın olduğu kimi, bu halların qarşısının alınması üçün aidiyyəti qurumların fəaliyyətində aşağıda qeyd olunan məsələlərin nəzərə alınması məqsədəuyğundur:




## Təkliflər və Tövsiyələr

***1. Qanunvericiliyin təkmilləşdirilməsi:***

***1.1*** *Azərbaycan Respublikası Ailə Məcəlləsinin 10-cu maddəsində (üzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər) istisna meyarlarının göstərilməməsi hüquqi baxımdan qeyri-müəyyən hal olaraq qiymətləndirilir. Bunu nəzərə alaraq, qanunvericilikdə nikah yaşının azaldılmasına əsas verən üzrlü səbəblərin dəqiqləşdirilməsi və ya nikah yaşının 1 ildən çox olmayaraq azaldılması halının aradan qaldırılması;*

***1.2*** *Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 152-ci maddəsində tövsif edilən əməlin (on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə) on səkkiz yaşına çatmayan şəxslərə qarşı törədilməsi ilə bağlı maddəyə dəyişiklik edilməsi;*

***1.3*** *Nikah yaşının 18 yaş olduğu nəzərə alınaraq yetkinlik yaşına çatmayanlarla qeyri-rəsmi erkən nikaha daxil olan şəxslər və buna şərait yardan valideynlər barəsində İnzibati Xətalar Məcəlləsi və Cinayət Məcəlləsində məsuliyyət tədbirlərinin əks olunması;*

***1.4*** *Yetkinlik yaşına çatmayanların dini nikaha daxil olmasına şərait yaradan din xadimləri üçün məsuliyyətin müəyyən edilməsi;*

***1.5*** *Təcili tibbi yardıma xəbər vermədən, yaxud, bu halı mütəmadi olaraq həyata keçirən (iş xarakterli) evdə doğuş aparan şəxslər/tibb işçiləri üçün cəza tədbirlərinin müəyyən edilməsi;*

***1.6*** *Cəza tədbirlərinin həyata keçirilmə mexanizminin təkmilləşdirilməsi, onların tətbiqinə dair nəzarət gücləndirilməsi;*

**1.7** *Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 176.1-ci maddəsinin tətbiqi üzrə hüquq-mühafizə orqanları tərəfindən (Daxili İşlər Nazirliyi, Baş Prokurorluq) aparılmış monitorinqlərin nəticələrinin açıqlanması;*

**1.8** *Uşaq evliliyi ilə bağlı toy məclislərinin təşkil olunduğu məkan sahibləri üçün məsuliyyətin nəzərdə tutulması.*

***2. Dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və mütəxəssislərin məlumatlılığının artırılması:***

**2.1** *Məktəb psixoloqlarının uşaq hüquqlarının qorunması istiqamətində mütəmadi olaraq təlim və seminarlara cəlb edilməsi;*

**2.2** *erkən nikaha daxil olan yeniyetmələrin təhsilinin davam etdirmələri üçün alternativ təhsil proqramlarının təşkil olunması;*

**2.3** *ev və stasionardan kənarda baş verən doğuşlarda sənədləşmə qaydalarına dair təlimatın hazırlanması və tətbiqi;*

**2.4** *Səhiyyə Nazirliyinin Statistika İdarəsi tərəfindən ev doğuşları və stasionardan kənar doğuşların anaların yaş qrupları üzrə bölgüsünün aparılması.*

**2.5** *Uşaq evlilikləri, eləcə də ev doğuşları ilə bağlı tədqiqatların aparılması, xüsusi metodika əsasında yayılma göstəricilərinin müəyyən edilməsi;*

**2.6** *"Yeniyetmə hamilələrə antenatal qulluq" mövzusunda kliniki protokolun işlənib hazırlanması;*

**2.7** *Erkən nikahların qarşısının alınması və bu sahədə mövcud qanunvericiliyin effektiv tətbiqi məqsədilə hüquq-mühafizə orqanları və məhkəmə əməkdaşları üçün təlimlərin təşkili;*

**2.8** *Din xadimləri arasında maarifləndirmə işlərinin gücləndirilməsi;*

**2.9** *Uşaq hüquqlarının qorunması sahəsində dini nikahların qeydiyyata alınması qaydalarının müəyyən edilməsi;*

**2.10** *Orta məktəblərdə reproduktiv sağlamlıq, cinsi tərbiyə, ailə hüququ mövzularının dərs saatlarına əlavə edilməsi;*

**2.11** *Uşaq evliliklərinin qarşısının alınması məqsədilə tədbirlər planının qəbul edilməsi;*

**2.12** *Qeyri-rəsmi şəkildə fəaliyyət göstərən din xadimləri tərəfindən dini nikah mərasimlərinin keçirilməsi hallarının qarşısını almaq üçün müvafiq tədbirlərin görülməsi.*

***3. Əhalinin maarifləndirilməsi:***

**3.1** *Valideynlər arasında erkən yaşda evliliklərin fəsadları ilə bağlı maarifləndirici tədbirlərin keçirilməsi;*

**3.2** *Qeyri-hökümət təşkilatları tərəfindən evdə doğuşun fəsadları, həyati təhlükələr ilə bağlı bölgələrdə maarifləndirmə işinin təşkili;*

**3.3** *Mediada erkən nikah, eləcə də, ev doğuşlarının fəsadları ilə bağlı məsələlərin işıqlandırılması (verilişlər, posterlər, ictimai müzakirələr);*

**3.4** *Uşaq hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən aidiyyəti qurumların əməkdaşları, tibb işçiləri, din xadimlərinin iştirakı ilə maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;*

**3.5** *Tibb müəssisələrindən kənarda baş verən doğuş hallarının qarşısının alınması ilə bağlı maarifləndirici vəsaitlərin hazırlanması.*

## Uşaqların doğulanadək cins seçiminin (selektiv abortlar) qarşısının alınması ilə bağlı tədbirlər

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2023-cü il üzrə doğumu qeydə alınmış 112620 nəfərdən 59814-ı oğlan, 52806-sı isə qızdır. Cinslər arasındakı fərq 7008 nəfərdir. Cins nisbəti hər 100 qıza 113 oğlan təşkil edir.**

2022-ci il üzrə doğumu qeydə alınmış 122846 nəfərdən 64940-ı oğlan, 57906-sı isə qızdır. Cinslər arasındakı fərq 7034 nəfər olmuşdur. Cins nisbəti hər 100 qıza 112 oğlan təşkil etmişdir.

***2022-ci illə müqayisədə 2023-cü ildə cinslər arasındakı fərq azalmış, 7034-dən 7008-ə düşmüşdür.***

Dünyada ən aktual problemlərdən olan abortlara münasibət müxtəlifdir. Bir qrup insanlar buna ailənin öz şəxsi qərarı olaraq hörmətlə yanaşdıqlarını bildirirlər. Digər qisim insanlar abortun tibbi və psixoloji cəhətdən zərərli olduğunu bildirirlər. Ölkəmizdə də abortlar problem olaraq qalmaqdadır.

Statistika göstərir ki, ***abortların sayı 2021-ci ildə 46877, 2022-ci ildə 57999, 2023-cü ildə isə 73816 olmuşdur. 15-49 yaşlı hər 1000 qadına düşən abortların sayı 27,9 olmuşdur.***

Hesabat ili ərzində "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nın icrasını təmin etmək məqsədi ilə müxtəlif tədbirlər həyata keçirilmişdir.

Uşaqların doğulanadək cins seçiminin qarşısının alınması və gender stereotiplərinin aradan qaldırılması istiqamətində, eləcə də vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi məqsədilə Dövlət Komitəsinin dəstəyi ilə "Yaşadaq. Ümid Qanadları" adlı sosial layihə hazırlanıb. Layihə çərçivəsində "Bərabər inkişaf naminə qızlarımıza dəyər verək!" #qızlarıngücü mövzusunda sosial çarx Bakı şəhərinin küçələrində yerləşdirilən elektron ekranlarda nümayiş olunub.

Dövlət Komitəsi Qadın Resurs Mərkəzlərində "Reproduktiv sağlamlıq və ailə planlaşdırılması, selektiv abortlar" mövzusunda maarifləndirici görüşlər təşkil etmişdir. Tədbirlərdə reproduktiv sağlamlıq, reproduktiv sistem, onun funksiya və proseslərinə aid olan məsələlər, selektiv abortların gətirdiyi mənfi nəticələr və törətdiyi fəsadlar barədə ətraflı məlumatlar verilmişdir. Həmçinin ailə planlaşdırılması zamanı lazımi analizlər, yoluxucu xəstəliklər barədə ətraflı fikir mübadiləsi aparılmışdır. Tədbirlərdə hər rayon üzrə 30 nəfər qadın olmaqla 150 nəfər qadın iştirak etmişdir.

Dövlət Komitəsi, Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) və Təhsil Nazirliyinin birgə əməkdaşlığı ilə Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində, Bakı Dövlət



Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecində tələbələr üçün və Bakı Slavyan Universitetinin nəzdində məktəb-lisey kompleksində şagirdlər üçün "Reproduktiv sağlamlıq və ailə planlaşdırılması. Doğulacaq uşağın cinsinin seçilməsinin qarşısının alınması" mövzusunda tədbirlər keçirilmiş, maarifləndirici bukletlər paylanılmışdır.

Dövlət Komitəsi və İSİM-in əməkdaşlığı çərçivəsində Rəssamlıq Akademiyasının nəzdində İncəsənət Kollecində, Milli Konservatoriya nəzdində Musiqi Kollecində, Azərbaycan Dövlət Aqrar Universitetində "Reproduktiv sağlamlıq və ailə planlaşdırılması. Doğulacaq uşağın cinsinin seçilməsinin qarşısının alınması", "Abort və onun fəsadları" mövzularında tədbirlər keçirilmiş, maarifləndirici bukletlər paylanılmışdır.

Astara, Samux rayonlarında gənclər üçün "Reproduktiv sağlamlıq və ailə planlaşdırılması. Doğulacaq uşağın cinsinin seçilməsinin qarşısının alınması" mövzusunda tədbir keçirilmişdir. İştirakçılara reproduktiv sağlamlığın qorunması istiqamətində tövsiyələr verilmiş, abortların və selektiv abortların mənfi təsirləri və fəsadları izah olunmuş, maarifləndirici bukletlər paylanılmışdır.

2023-ci ilin iyun ayında BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycan nümayəndəliyinin dəstəyi, TƏBİB-in əməkdaşlığı ilə İSİM tərəfindən "Azərbaycanda selektiv abortlara təsir edən sosial, ictimai, tibbi və digər amillərin öyrənilməsinə dair" sorğu keçirilib. Keçirilən sorğunun əsas məqsədi Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan əsas mexanizmlərin öyrənilməsi, statistik məlumatların əldə edilməsidir. Sorğu Bakı şəhərində və regionlarda ümumilikdə 21 doğuşayardım tibb müəssisəsində, 917 nəfər (ginekoloq, ultrasəsli diaqnostika



(USM) həkimləri, mamalar, tibb bacıları) respondent arasında aparılıb.

İSİM tərəfindən hazırlanaraq nəşr edilən müxtəlif mövzulara dair 180 mindən çox 45 adda maarifləndirici materiallar (buklet, vərəqə, kitabça və s.), o cümlədən 35 adda kliniki protokollar təqdim olunub. Maarifləndirmə materiallarında xəstəliklərin profilaktikası, doğulacaq uşağın cinsinin seçilməsi və erkən evliliyinin qarşısının alınması, məişət zorakılığının qarşısının alınması, gender əsaslı zorakılıq, sağlam həyat tərzi, zərərli vərdişlərin mənfi təsirləri, ailə planlaşdırılması və digər mövzular barədə ətraflı məlumat və tövsiyələr yer alıb. Materiallar əlçatanlığın təmin olunması məqsədilə ***www.isim.az*** saytında resurslar bölümündə yerləşdirilib.

***(https://www.isim.az/az/pages/20-Resurslar)***

İSİM tərəfindən hazırlanmış "Sağlam uşaq" adlı internet portalına və mobil tətbiqə ***(www.saglamusaq.az)*** "Zorbalıq və gender əsaslı zorakılıq", "Qadınlara qarşı gender zorakılığı", mövzularında materiallar yerləşdirilmişdir.

Elm və Təhsil Nazirliyi ümumi təhsil müəssisələrinin şagirdləri arasında sağlam həyat tərzi və reproduktiv sağlamlıq, eləcə də erkən və qohumlararası nikahların qarşısının alınması sahəsində maariflən-

dirmə işinin aparılması məqsədilə “Ümumi təhsil müəssisələrinin VIII-IX siniflərində reproduktiv sağlamlıq mövzusunda məşğələlər üzrə metodiki vəsait” hazırlanmışdır. Metodik vəsaitin elektron versiyası ***www.trims.edu.az*** saytına yerləşdirilmişdir.

***https://www.trims.edu.az/noduploads/book/umumi-tahsil-muassisalarinin-viii-ix-siniflarinda-reproduktiv-saglamliq-movzusunda-masgalalar-uzra-metodiki-vasait.pdf***

Sözügedən metodik vəsait üzrə ölkənin 65 şəhər və rayonunda 3274 ümumi təhsil müəssisəsində 108004 nəfər VIII, 102463 nəfər IX sinif şagirdlərinin iştirakı ilə maarifləndirmə tədbirləri keçirilmiş, həmçinin mövzuya həsr edilmiş 1376 valideyn iclası təşkil edilmişdir.

***https://edu.gov.az/az/news-and-updates/19960-1***

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik), Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və BMT-nin Əhali Fondunun (UNFPA) birgə təşkilatçılığı ilə 2022-ci ilin oktyabr ayından başlayan Lənkəran Perinatal Mərkəzi və Ailə Sağlamlıq Mərkəzində ana ölümünün azaldılması istiqamətində “Azərbaycanın cənub bölgəsində təhlükəsiz analıq” adlı 3 mərhələli pilot layihə 2023-cü ildə də davam etdirilmişdir. Mərkəzləşdirilmiş doğum şöbələri olan bir neçə tibb müəssisəsində icra olunan layihənin əsas fəaliyyət istiqamətlərinə tibb personalının potensialının artırılması və əhali arasında cins balansının pozulması hallarının qarşısının alınması, maarifləndirmə tədbirlərinin keçirilməsi, həmçinin kliniki protokolların və metodik vasitələrin yenilənməsi üçün tövsiyələrin hazırlanması daxildir.

**Ailə planlaşdırılması xidmətinin təşkili üzrə 22 361 tibbi xidmət göstərilmişdir.**

**İcbari tibbi sığortanın Xidmətlər zərfi çərçivəsində TƏBİB-in tabeliyində** olan dövlət tibb müəssisələrinə 2022-ci il ərzində 55%-i qadın, 45%-i kişi olmaqla 17 836 873 müraciət edilmişdir.

2023-cü ildə isə TƏBİB-in tabeliyində olan dövlət tibb müəsisələrinə 22 301 393 müraciət daxil olmuş, onlardan 12 585 720 müraciət qadınlar (57%), 9 715 673 müraciət isə kişilər (43%) tərəfindən edilmişdir. Pasiyent sayı isə 5 011 538 olmuşdur. Onlardan 2 626 003 nəfərini qadınlar, 2 385 535 nəfərini isə kişilər təşkil etmişdir.

**Qadınların ən çox müraciət etdiyi sahələr** endokrin sistemi xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları, tənəffüs sistemi xəstəlikləri, qan dövranı sistemi xəstəlikləri olduğu halda **kişilərin ən çox müraciət etdiyi sahələr** isə tənəffüs sistemi xəstəlikləri, qan dövranı sistemi, endokrin sistem xəstəlikləri olmuşdur.

| Cins | Pasiyent sayı | Müraciət sayı |
|---|---|---|
| **Qadın** | 2 626 003 | 12 585 720 |
| **Kişi** | 2 385 535 | 9 715 673 |
| **Cəmi** | **5 011 538** | **22 301 393** |

## 1.4. Dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində gender bərabərliyinin qorunması

Dövlət orqanlarında və onların sistemində 2023-cü ildə rəhbər vəzifələrdə çalışan qadınların sayında əhəmiyyətli dəyişiklik baş verməmişdir.

*Rəhbər vəzifədə çalışan qadınların sayı, nəfərlə*

| | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Milli Məclisin sədri | | | 1 | 1 | 1 | 1 |
| Vitse-prezident | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| Ombudsman | | 1 | 1 | 1 | 2 | 2 |
| Nazir | 1 | 1 | 1 | 1 | 1 | 0 |
| Nazir müavini | 6 | 8 | 8 | 9 | 8 | 6 |
| Dövlət Komitəsi sədri | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| Dövlət Komitəsi sədrinin müavini | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| Yerli icra hakimiyyəti başçısı | 1 | 1 | 1 | 2 | 1 | 0 |
| Yerli icra hakimiyyəti başçısının müavini | 79 | 76 | 72 | 72 | 68 | 68 |

### Məhkəmə

2023-cü ilin sonuna hakimlərin ümumi sayı (Konstitusiya Məhkəməsinin hakimləri istisna olmaqla) 595 nəfər olmuşdur, onların 139 nəfərini qadın, 456 nəfərini isə kişi hakimlər təşkil etmişdir.

Qadın hakimlərin 4 nəfəri Ali Məhkəmənin, 18 nəfəri Apellyasiya Məhkəmələrinin, 117 nəfəri isə birinci instansiya məhkəmələrinin hakimləridir.

2022-ci illə (111 nəfər) müqayisədə 2023-cü ildə (139 nəfər) qadın hakimlərin sayında 28 nəfər artım müşahidə olunur.

2022-ci illə müqayisədə birinci instansiya məhkəmələrinin hakimlərinin sayı 89-dan 117-yə çatmışdır.

### Prokurorluq

2023-cü il üzrə prokurorluq orqanlarında 98 qadın, 1142 kişi olmaqla ümumilikdə 1240 nəfər işçi fəaliyyət göstərmişdir. Onlardan 8-i qadın, 255-i kişi olmaqla rəhbər vəzifələrdə çalışmışlar.

| Prokurorluq orqanlarında çalışanların 2020-2023-cü illər üzrə gender bölgüsü | | | | | |
|---|---|---|---|---|---|
| | **Ümumi işçilərin sayı** | **Kişilər** | **Qadınlar** | **Rəhbər kişi** | **Rəhbər qadın** |
| **2020** | 1157 | 1079 | 78 | 247 | 8 |
| **2021** | 1196 | 1109 | 87 | 247 | 8 |
| **2022** | 1221 | 1134 | 87 | 252 | 8 |
| **2023** | 1240 | 1142 | 98 | 255 | 8 |

2023-cü il üzrə prokuror (tabe rayon (şəhər) və hərbi prokurorluqlarına rəhbərlik edən, eləcə də idarə(şöbə) prokurorları) vəzifəsində işləyən qadınların sayı 55, kişilərin sayı isə 471 olmuşdur.

| Prokuror (tabe rayon(şəhər) və hərbi prokurorluqlarına rəhbərlik edən, eləcə də idarə(şöbə) prokurorları) vəzifəsində işləyənlərin gender bölgüsü | | |
|---|---|---|
| | **Kişilər** | **Qadınlar** |
| **2020** | 463 | 42 |
| **2021** | 479 | 43 |
| **2022** | 477 | 42 |
| **2023** | 471 | 55 |

Cədvəldən görünür ki, 2023-cü ildə prokuror vəzifəsində işləyən kişilərin sayı azalmış, qadınların sayı artmışdır.

***Prokurorluq orqanlarına işə qəbul olunanların gender təhlili***

| **Yaş aralığı** | **İştirak edən namizəd sayı kişi** | **İştirak edən namizəd sayı qadın** | **Uğur qazanan namizəd sayı kişi** | **Uğur qazanan namizəd sayı qadın** |
|---|---|---|---|---|
| 0-24 | 125 | 37 | 53 | 18 |
| 25-29 | 130 | 23 | 50 | 10 |
| 30-34 | 13 | 3 | 5 | 1 |

Prokurorluq orqanlarına işə qəbulda iştirak edən namizədlərin gender bölgüsünə nəzər saldıqda görürük ki,

**0-24 yaş** aralığı kişilərin **42%-i**, qadınların **50%-i** imtahanlarda uğur qazanmışdır.
**25-29 yaş** aralığı kişilərin **39%-i**, qadınların **45%-i** imtahanlarda uğur qazanmışdır.
**30-34 yaş** aralığı kişilərin **38%-i**, qadınların **33%-i** imtahanlarda uğur qazanmışdır.

## Ədliyyə

2023-cü ildə ədliyyə orqanlarıda çalışan 6521 faktiki işçidən 1390 nəfərini - 21,3%-ni (2022-ci ildə 17,9%) qadınlar təşkil etmişdir. Onlardan 550 kişi və 85 qadın rəhbər vəzifədə çalışmışdır.

Cəmi 147 xüsusi notariusdan 20-si qadınlar olduğunu nəzərə alaraq, ədliyyə orqanlarında çalışan qadınların ümumi sayı 1410 nəfər, rəhbər qadınların sayı isə 105 nəfər təşkil etmişdir.

2023-cü ildə Nazirliyin aparatının, habelə Ədliyyə Akademiyası, Məhkəmə Ekspertizası Mərkəzi, Tibb baş idarəsi və Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidmətinin işçilərinin təxminən yarısı, yerli qeydiyyat qurumları əməkdaşlarının isə 80% qədəri qadınlardan ibarət olmuşdur.

2023-cü ildə Penitensiar xidmətdə 3744 nəfər kişi, 318 nəfər qadın, icra və probasiya xidmətində isə 544 kişi, 132 qadın çalışmışdır.

Nazirliyin Müsabiqə Komissiyası tərəfindən keçirilmiş açıq müsabiqələrdə uğur qazananların təxminən 32%-i qadınlardır. Bu göstərici artmaqdadır və 2023-cü ildə yekun vurulmuş son müsabiqədə 54% təşkil etmişdir.

***Ədliyyə orqanlarına işə qəbul olunanların gender təhlili***

| Yaş aralığı | İştirak edən namizəd sayı - kişi | İştirak edən namizəd sayı - qadın | Uğur qazanan namizəd sayı - kişi | Uğur qazanan namizəd sayı - qadın |
|---|---|---|---|---|
| 0-24 | 22 | 20 | 13 | 16 |
| 25-29 | 33 | 13 | 17 | 11 |
| 30-34 | 16 | 13 | 7 | 8 |
| 35-39 | 48 | 19 | 23 | 9 |
| 40-44 | 11 | 17 | 3 | 9 |
| 45-49 | 8 | 8 | 3 | 4 |
| 50-54 | 3 | 4 | 0 | 3 |
| 55-59 | 4 | 0 | 2 | 0 |

Ədliyyə orqanlarına işə qəbulda iştirak edən namizədlərin gender bölgüsünə nəzər saldıqda görürük ki,

0-24 , 30-34, 40-44, 45-49, 50-54 yaş aralığında qadınlar imtahanlarda uğur qazanmışdır.

25-29, 35-39, 50-59 yaş aralığında kişilər imtahanlarda uğur qazanmışdır.

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi

Daxili İşlər orqanlarında xidmət edən əməkdaşların 11%-ni (4161 nəfər) qadınlar, 89%-ni kişilər təşkil edir. Onlardan 61-i rəhbər vəzifələrdə xidmət edir.

2023-cü ildə daxili işlər orqanlarında xidmətə (işə) qəbul edilmiş 2131 nəfərin 92,1%-ni (1962-nəfərini) kişilər, 7,9%-ni (169 nəfərini) qadınlar təşkil etmişdir.

***Polis Akademiyasına qəbul olunan şəxslərin gender təhlili***
***2020-2023-cü illər üzrə***

| | 2020-ci il | 2021-ci il | 2022-ci il | 2023-ci il |
|---|---|---|---|---|
| **Polis Akademiyasına qəbul olmuş şəxslərin ümumi sayı** | 372 | 402 | 424 | 529 |
| **onlardan kişilər** | 369 | 400 | 421 | 524 |
| **onlardan qadınlar** | 3 | 2 | 3 | 5 |

2020-2023-cü illərdə Polis Akademiyasına qəbul olmuş şəxslərin ümumi sayı **1727 nəfər** olub, onlardan **1714-ü kişi**, **13-ü qadın** olmuşdur.

**Rəqəmlərdən göründüyü kimi, prokurorluq, məhkəmə, ədliyyə və daxili işlər orqanlarında çalışan qadınların sayında artım müşahidə olunur.**

**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə "Dövlət qulluğuna qəbul ilə əlaqədar gender təhlili" hazırlanmışdır.**

***http://family.gov.az/store/media/aida/GENDER%20TEHLIL%C4%B0+++.pdf***




*Müxtəlif regionlardan olan respondentlərin əksəriyyəti dövlət qulluğuna qəbul imtahanlarında iştirak etmişdir. 23-28 yaş arası olan gənclərin daha çox dövlət qulluğuna keçmək və orada işləmək niyyətində olmaları məlum olmuşdur.*

*Sorğuda iştirak edənlərin 54,8% kişi, 45,1% isə qadın olmuşdur.*

*Aparılmış sorğulanın nəticələri göstərir ki, **“Dövlət qulluğuna qəbul zamanı gender bərabərliyi təmin olunurmu?”** sualına iştirakçıların 64,7% - xeyr, 35,2%-bəli cavabları vermişdir.*

*Belə ki, iştirakçıların 32,3%-i daha çox dövlət qulluğuna kişi cinsindən olanları götürürlər, 29,4%-i qadınlar uşaq dünyaya gətirdikləri üçün tutduqları vəzifələri müəyyən müddətə icra edə bilmirlər, 29,4%-i qadınların ailələrinə qayğı göstərməyi daha üstün tuturlar” deyə sorğunu cavablandırmışlar.*

*“Dövlət qulluğuna qəbulun müsahibə yolu ilə aparılması sizi qane edirmi?” sualına 79,4% - “bəli”, 20,5% - “xeyr” cavabı vermişlər. Cavab zamanı “qane etmir” deyənlər daha çox test imtahanlarının çox ağır olmasını, yəni sualların həddən artıq mürəkkəb olmasını, müsahibə suallarının isə qeyri-müəyyən olmasını bildirmişlər.*

*“Dövlət qulluğuna qəbul üçün test imtahanından keçdikdən sonra müsahibə mərhələsində hansı problemlərlə qarşılaşmısınız?” sualına 61,7-% - “problemlərlə qarşılaşmadıqlarını”, 38,2% - “əslində imtahanı yaxşı təşkil edirlər” kimi cavablar vermişlər.*

*“Dövlət qulluğuna qəbul zamanı test və müsahibə mərhələlərindən uğurla keçdikdən sonra vəzifəyə təyinatda hansı problemlərlə üzləşirsiniz?” sualına cavab olaraq respondentlərin 5,8%-i – “ehtiyatda olma müddətinin uzun olması”, 5,8%-i – “həmin mərhələyə çatmadıqlarını”, 88,2%-i – “heç bir problemlə qarşılaşmadıqlarını” bildirmişdir.*

*“Dövlət qulluğuna qəbul zamanı qadınlara, yoxsa kişi namizədlərə üstünlük verilir?” sualını cavablandırarkən rəyi soruşulanların əksəriyyəti kişilərə üstünlük verildiyini (o cümlədən 35,2%-qadınlara, 64,7% - kişilərə üstünlük verilməsi) bildirmişlər.*

*Təhlilin nəticəsi olaraq ekspertlər dövlət qulluğunda gender bərabərliyinə nail olmaq üçün aşağıdakı qənaətə gəlmişdirlər:*

*– dövlət idarəetmə və qərarqəbuletmə səviyyəsində qadınların kişilərlə bərabər təmsilçiliyinin artırılması;*

*– Dövlət qulluqçusu üçün tərtib edilən test sualları fundamental bilikləri və ümumi dünyagörüşünü əhatə etməkdənsə, dövlət qulluqçusunun daha çox gələcəkdə öz vəzifə səlahiyyətlərinin icrası zamanı qarşılaşacağı praktik məsələlərin real həllinə kömək edəcək bilgiləri özündə ehtiva edən, həmçinin dövlət qulluqçusunun peşəsinin icrası zamanı üzləşdiyi çətinliklərin aradan qaldırılmasına, dəf olunmasına yönələn bilikləri aşkar edən test sualları olması məqsədəmüvafiq olardı;*

*– “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun icra mexanizmlərinin təkmilləşdirilməsi;*

*– Dövlət quluğuna qəbulla bağlı mövcud olan normativ hüquqi aktlarda müvafiq dəyişikliklərin edilməsi;*

*– Qadınların dövlət idarəetmə orqanlarında rəhbər vəzifələr tutmasına şərait yaratmaq;*

*– Gender bərabərliyinin maarifləndirlməsi ilə bağlı dərslik və dərs vəsaiti nəşr edilməsi və bu işləri daha səmərəli qurmaq;*

*– Məktəblərdə kişi müəllimlər azdır, kişi məlimlərin sayının arılması üçün müvafiq həvəsləndirici tədbirlərin həyata keçirilməsi (məsələn müəllimlərin əmək haqının artırılması və s.);*

– Mütəmadi olaraq gender biliklərini təşviq etmək;

– KİV-də, o cümlədən TV kanalarında dövlət qulluğuna qəbul edilmə ilə bağlı maarifləndirici verlişlərin təşkil olunması;

– Dövlət qulluğuna qəbulda gender bərabərliyinin təmin edilməsinə dair dövlət müəssisələrdə çalışan əməkdaşlar üçün müvafiq təlim və seminarların keçirilməsi;

– Dövlət qulluğuna qəbulda gender bərabərliyinin təmin edilməsinə çətinlik yaradan, mane olan obyektiv və subyektiv amillərin müəyyən edilməsi, həmin problemlərin tam aradan qaldırılması;

– Dövlət qulluğuna qəbulda gender bərabərliyinin təmin edilməsinə qarşı baş verən hər hansı zorakılıq və hüquq pozuntusunun qarşısının alınması;

– Dövlət qulluğuna qəbulda gender bərabərliyinin təmin edilməsinə mənfi təsir edən halların vaxtında müəyyən edilməsi və qarşısının alınması;

– Dövlət idarəetmə orqanlarında dövlət qulluğuna qəbulda gender bərabərliyinin təmin edilməsilə bağlı Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi tərəfindən müvafiq monitorinqin aparılması;

– Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 154.2-ci maddəsində dəyişiklik edilsin və həmin maddədə "iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır" kimi qeyd edisin;

– Təhsilin bütün pillələrində fənn proqramlarına gender bərabərliyi üzrə mövzuların daxil edilməsi;

– Qərarların qəbul edilməsinin gender aspektləri üzrə araşdırmalar aparmaq;

– İdarəçilikdə və qərar qəbul etmək səviyyəsində qadın və kişilərin bərabər iştirakı üçün şəraitin yaradılması;

– İctimai birliklərin rəhbərləri və fəalları arasında gender bərabərliyi ilə bağlı maarifləndirmə işləri aparmaq.



# Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının strukturunda çalışan işçilərinin gender bölgüsü

## Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi

***İqisadiyyat Nazirliyi üzrə 2023-cü il üzrə işçilər haqqında statistik məlumat***

| № | Struktur bölmənin adı | İşçilərin ümumi sayı | | | Rəhbər vəzifədə işləyənlərin sayı | | |
|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | kişi | qadın | Cəmi | kişi | qadın |
| 1 | Nazirliyin Aparatı, Regional bölmələri, Çağrı mərkəzi, Ticarət nümayəndələri | 541 | 386 | 155 | **98** | 84 | 14 |
| 2 | Dövlət Vergi Xidməti | 3609 | 2828 | 781 | **587** | 531 | 56 |
| 3 | Əmlak Məsələləri Dövlət Xidməti | 2707 | 1864 | 843 | **402** | 348 | 54 |
| 4 | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 863 | 536 | 327 | **149** | 112 | 37 |
| 5 | Sahibkarlığin İnkişafı Fondu | 83 | 55 | 28 | **10** | 9 | 1 |
| 6 | "Azərbaycan İnvestisiya Şirkəti" ASC | 51 | 39 | 12 | **13** | 12 | 1 |
| 7 | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi | 254 | 192 | 62 | **13** | 12 | 1 |
| 8 | Azərbaydanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi | 87 | 55 | 32 | **22** | 14 | 8 |
| 9 | İqtisadi Zonaların İnkişafı Agentliyi | 166 | 127 | 39 | **25** | 21 | 4 |
| 10 | İqtisadi Elmi Tədqiqat İnstitutu | 36 | 20 | 16 | **3** | 2 | 1 |
| 11 | "Bakı Biznes Mərkəzi" MMC | 14 | 10 | 4 | **2** | 2 | 0 |
| 12 | "Tikinti-Təchizat Birliyi" MMC | 52 | 39 | 13 | **11** | 9 | 2 |
| 13 | Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi | 20 | 11 | 9 | **8** | 3 | 5 |
| 14 | İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi | 129 | 106 | 23 | **4** | 4 | 0 |
| **Yekun** | | **8612** | **6268** | **2344** | **1347** | **1163** | **184** |

Cədvəldən göründüyü kimi, İqtisadiyyat Nazirliyinin aparatında və ümumi strukturunda çalışan işçilər arasında kişilər 72,8%, qadınlar isə 27,2% təşkil edir. Rəhbər vəzifələrdə də kişilər 86%, qadınlar 14%-lə təmsil olunur.

## Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)

Agentlikdə çalışan işçilərin ümumi sayı 254 nəfər təşkil etmişdir ki, onlardan da 62-si qadındır. Rəhbər vəzifələrdə çalışan kişilərin sayı 52, qadınların isə 5 nəfərdir.

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

2024-cü ilin əvvəlinə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemi üzrə 8264 nəfər işçi çalışır, onlardan 4405 nəfəri qadın, 3859 nəfəri isə kişi əməkdaşları təşkil edir. Rəhbər vəzifədə çalışan qadınların sayı 202 nəfər, kişilərin sayı isə 704 nəfər təşkil edir.







## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi

| *Təşkilatın adı* | *Ümumi işçi sayı (nəfərlə və faizlə) 1899 nəfər* | | *Rəhbər vəzifədə çalışanla (nəfərlə və faizlə)* | |
|---|---|---|---|---|
| | *Kişi* | *Qadın* | *Kişi* | *Qadın* |
| *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi* | *499 (26%)* | *1400 (74%)* | *71 (72%)* | *28 (28%)* |

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyində rəhbər vəzifələrdə kişilər, ümumi işçi sayında isə qadınlar üstünlük təşkil edir.

## Azərbaycan Respublikasının Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST)

DOST Agentliyinin Aparatı və "DOST" mərkəzlərində çalışan əməkdaşların ümumi sayı 831 nəfərdir. Onların 406 nəfəri (49%) kişi, 425 nəfəri (51%) isə qadınlardan ibarətdir.

Əməkdaşların 99 nəfəri rəhbər vəzifələrdə çalışır ki, onların 75 nəfərini (75,8%) kişilər, 24 nəfərini (24,2%) qadınlar təşkil edir. O cümlədən Agentliyin Aparatında qərarvermədə xüsusi çəkisi olan rəhbər vəzifələrin 75,8%-də kişilər, 24,2%- də isə qadınlar çalışır.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin aparatında faktiki işçi sayı 154 nəfərdir. Əməkdaşlardan 72-i qadın, 46-ı kişidir. Rəhbər vəzifədə 8 qadın əməkdaş çalışır.

**2023/2024-cü tədris ili üzrə dövlət və özəl ali təhsil müəssisələrində çalışan professor-müəllim heyətinin sayı (qadınlar və kişilər) və analitik təhlili**

| Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin sayı haqqında məlumat | | | |
|---|---|---|---|
| **Tabeçilik** | **Professor-müəllim heyətinin sayı** | **onlardan** | |
| | | ***Qadın*** | ***Kişi*** |
| Dövlət | 13018 | 7965 | 5053 |
| Özəl | 1453 | 882 | 571 |
| Cəmi | 14471 | 8847 (61,1%) | 5624 (38,9%) |

Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin say bölgüsünün təhlili onu göstərir ki, dövlət və özəl ali təhsil müəssisələrində çalışan qadınlar 61,1%, kişilər isə 38,9% təşkil edir.

***Ali, orta ixtisas, peşə, ümumi və məktəbəqədər təhsil müəssisələrində rəhbər vəzifədə (rektor, prorektor, direktor və direktor müavini) çalışanların cins üzrə bölgüsü 2023/2024 cü tədris ilinin əvvəlinə, nəfər***

| Ali, orta ixtisas, peşə, ümumi və məktəbəqədər təhsil müəssisələrində rəhbər vəzifədə (rektor, prorektor, direktor və direktor müavini) | Cəmi<br>13135 | Qadın<br>7855 | Kişi<br>5280 |
|---|---|---|---|
| *o cümlədən:* | | | |
| dövlət müəssisələrində | 12749 | 7561 | 5188 |
| qeyri-dövlət müəssiələrində | 386 | 294 | 92 |

2023/2024 cü tədris ilinin əvvəlinə ali, orta ixtisas, peşə, ümumi və məktəbəqədər təhsil müəssisələrində (dövlət və qeyri dövlət) rəhbər vəzifədə (rektor, prorektor, direktor və direktor müavini) çalışanlar arasında qadınlar üstünlük təşkil etmişdir.

## Azərbaycan Milli Elmlər Akademiyası

2023-cü il üzrə AMEA-da işçilərin ümumi sayı 2952 nəfər, onlar¬dan qa¬dınların sayı 1918 nəfər, rəhbər vəzifədə işləyən kişilərin sayı 260, qadınların sayı 178 olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasında gender siyasəti üzrə işlər beynəlxalq normaların tələblərinə uyğun şəkildə təşkil olunur. AMEA-da məsul vəzifələrə qadınlar seçilirlər. 1 qadın Akademiyanın elmi müəssisə və təşkilatlarında direktor vəzifəsində işləyir.

Akademiyanın 56 həqiqi üzvündən 7-si, 86 müxbir üzvündən isə 9-u qadındır. Həmçinin gənc alim və mütəxəssislər arasında qadınlar çoxluq təşkil edirlər.

| **Azərbaycan Milli Elmlər Akademiyası** | | |
|---|---|---|
| **Elmi bölmələr və qurumlar** | **Kişilər** | **Qadınlar** |
| AMEA Rəyasət Heyəti Aparatı | 97 | 115 |
| İctimai Elmlər Bölməsi | 284 | 545 |
| Humanitar Elmlər Bölməsi | 200 | 702 |
| Naxçıvan, Gəncə bölmələri, Şəki və Lənkəran regional elmi mərkəzləri | 143 | 168 |
| AMEA-nın müəssisələri | 310 | 388 |

Azərbaycan Milli Elmlər Akademiyasında 2023-cü il üzrə müxtəlif elm sahələrində çalışan qadın və kişilərin say bölgüsü göstərir ki, qadınlar bütün bölmələrdə üstünlük təşkil edir.

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

**Səhiyyə Nazirliyinin Aparatı üzrə işçilər haqqında statistik məlumatlar:**

| Vəzifəsi | Ümumi sayı | Qadınlar | Kişilər |
|---|---|---|---|
| Ümumi işçilərin sayı | 88 nəfər | 58 nəfər | 30 nəfər |
| Şöbə və sektor müdirləri | 14 nəfər | 6 nəfər | 8 nəfər |
| Şöbə və sektor müdirlərinin müavinləri | 7 nəfər | 4 nəfər | 3 nəfər |

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin sistemi üzrə çalışan işçilər haqqında statistik məlumatlar:

*Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin sistemi üzrə çalışan işçilərin statistik*

| Vəzifəsi | Ümumi sayı | Qadınlar | Kişilər |
|---|---|---|---|
| həkimlər | 7888 nəfər | 5346 nəfər | 2542 nəfər |
| orta tibb işçiləri | 8970 nəfər | 8489 nəfər | 481 nəfər |
| rəhbər vəzifələrdə çalışanlar | 273 nəfər | 96 nəfər | 177 nəfər |
| ümumi işçilərin sayı | 31352 nəfər | 23781 nəfər | 7571 nəfər |

*cədvəlindən görünür ki, həkimlər, orta tibb işçiləri sayında qadınlar, rəhbər vəzifələrdə kişilər üstünlük təşkil edir.*



## İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

2023-cü ildə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (Agentlik) mərkəzi və yerli bölmələrində çalışan işçi sayı-499 nəfər, onlardan qadınların sayı-227 nəfər, kişilərin sayı-272 nəfər, qadın rəhbərlərin sayı-10 nəfər, kişi rəhbərlərin sayı isə 47 nəfər olmuşdur.

| İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (2023) | | | | |
|---|---|---|---|---|
| İşçi sayı | Qadın sayı | Kişi sayı | Qadın rəhbər | Kişi rəhbər |
| 499 | 227 | 272 | 10 | 47 |

## Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin aparatında, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlarda çalışan işçilərin ümumi sayı 6713 nəfərdir ki, bu işçilərdən 2501 nəfəri qadınlardır *(Qrafik 1)*.

Eyni zamanda Nazirliyin aparatında çalışan işçilərin ümumi sayı 184 nəfərdir ki, bu işçilərdən 66 nəfəri qadınlardır.

**Qrafik 1. Kənd Təsərrüfatı Nazirliyi sisteminə daxil olan qurumlarda çalışan işçilərin sayı** *(nəfər)*




Kənd Təsərrüfatı Nazirliyinin aparatı, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlarda rəhbər vəzifədə çalışan kişilərin sayı 1065 nəfər, qadınların sayı isə 179 nəfərdir *(Qrafik 2)*.

**Qrafik 2. Kənd Təsərrüfatı Nazirliyi sisteminə daxil olan qurumlarda rəhbər vəzifələrdə çalışan işçilərin sayı** *(nəfər)*




Hesabat dövründə aqrar sahədə startapçılara dəstək göstərilməsi məqsədilə keçirilən tədbir və festivallarda iştirak edən 44 nəfər startapçıdan 13 nəfəri qadın olmuşdur.

2023-cü il ərzində 8 İqtisadi rayon üzrə 14 Aqrar İnnovasiya Festivalı keçirilmişdir. Keçirilmiş Aqrar İnnovasiya Festivallarında 12 minədək fermer iştirak etmiş və bunlardan 803 nəfəri qadınlardır .

Aqrar Xidmətlər Agentliyinin Aparatı və tabeliyində olan qurumlar üzrə fəaliyyət göstərən mütəxəssislərin sayı *(nəfər)*.

| Adı | Ümumi sayı | kişi | qadın | özəl | dövlət |
|---|---|---|---|---|---|
| ***Baytar*** | 1550 | 1470 | 80 | 1029 | 521 |
| ***Zootexnik*** | 15 | 13 | 2 | | 15 |
| ***Aqronom*** | 268 | 206 | 62 | | 268 |

## Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi

**Nazirlikdə çalışan işçilərin sayına dair 2023-cü ilin sonu üzrə statistik məlumatlar:**

| **Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində çalışan işçilərin sayı** | **İşçilərin ümumi sayı**(nəfərlə) | **Kişilər** (nəfərlə və faizlə) | **Qadınlar** (nəfərlə və faizlə) |
|---|---|---|---|
| **Nazirliyin strukturu üzrə ümumi işçi sayı** | 16410 | 10855 (66%) | 5555 (34%) |
| **Nazirlik üzrə rəhbər vəzifələrdə çalışan işçi sayı** | 2029 | 1479 (73%) | 550 (27%) |

*Cədvəldən görünür ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturu üzrə ümumi işçi sayında kişilər 66%, qadınlar 34%, rəhbər vəzifələrdə kişilər 73%, qadınlar isə 27% təşkil edir.*

# Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində çalışan diplomatların cədvəl üzrə bölgüsü:

| Vəzifə | Qadın | Kişi |
|---|---|---|
| **İşçilərin ümumi sayı** | 122 | 228 |
| Xüsusi tapşırıqlar üzrə səfir | - | 6 |
| İdarə rəisi | 2 | 26 |
| Rəis müavini | 4 | 28 |
| Müşavir | 9 | 6 |
| Şöbə müdiri | 14 | 38 |
| I katib | 33 | 36 |
| II katib | 19 | 34 |
| III katib | 17 | 14 |
| Attaşe | 24 | 34 |

2. Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərində çalışan diplomatların cədvəl üzrə bölgüsü:

| Vəzifə | Qadın | Kişi |
|---|---|---|
| Səfir | 2 | 62 |
| Daimi nümayəndə | - | 5 |
| Baş konsul | 1 | 6 |
| Təmsilçilik ofisinin rəhbəri | - | 1 |
| Səfir müavini | 1 | - |
| Daimi nümayəndənin müavini | - | 1 |
| Müşavir elçi | - | 2 |

| Vəzifə | Qadın | Kişi |
|---|---|---|
| Konsul | 2 | 12 |
| Vitse-konsul | 2 | 8 |
| I katib | 14 | 85 |
| II katib | 18 | 42 |
| III katib | 10 | 30 |
| Attaşe | 9 | 12 |

*2022-ci illə müqayisədə səfir qadınların sayı 1 nəfər azalmış, səfir kişilərin sayı 6 nəfər artmışdır. Müşavir qadınların sayı 10-dan 12-yə qalxmış, müşavir kişilərin sayı 66-dan 71-ə qalxmışdır.*

## Azərbaycan Respublikası Müdafiə Nazirliyi

Azərbaycan Ordusunda xidmət edən qadın hərbi qulluqçular və mülki işçilər barədə məlumatlar:

– zabit və gizir qadın hərbi qulluqçular – 321 nəfər;

– müddətdən artıq həqiqi hərbi xidmət edən qadın hərbi qulluqçular – 1667 nəfər;

– qadın mülki işçilər - 10029 nəfər;

– rəhbər vəzifədə çalışan qadın hərbi qulluqçular - 11 nəfər;

– rəhbər vəzifədə çalışan qadın mülki işçilər – 3 nəfər.

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi

Fövqəladə Hallar Nazirliyində 2023-cü ildə şəxsi heyətin 2132 nəfərini qadınlar təşkil edir. Rəhbər vəzifələrdə çalışan qadınların sayı 2021-ci ildə 175, 2022-ci ildə 218, 2023-cü ildə 246 olmuşdur.

*Əvvəlki illərlə müqayisədə Fövqəladə Hallar Nazirliyində rəhbər vəzifələrdə çalışan qadınların sayı artmışdır. (2021-ci illə müayisədə 71 nəfər, 2022-ci illə müqayisədə 28 nəfər artmışdır.)*

## Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi

Nazirlik üzrə işçilərin ümumi sayı - 6125 nəfər, onlardan qadınlar 2294 nəfər, kişilər 3831 nəfər, rəhbər vəzifədə çalışan qadınların sayı - 173 nəfər rəhbər vəzifədə çalışan kişilərin sayı - 683 nəfər təşkil etmişdir.

*2022-ci illə müqayisədə Müdafiə Sənayesi Nazirliyinin qadın işçi sayı 83 nəfər, rəhbər vəzifələrdə isə 4 nəfər artmışdır. Rəhbər vəzifələrdə çalışan kişilərin sayı 4 nəfər azalmışdır.*



## Azərbaycan Respublikası Maliyyə Nazirliyi

**Azərbaycan Respublikası Maliyyə Nazirliyi strukturunda çalışan dövlət qulluqçuları barədə**

| | Ümumi say | o cümlədən: | | Rəhbər vəzifələr üzrə | o cümlədən: | |
|---|---|---|---|---|---|---|
| | | kişi | qadın | | kişi | qadın |
| Maliyyə Nazirliyinin Aparatı | 309 | 183 | 126 | 100 | 75 | 25 |
| Yerli Maliyyə orqanları | 463 | 337 | 126 | 123 | 117 | 6 |
| Dövlət Xəzinədarlıq Agentliyi | 476 | 312 | 155 | 107 | 87 | 20 |
| Dövlət Maliyyə Nəzarəti Xidməti | 87 | 76 | 11 | 15 | 14 | 1 |
| Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi | 27 | 16 | 11 | 5 | 4 | 1 |
| **Cəmi** | **1362** | **924** | **429** | **350** | **297** | **53** |

Maliyyə Nazirliyi strukturunda çalışan dövlət qulluqçularının cins bölgüsü cədvəlindən görünür ki, ümumi işçi sayında və rəhbər vəzifələrdə kişilər üstünlük təşkil edir.

**Azərbaycan Respublikası Maliyyə Nazirliyində keçirilmiş müsahibələrdə uğur əldə edərək 2020-2023-cü illər ərzində inzibati vəzifələrə təyin edilmiş şəxslər haqqında**




## Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi

| Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin mərkəzi aparatında çalışan dövlət qulluqçuların say tərkibi barədə məlumat | |
|---|---|
| **İşçilər** | **Sayı** |
| Ümumi | **127** |
| Kişi | **75** |
| Qadın | **52** |
| **Rəhbər vəzifədə çalışan kişilər** | **28** |
| **Rəhbər vəzifədə çalışan qadınlar** | **12** |

*Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin mərkəzi aparatında çalışan dövlət qulluqçuların 59%-ni kişilər, 41%-ni qadınlar təşkil edir.*

| Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin mərkəzi aparatı və strukturuna daxil olan təşkilatlarda çalışan dövlət qulluqçuların say tərkibi barədə məlumat | |
|---|---|
| **İşçilər** | **Sayı** |
| Ümumi | **521** |
| Kişi | **396** |
| Qadın | **125** |
| **Rəhbər vəzifədə çalışan kişilər** | **134** |
| **Rəhbər vəzifədə çalışan qadınlar** | **18** |

*Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin mərkəzi aparatı və strukturuna daxil olan təşkilatlarda çalışanların 76%-i kişilər, 24% isə qadınlardır.*

**Müxtəlif idman sahələri üzrə qazanılmış medalların sayı** cəmi 1472, bunlardan 328-i (92-qızıl, 108-gümüş, 128-bürünc medal) qadınlar, 1144-i (372-qızıl, 290-gümüş, 482-bürünc medal) kişilər tərəfindən qazanılıb.

**Medalların 22%-i qadınlar, 78%-i kişilər tərəfindən qazanılmışdır.**

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

### Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunda çalışan işçilərin statistik məlumatı

*Mədəniyyət Nazirliyinin sturukturunda çalışan işçilərin sayında qadınlar, rəhbər işçilərin sayında isə kişilər üstünlük təşkil edir.*

| ***Təşkilatın adı*** | ***Ümumi işçi sayı*** | | ***Rəhbər vəzifədə çalışanlar*** | |
|---|---|---|---|---|
| | ***Kişi*** | ***Qadın*** | ***Kişi*** | ***Qadın*** |
| *Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi* | *59* | *71* | *26* | *20* |
| *Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti* | *18* | *12* | *7* | *4* |
| ***Cəmi:*** | ***77*** | ***83*** | ***43*** | ***24*** |

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

Ümumi işçilərin sayı 52 nəfər olan agentliyin 24 qadın əməkdaşı var. Rəhbər vəzifədə çalışan qadınların sayı 10, kişilərin sayı isə 12 nəfərdən ibarətdir. Agentlik daxilində yaradılan komissiyaların əksəriyyətinə qadınlar rəhbərlik edir. Agentliyin tabeliyində olan təşkilatlarda nomenklatur vəzifələr üzrə 10 nəfər qadın rəhbər vəzifədə çalışır.

Agentliyin tabe qurumlarında çalışan 1586 əməkdaşdan 673-ü qadınlardır. Rəhbər vəzifədə çalışan qadınların sayı 54, kişilərin sayı isə 121 nəfərdir.

Aparılan statistikaya əsasən 2023-cü il ərzində bələdçilik fəaliyyəti ilə məşğul olmaq üçün müraciət edən 44 nəfərdən 23-ü qadınlar olmuşdur. Hal-hazırda bələdçilik fəaliyyəti ilə məşğul olan 420 nəfər personaldan 220 nəfərini qadınlar təşkil edir.

*Turizm Agentliyinin işçi və rəhbər işçi sayında qadınlar və kişilər arasındakı fərq azdır, bərabərliyə yaxındır.*

## Azərbaycan Respublikası Energetika Nazirliyi

**Energetika Nazirliyinin aparatında və tabeliyində olan qurumların işçi sayı barədə 2022-2023-cü illər üzrə statistik məlumatlar**

| Təşkilatın adı | İşçilərin ümumi sayı | | Qadınların sayı | | Rəhbər vəzifədə çalışan qadınlar | | Rəhbər vəzifədə çalışan kişilər | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2022 | 2023 | 2022 | 2023 | 2022 | 2023 | 2022 | 2023 |
| Energetika Nazirliyinin aparatı | 135 | 140 | 69 | 76 | 11 | 12 | 32 | 28 |
| Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi | 39 | 38 | 17 | 16 | 4 | 4 | 7 | 7 |
| Enerji Məsələlərini Tənzimləmə Agentliyi | 200 | 234 | 40 | 48 | 4 | 5 | 34 | 29 |
| **Cəmi:** | 374 | 412 | 126 | 140 | 19 | 21 | 73 | 64 |

*Energetika Nazirliyinin strukturunda çalışan işçi və rəhbər işçi sayında kişilər üstünlük təşkil edir.*

## “AzərEnerji” ASC

**“AzərEnerji” ASC strukturunda çalışan işçilər haqqında statistik məlumat**

| № | Struktur bölmə | İşçilərin ümumi sayı | Qadınların | | Qadın rəhbər vəzifədə çalışan işçilərin sayı | Kişi rəhbər vəzifədə çalışan işçilərin sayı |
|---|---|---|---|---|---|---|
| | | | sayı | faizi | | |
| 1 | Aparat | 132 | 70 | 53.03% | 11 | 24 |
| 2 | Geodeziya və Kartoqrafiya Agentliyi | 208 | 142 | 68.27% | 4 | 10 |
| 3 | Dövlət Ekoloji Təhlükəsizlik Xidməti | 460 | 97 | 21.09% | 26 | 38 |
| 5 | Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 886 | 116 | 13.09% | 3 | 57 |
| 9 | Meşələrin İnkişafı Xidməti | 1921 | 124 | 6.45% | 0 | 40 |
| 11 | Milli Hidrometeorologiya Xidməti | 839 | 500 | 59.59% | 30 | 75 |
| 13 | “Azəryaşlandşaft” ASC | 587 | 138 | 23.51% | 0 | 15 |
| 14 | Dövlət Ekoloji Ekspertiza Agentliyi | 34 | 11 | 32.35% | 0 | 2 |
| 15 | Geoloji Kəşfiyyat Agentliyi | 67 | 24 | 35.82% | 0 | 1 |
| 16 | Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi | 38 | 10 | 26.32% | 1 | 8 |
| 17 | Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi | 61 | 36 | 59.02% | 0 | 7 |
| 18 | “Təhlükəli Tullantılar” MMC | 16 | 3 | 18.75% | 0 | 1 |
| 19 | Nəqliyyat İdarəsi | 813 | 39 | 4.80% | 2 | 16 |
| 20 | Azelab MMC | 40 | 37 | 92.50% | 2 | 0 |
| 21 | Dövlət Geoloji İnformasiya Fondu | 14 | 12 | 85.71% | 1 | 0 |
| | **Cəmi** | **6116** | **1359** | 22.22% | **80** | **294** |

*“Azərenerji” ASC aparatında çalışan 336 əməkdaşdan 101-ni (30.06%) , rəhbər vəzifədə çalışan 106 nəfərdən 13-ünü (12.3%) qadınlar təşkil edir.*

*“Azərenerji” ASC və struktura daxil olan müəssisələrlə birlikdə 6276 nəfər işçi çalışır, onlardan 857 nəfərini (13.7%) qadınlar təşkil edir. Rəhbər vəzifədə çalışan qadınların sayı 52 nəfərdir (6.5%).*

## Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi

| № | Struktur bölmə | İşçilərin ümumi sayı | Qadınların | | Qadın rəhbər vəzifədə çalışan işçilərin sayı | Kişi rəhbər vəzifədə çalışan işçilərin sayı |
|---|---|---|---|---|---|---|
| | | | sayı | faizi | | |
| 1 | Aparat | 132 | 70 | 53.03% | 11 | 24 |
| 2 | Geodeziya və Kartoqrafiya Agentliyi | 208 | 142 | 68.27% | 4 | 10 |
| 3 | Dövlət Ekoloji Təhlükəsizlik Xidməti | 460 | 97 | 21.09% | 26 | 38 |
| 5 | Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 886 | 116 | 13.09% | 3 | 57 |
| 9 | Meşələrin İnkişafı Xidməti | 1921 | 124 | 6.45% | 0 | 40 |
| 11 | Milli Hidrometeorologiya Xidməti | 839 | 500 | 59.59% | 30 | 75 |
| 13 | “Azəryaşlandşaft” ASC | 587 | 138 | 23.51% | 0 | 15 |
| 14 | Dövlət Ekoloji Ekspertiza Agentliyi | 34 | 11 | 32.35% | 0 | 2 |
| 15 | Geoloji Kəşfiyyat Agentliyi | 67 | 24 | 35.82% | 0 | 1 |
| 16 | Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi | 38 | 10 | 26.32% | 1 | 8 |
| 17 | Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi | 61 | 36 | 59.02% | 0 | 7 |
| 18 | “Təhlükəli Tullantılar” MMC | 16 | 3 | 18.75% | 0 | 1 |
| 19 | Nəqliyyat İdarəsi | 813 | 39 | 4.80% | 2 | 16 |
| 20 | Azelab MMC | 40 | 37 | 92.50% | 2 | 0 |
| 21 | Dövlət Geoloji İnformasiya Fondu | 14 | 12 | 85.71% | 1 | 0 |
| | **Cəmi** | **6116** | **1359** | 22.22% | **80** | **294** |

*Nazirliyin aparat və tabeli qurumlarında çalışan ümumi 6116 əməkdaşın 1359-u yəni 22,22% qadındır. 2023-cü il ərzində işə qəbul zamanı qadın əməkdaşların sayında Nazirliyin aparatında 2.6%, Milli Hidrometeorologiya Xidmətində 1,85%, Bioloji Müxtəlifliyin Qorunması Xidmətində 1,1%, “Geodeziya və Kartoqrafiya” Agentliyində 0,52%, Meşələrin İnkişafı Xidmətində 4,92%, “Azelab” MMC-də 6,4% artım müşahidə olunmuşdur.*



## Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

Komitənin Aparatında çalışan 75 nəfər əməkdaşın 21 nəfərini kişilər, 54 nəfərini isə qadınlar təşkil etmişdir. Qadınlardan 15 nəfər, kişilərdən isə 5 nəfər rəhbər vəzifələri icra etmişdir.

## Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

**Dövlət Statistika Komitəsi aparatında 2023-cü il üzrə işləyən kişi və qadınların, o cümlədən rəhbər vəzifələrdə işləyən kişi və qadınların sayı**

| | Say | Şöbə müdiri | Şöbə müdirinin müavini-sektor müdiri | Sektor müdiri |
|---|---|---|---|---|
| Kişi | 130 | 15 | 14 | 15 |
| Qadın | 152 | 5 | 6 | 11 |

**Dövlət Statistika Komitəsinin yerli orqanlarında 2023-cü il üzrə işləyən kişi və qadınların, o cümlədən rəhbər vəzifələrdə işləyən kişi və qadınların sayı**

| | Say | Rəis | Rəis müavini | Sektor müdiri |
|---|---|---|---|---|
| Kişi | 558 | 62 | 49 | 5 |
| Qadın | 395 | 1 | 15 | 9 |

## Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi

Komitənin strukturunda çalışan 204 nəfər əməkdaşın 144 nəfərini kişilər, 60 nəfərini isə qadınlar təşkil etmişdir. Qadınlardan 6 nəfər, kişilərdən isə 54 nəfər rəhbər vəzifələri icra etmişdir.

## Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi

2023-cü ildə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsində çalışan ümumi işçilərin sayı 96 nəfər olmuş, onlardan 46 nəfərini qadınlar, 50 nəfərini kişilər təşkil etmişdir. Rəhbər vəzifədə çalışan kişilərin sayı 22 nəfər, qadınların sayı isə 8 nəfər olmuşdur.

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi

**Komitənin Aparatı, strukturuna daxil olan gömrük orqanları və tabeliyində olan digər qurumlarda olan əməkdaşlar (2023-cü il üzrə)**

| Kişi | | Qadın | | Cəmi kişi | Cəmi qadın | Yekun | Kişi | Qadın |
|---|---|---|---|---|---|---|---|---|
| Rütbəli | Rütbəsiz | Rütbəli | Rütbəsiz | | | | | |
| 2035 | 277 | 598 | 52 | 2312 | 650 | 2962 | 78% | 22% |

**Rəhbər vəzifədə çalışan əməkdaşlar**

*Gömrük orqanlarında xidmətə qəbul ilə bağlı müraciət edən 2420 vətəndaş arasında*




*keçirilmiş müsabiqə nəticəsində müvəffəqiyyət əldə edən 124 namizədin 88 nəfəri kişi, 36 nəfəri qadın olmuşdur.*

*Həmçinin hesabat ili ərzində gömrük orqanı əməkdaşlarının vəzifədə irəli çəkilməsi ilə bağlı elan edilmiş 3 daxili müsabiqədə iştirak etmək üçün müraciət edən 1250 əməkdaşdan daxili müsabiqələrdə müvəffəqiyyət əldə edən 177 əməkdaşın 111 nəfəri kişi, 66 nəfəri isə qadın olmuşdur.*



## Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

Komitədə ümumilikdə 175 nəfər işçi çalışır ki, onlardan 41 nəfəri qadındır. Qadınlardan 6, kişilərdən isə 38 nəfəri rəhbər vəzifə tutur. 2022-ci ildə Komitədə 179 nəfər çalışmışdır ki, onlardan 38-i qadın olmuşdur.

*2024-cü ilədək Komitədə 995 dini qurum dövlət qeydiyyatına alınmışdır ki, onlardan 14 dini icmanın sədri qadındır. Qeyd edilən icmaların üzvləri arasında da qadınlar var.*

*Ölkədə fəaliyyət göstərən 1488 nəfər rəsmi din xadimindən 1450-si kişi, 38-i isə qadındır.*

## Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi

### Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin əməkdaşlarının gender əsaslı bölgüsü (2023)

| Ümumi işçi sayı | 333 nəfər |
|---|---|
| **Kişi sayı** | 185 |
| **Qadın sayı** | 148 |
| **Rəhbər vəzifədə olan qadın işçilərin sayı** | 19 nəfər |
| **Rəhbər vəzifədə olan kişi işçilərin sayı** | 56 nəfər |

### 2023-cü il ərzində test imtahanında uğur əldə edən namizədlərin yaş və gender bölgüsü haqqında




| | 0-24 | 25-29 | 30-34 | 35-39 | 40-44 | 45-49 | 50-54 | 55-59 | 60 və yuxarı |
|---|---|---|---|---|---|---|---|---|---|
| Qadın | 868 | 651 | 348 | 136 | 18 | 5 | 2 | 0 | 0 |
| Kişi | 704 | 818 | 344 | 76 | 24 | 7 | 1 | 0 | 0 |

*2023-cü il ərzində test imtahanında uğur əldə edən namizədlərin yaş və gender bölgüsü haqqında məlumatlara diqqət etdikdə 24 yaşa qədər olan namizədlər arasında qadınların sayı kişilərin sayından çoxdur. Analoji üstünlük 30-39 yaş aralığında uğur əldə edən namizədlərdə də təkrarlanır. Digər məsələ cari il ərzində 50 yaşdan yuxarı yalnız 3 namizədin (2 qadın namizəd və 1 kişi namizəd) uğur əldə etməsi ilə bağlıdır*

**Müsahibələrdə uğur qazanan namizədlərin gender və yaş bölgüsü haqqında (2023-cü il)**




| | 18-24 | 25-29 | 30-34 | 35-39 | 40-44 | 45-49 | 50-54 | 55-59 | 60 və yuxarı |
|---|---|---|---|---|---|---|---|---|---|
| qadın | 178 | 291 | 187 | 112 | 26 | 21 | 9 | 5 | 5 |
| kişi | 147 | 356 | 240 | 138 | 80 | 53 | 17 | 31 | 23 |

**Müsahibələrdə uğur əldə edərək 2023-cü il ərzində vəzifəyə təyin edilmiş şəxslərin gender və yaş bölgüsü haqqında**




| | 18-24 | 25-29 | 30-34 | 35-39 | 40-44 | 45-49 | 50-54 | 55-59 | 60 və yuxarı |
|---|---|---|---|---|---|---|---|---|---|
| Qadın | 72 | 107 | 77 | 57 | 17 | 17 | 9 | 4 | 4 |
| Kişi | 57 | 173 | 134 | 105 | 58 | 43 | 12 | 31 | 21 |

*2023-cü il ərzində müsahibələrdə uğur əldə edərək vakant vəzifələrə təyin edilmiş şəxslərin gender bölgüsünə əsasən, 18-24 yaş aralığında uğur əldə edən namizədlərin sayında qadınlar üstünlük (72 nəfər / 55.81%) təşkil edir. Lakin 25 yaş və daha yuxarı bütün yaş aralıqlarında kişilər qadınları üstələyir. Eyni zamanda, 50 yaş və daha yuxarı uğur əldə edən namizədlərin gender bölgüsündə kişilərin sayı (64 kişi namizəd, 17 qadın namizəd) daha çoxdur.*

**Müsahibələrdə uğur əldə edərək 2023-cü il ərzində vəzifəyə təyin edilmiş şəxslərin gender və yaş bölgüsü haqqında**

| Elanın növü | Yaş bölgüsü | | | | | | | | | | | | | | | | | | Cinsi | | Sayı |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 18 - 24 | | 25 - 29 | | 30 - 34 | | 35 - 39 | | 40 - 44 | | 45 - 49 | | 50 - 54 | | 55 - 59 | | 60 - 70 | | Kişi | Qadın | |
| | K | Q | K | Q | K | Q | K | Q | K | Q | K | Q | K | Q | K | Q | K | Q | | | |
| Müsabiqə | 55 | 70 | 133 | 85 | 65 | 36 | 19 | 16 | 5 | 3 | 1 | 1 | 0 | 0 | 2 | 0 | 2 | 0 | **282** | **211** | **493** |
| Ümumi müsahibə | 0 | 2 | 6 | 5 | 16 | 8 | 28 | 9 | 22 | 4 | 22 | 4 | 5 | 3 | 16 | 0 | 7 | 1 | **122** | **36** | **158** |
| Daxili müsahibə | 2 | 0 | 35 | 18 | 53 | 34 | 59 | 32 | 31 | 11 | 20 | 12 | 7 | 6 | 13 | 4 | 12 | 3 | **232** | **120** | **352** |
| **Cəmi** | **57** | **72** | **174** | **108** | **134** | **78** | **106** | **57** | **58** | **18** | **43** | **17** | **12** | **9** | **31** | **4** | **21** | **4** | **636** | **367** | **1003** |

## Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparatı və tabeliyində olan "ASAN xidmət" mərkəzlərində çalışan işçilərin ümumi sayı 1856 nəfərdən ibarətdir. Dövlət Agentliyinin Aparatı və tabeliyində olan "ASAN xidmət" mərkəzlərində ümumilikdə 824 qadın əməkdaş fəaliyyət göstərir. Rəhbər vəzifədə çalışan qadın əməkdaşların sayı 35, kişi əməkdaşların sayı isə 134 nəfərdən ibarətdir.

## Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi

Agentliyin Aparatı və regional bölmələrində çalışan 742 əməkdaşın 465 nəfəri kişi, 277 nəfəri qadındır. Onlardan rəhbər vəzifədə çalışanların 78 nəfərini kişilər, 17 nəfərini isə qadınlar təşkil edir.

Agentliyin tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda (bundan sonra - İnstitut) 420 nəfəri qadın, 327 nəfəri kişi olmaqla, ümumilikdə, 747 əməkdaş fəaliyyət göstərir. Onlardan rəhbər vəzifədə çalışanların 33 nəfərini qadınlar, 40 nəfərini isə kişilər təşkil edir.

*Agentlik tərəfindən qida təhlükəsizliyi sahəsində dövlət nəzarəti həyata keçirilərkən, aparılan yoxlamalarda iştirak edən 254 əməkdaşdan 60 nəfəri qadın əməkdaş olmuşdur.*

## Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi

**Əqli Mülkiyyət Agentliyinin Aparatında və Agentliyin tabeliyində olan qurumlarda çalışan işçilərinin ümumi sayı:**




*Əqli Mülkiyyət Agentliyinin Aparatının və Agentliyin tabeliyində olan qurumların işçilərinin statistik göstəricilərinin təhlili göstərir ki, Agentlik sistemində işləyən 256 nəfərdən 176 nəfərini (68,7%-ni) qadınlar təşkil edir.*

*-O cümlədən, Agentliyin Aparatı üzrə 68 nəfərdən 39 nəfərini (57,3%-ni),*

*-Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi üzrə 71 nəfərdən 49 nəfərini (69,0%-ni),*

*-Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi üzrə 28 nəfərdən 10 nəfərini (35,7%-ni),*

*-Respublika Elmi-Texniki Kitabxanası üzrə 83 nəfərdən 76 nəfərini (91,5%-ni)*

*və Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi üzrə 6 nəfərdən 2 nəfərini (33,3%-ni) qadınlar təşkil edir.*

**Əqli Mülkiyyət Agentliyinin Aparatında və Agentliyin tabeliyində olan qurumlarda rəhbər vəzifədə çalışan işçilər:**




*Əqli Mülkiyyət Agentliyinin Aparatında və Agentliyin tabeliyində olan qurumlarda rəhbər vəzifədə çalışan kişilərin sayı 42, qadınların sayı isə 47-dir.*

*O cümlədən Agentliyin Aparatı üzrə rəhbər vəzifədə çalışan kişilərin sayı 18, qadınların sayı 16, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi üzrə rəhbər vəzifədə çalışan kişilərin sayı 10, qadınların sayı 7, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi üzrə rəhbər vəzifədə çalışan kişilərin sayı 10, qadınların sayı 2, Respublika Elmi-Texniki Kitabxanası üzrə rəhbər vəzifədə çalışan kişilərin sayı 2, qadınların sayı 22 və Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi üzrə rəhbər vəzifədə çalışan kişilərin sayı 2 nəfər təşkil edir.*

*Agentliyin İdarə Heyətinin sədrinin 3 müşavirindən 1-i qadındır.*

2023-cü ildə Əqli Mülkiyyyət Agentliyində **386** müəllifin və hüquqi şəxsin **713** əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında **717** Şəhadətnamə verilmişdir.

Əsərləri qeydiyyatdan keçirilmiş müəlliflərin 99 **nəfəri qadın olmaqla, onların 141 əsəri** qeydiyyatdan keçirilmişdir.

2023-cü il ərzində Agentliyə **müəllif hüquqlarının pozulması ilə bağlı** 20 müraciət daxil olmuşdur ki, onlardan 5 müraciət qadın müəlif hüquq sahiblərinə məxsusdur.

**İxtira üzrə** 201 müraciətdən 26-sı qadın iddiaçı, 274-ü qadın müəllif, **Faydalı model üzrə** 67 müraciətdən 7-si qadın iddiaçı, 18-i qadın müəllif, **Sənaye nümunəsi üzrə** 34 müraciətdən 6-sı qadın iddiaçı, 3-ü qadın müəllif olmuşdur. **Əmtəə nişanlarının qeydiyyatı üçün** müraciət edən 3862 iddiaçıdan 145-i qadın olmuşdur.

## Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi

2023-cü ildə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Aparatında və tabeli qurumlarında işləyən 14163 işçinin 1548 nəfərini qadınlar təşkil etmişdir. Rəhbər vəzifədə çalışan kişilərin sayı 801, qadınların sayı isə 61-dir.

*2022-ci illə müqayisədə Agentliyin Aparatında və tabeli qurumlarında çalışan rəhbər qadın və kişilərin sayı artmışdır.*

## Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi

**Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin əməkdaşları haqqında statistik məlumat**

| № | İllər | İşçilərin ümumi sayı | | | Rəhbər vəzifədə işləyənlərin sayı | | |
|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | Kişi | Qadın | Cəmi | Kişi | Qadın |
| 1 | 2022 | 513 | 383 | 130 | 66 | 61 | 5 |
| 2 | 2023 | 506 | 361 | 145 | 68 | 61 | 7 |

## Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin strukturunda çalışan işçilərin 17 nəfərini qadınlar, 13 nəfərini isə kişilər təşkil edir.

## Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidməti

2023-cü ildə Dövlət Təhlükəsizlik Xidmətində (DTX) qadınların hərbi xidmətə (işə) qəbulu, onların məsul vəzifələrə irəli çəkilməsi, zabit hərbi rütbələrinin artırılması tədbirləri davam etdirilmişdir. Həyata keçirilmiş fəaliyyətin nəticəsi olaraq hazırda DTX-da çalışanların 22 faizini qadınlar təşkil edir və onlardan 30 nəfəri rəhbər vəzifələri tutur.

## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti

Xidmətin fəaliyyət istiqamətini və xüsusiyyətlərini nəzərə alaraq rəhbər vəzifələrin komplektləşdirilməsi əsasən kişi hərbi qulluqçular tərəfindən həyata keçirilir. Bununla əlaqədar kişi və qadın işçi, dövlət qulluqçusu və hərbi qulluqçusu nisbəti aşağıdakı kimi faizlə müəyyən edilir.

| Sıra sayı | Ümumi heyət | | Rəhbər vəzifədə | |
|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın |
| **2022 - ci il üzrə** | | | | |
| 1. | 67 % | 33 % | 99 % | 1 % |
| **2023 - cü il üzrə** | | | | |
| 2. | 69 % | 31 % | 99 % | 1 % |

## Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti

Dövlət Miqrasiya Xidmətində çalışan işçilərin 69,7 %-i kişi, 30,3 %-i qadınlardır.

Onlardan rəhbər vəzifədə çalışanların 80%-ni kişilər, 20 %-ni qadınlar təşkil edir.

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti

2023-cü ildə Dövlət Sərhəd Xidmətinin struktur qurumlarının ümumi işçi sayında qadınlar 17%, kişilər 83%-dir. Rəhbər vəzifələrdə çalışan işçilərin 7,6%-ni qadınlar təşkil etmişdir.

## Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti

**Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində (SOCAR) 01.01.2024-cü il tarixinə işçilərin faktiki sayı və qadınlar haqqında məlumat**

| S/s | Müəssisənin adı | 01.01.2024 | ümumi | | Rəhbər işçi | | | Müşavirlər | | | Mütəxəssislər | | | Texniki İcraçılar | | | Fəhlələr | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | kişi | qadın | Cəmi | Kişi | Qadın | Cəmi | Kişi | Qadın | Cəmi | Kişi | Qadın | Cəmi | Kişi | Qadın | Cəmi | Kişi | Qadın |
| 1 | SOCAR | 48322 | 40697 | 7625 | 5759 | 5240 | 519 | 85 | 79 | 6 | 8318 | 5676 | 2642 | 760 | 228 | 532 | 33400 | 29474 | 3926 |

*Dövlət Neft Şirkətində çalışan işçilərin statistik cədvəlindən görünür ki, rəhbər işçi, müşavirlər, mütəxəssislər və fəhlələr arasında kişilər, texniki icraçılar arasında isə qadınlar üstünlük təşkil edir.*

## Azərbaycan Respublikası Vəkillər Kollegiyası

**Vəkillər Kollegiyasının strukturunda çalışan işçilər haqqında statistik məlumatlar (işçilərin ümumi sayı, qadınların sayı, rəhbər vəzifədə çalışan kişi və qadınların sayı).**

| İşçilərin ümumi sayı | Qadınların sayı | Rəhbər vəzifədə çalışan qadınların sayı | Rəhbər vəzifədə çalışan kişilərin sayı |
|---|---|---|---|
| 40 | 19 | 4 | 9 |

**Vəkillərin cins bölgüsü (2020-2023-cü illər üzrə müqayisəli).**

| İllər üzrə cins bölgüsü | Qadın vəkillərin sayı | Kişi vəkillərin sayı |
|---|---|---|
| 2020 | 316 | 1502 |
| 2021 | 368 | 1740 |
| 2022 | 390 | 1812 |
| 2023 | 461 | 1963 |

**Vəkil Bürosunun rəhbəri olanların cins bölgüsü (2020-2023-cü illər üzrə müqayisəli).**

| İllər üzrə cins bölgüsü | Qadın büro rəhbərlərinin sayı | Kişi büro rəhbərlərinin sayı |
|---|---|---|
| 2020 | 6 | 93 |
| 2021 | 9 | 103 |
| 2022 | 11 | 116 |
| 2023 | 13 | 120 |

*Statistik cədvəllərdən göründüyü kimi, 2020-2023-cü illərdə vəkillər və vəkil bürosunun rəhbəri olan kişi və qadınların sayında artım müşahidə olunur.*

**Vəkilliyə qəbul üzrə imtahanlarda iştirak edənlərin cins bölgüsü (2020-2023-cü illər üzrə müqayisəli).**

| Qəbul imtahanlarının keçirildiyi illər | Qadın vəkillərin sayı | Kişi vəkillərin sayı |
|---|---|---|
| 2020 | 29 | 211 |
| 2021 | 112 | 449 |
| 2022 | 154 | 502 |
| 2023 | 160 | 458 |

*2023-cü ildə vəkilliyə qəbul üzrə imtahanlarda qadınların fəal iştirakı, kişilərin sayında isə azalma müşahidə olunur.*

## Azərbaycan Respublikası Milli Arxiv İdarəsi

| Statistik məlumat | | 2022-ci il | 2023-ci il |
|---|---|---|---|
| İşçilərin ümumi sayı | | 538 nəfər | 549 nəfər |
| Qadınların ümumi sayı | | 386 nəfər (72%) | 398 nəfər (72%) |
| Kişilərin ümumi sayı | | 152 nəfər (28%) | 151 nəfər (28%) |
| Rəhbər vəzifələrdə | qadınlar | 41 nəfər | 43 nəfər |
| | kişilər | 40 nəfər | 39 nəfər |

## "İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsi

| Ümumi işçi sayı | Qadın işçi sayı | Kişi işçi sayı | Rəhbər vəzifədə çalışan qadınların sayı | Rəhbər vəzifədə çalışan kişilərin sayı |
|---|---|---|---|---|
| 557 | 262 | 295 | 42 | 49 |

*"İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsində işçi və rəhbər işçi sayında qadınlar və kişilər arasındakı fərq azdır, bərabərliyə yaxındır.*

## "Azəriqaz" İstehsalat Birliyi

"Azəriqaz" İstehsalat Birliyi üzrə işçilərin ümumi sayı 10174 nəfər, onlardan kişi işçilərin sayı 8765 (86%) nəfər, qadın işçilərin sayı 1409 (14%) nəfər, rəhbər vəzifədə çalışanların 930 (95%) nəfərini kişi, 53 nəfərini (5%) qadınlar təşkil etmişdir.

## "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti

| İşçilərin ümumi sayı | Qadınların sayı | Kişilərin sayı | Rəhbər vəzifədə çalışan kişilərin sayı | Rəhbər vəzifədə çalışan qadınların sayı |
|---|---|---|---|---|
| **4919 nəfər** | 1078 nəfər | 3841 nəfər | 237 nəfər | 17 nəfər |

*"Bakı Metropoliteni" QSC üzrə görülən işlərin çox hissəsi gecə tuneldə və zərərli şəraitdə yerinə yetirildiyi üçün işçilərin 80%-ni kişilər təşkil edir.*

*Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının təqdim etdiyi məlumatların təhlili göstərir ki, dövlət qurumlarında gender balansının qorunması istiqamətində müsbət dinamika mövcuddur.*

*Əksər mərkəzi qurumların strukturunda çalışan ümumi işçilər və rəhbər işçilər arasında kişilər üstünlük təşkil etmişdir. Eyni zamanda həm işçi, həm də rəhbər işçi bölgüsündə qadınlara daha çox etimad göstərilən qurumlar da mövcuddur. Bəzi qurumlarda qadın və kişi işçi sayında gender bərabərliyi qorunmuşdur.*

## Naxçıvan Muxtar Respublikası

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 11 nəfərini və ya 24.44%-ni qadınlar təşkil edir.

## Naxçıvan Muxtar Respublikasının mərkəzi qurumlarında çalışan şəxslərin gender bölgüsü

| S/№-si | Nazirliklərin, Dövlət Komitələrinin və digər dövlət orqanlarının adı | İşçilərin ümumi sayı | Qadınların sayı | Rəhbər vəzifədə çalışanların sayı | |
|---|---|---|---|---|---|
| | | | | kişi | qadın |
| 1. | Naxçıvan MR Ali Məhkəməsi (Muxtar Respublikada fəaliyyət göstərən məhkəmə orqanları ilə birlikdə cəm) | 253 | 110 | 32 | 7 |
| 2. | Naxçıvan MR İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) | 24 | 10 | 4 | 2 |
| 3. | Naxçıvan MR Prokurorluğu | 151 | 25 | 24 | 0 |
| 4. | Naxçıvan MR Hərbi Prokurorluğu | 31 | 4 | 2 | 0 |
| 5. | Naxçıvan MR Daxili İşlər Nazirliyi | 1654 | 108 | 50 | 1 |
| 6. | Naxçıvan MR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 720 | 325 | 67 | 7 |
| 7. | Naxçıvan MR Səhiyyə Nazirliyi | 4821 | 4015 | 23 | 13 |
| 8. | Naxçıvan MR Fövqəladə Hallar Nazirliyi | 654 | 38 | 43 | 1 |
| 9. | Naxçıvan MR Təhsil Nazirliyi | 12560 | 9269 | 332 | 354 |
| 10. | Naxçıvan MR Ədliyyə Nazirliyi | 514 | 71 | 53 | 10 |
| 11. | Naxçıvan MR Maliyyə Nazirliyi | 160 | 44 | 40 | 7 |
| 12. | Naxçıvan MR Kənd Təsərrüfatı Nazirliyi | 266 | 96 | 25 | 5 |
| 13. | Naxçıvan MR Mədəniyyət Nazirliyi | 2975 | 1938 | 149 | 263 |
| 14. | Naxçıvan MR İqtisadiyyat Nazirliyi | 79 | 15 | 23 | 0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 15. | Naxçıvan MR Gənclər və İdman Nazirliyi | 56 | 17 | 12 | 2 |
| 16. | Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 33 | 9 | 8 | 1 |
| 17. | Naxçıvan MR Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 710 | 196 | 38 | 4 |
| 18. | Naxçıvan MR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 21 | 14 | 1 | 5 |
| 19. | Naxçıvan MR Dövlət Statistika Komitəsi | 104 | 38 | 25 | 2 |
| 20. | Naxçıvan MR Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 38 | 11 | 11 | 0 |
| 21. | Naxçıvan MR Dövlət Vergi Xidməti | 227 | 35 | 46 | 8 |
| 22. | Naxçıvan MR Dövlət Energetika Xidməti | 23 | 5 | 7 | 0 |
| 23. | Naxçıvan MR Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti | 151 | 27 | 30 | 2 |
| 24. | Naxçıvan MR Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 59 | 12 | 12 | 0 |
| 25. | Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti | 603 | 37 | 66 | 1 |
| 26. | "Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi şəxs | 27 | 9 | 5 | 0 |
| 27. | Naxçıvan MR Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi | 10 | 5 | 2 | 1 |
| 28. | Naxçıvan Avtomobil Yollar üzrə Dövlət Agentliyi | 190 (259 ştatdan kənar) | 18 | 25 | 0 |
| 29. | Naxçıvan MR Qida Təhlükəsizliyi Agentliyi | 28 | 4 | 10 | 0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 30. | Naxçıvan MR Vəkillər Kollegiyası | 29 (16-vəkil kişi, 3-vəkil qadın ) | 11 (3 vəkil - qadın) | 1 | - |
| 31. | Naxçıvan MR Turizm Departamenti | 21 | 7 | 6 | 0 |
| 32. | Naxçıvan MR Mərkəzi Seçki Komissiyası | 18 | 4 | 2 | 1 |
| 33. | "Şərq qapısı" qəzetinin redaksiyası | 40 | 23 | 4 | 3 |
| 34. | Naxçıvan Dövlət Universiteti | 955 | 462 | 59 | 27 |
| 35. | "Naxçıvan" Universiteti | 246 | 154 | 12 | 12 |
| 36. | Naxçıvan Müəllimlər İnstitutu | 171 | 127 | 10 | 14 |
| 37. | Naxçıvan MR Dövlət Arxiv İdarəsi | 69 | 45 | 11 | 0 |
| 38. | Naxçıvan Beynəlxalq Hava Limanı | 559 | 141 | 16 | 1 |
| 39. | Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası | 6 | 3 | 3 | 0 |
| 40. | Naxçıvan MR Televiziya və Radio Verilişləri QSC | 218 | 93 | 19 | 8 |
| 41. | Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı ASC | 1281 | 71 | 19 | 0 |
| 42. | Naxçıvan MR Həmkarlar İttifaqları Şurası | 54 | 16 | 20 | 5 |

*Naxçıvan Muxtar Respublikasının mərkəzi orqanlarında çalışanların gender bölgüsü göstərir ki, işçilər və rəhbər işçilər arasında kişilər üstünlük təşkil edir.*

*Yalnız Naxçıvan MR Təhsil və Mədəniyyət Nazirliyində rəhbər vəzifələrdə qadınlar üstünlük təşkil edir.*

*Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetində rəhbər vəzifələrdə gender bərabərliyi müşahidə olunur.*

## Naxçıvan Muxtar Respublikasının icra hakimiyyətlərinin (hər bir icra hakimiyyəti ayrı-ayrılıqda göstərilməklə) strukturunda çalışan işçilər haqqında statistik məlumatlar

| Rayon (şəhər) icra hakimiyyətləri üçün | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Rayon (şəhər) icra hakimiyyətləri | İllər | İşçilərin ümumi sayı | | Başçının müavini | | Şöbə müdiri | | Şöbə müdirinin müavini | | Sektor müdiri | | İcra nümayəndəsi | |
| | | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| Naxçıvan Şəhər İcra Hakimiyyəti | 2020 | 46 | 21 | 2 | 1 | 5 | 1 | 1 | 0 | 2 | 0 | 8 | 0 |
| | 2021 | 46 | 21 | 2 | 1 | 5 | 1 | 1 | 0 | 2 | 0 | 8 | 0 |
| | 2022 | 46 | 21 | 2 | 1 | 5 | 1 | 1 | 0 | 2 | 0 | 8 | 0 |
| | 2023 | 46 | 22 | 2 | 0 | 5 | 0 | 1 | 0 | 2 | 0 | 8 | 0 |
| Şərur Rayon İcra Hakimiyyəti | 2020 | 137 | 74 | 2 | 1 | 2 | 1 | 2 | 0 | 1 | 0 | 43 | 0 |
| | 2021 | 137 | 79 | 2 | 1 | 3 | 1 | 2 | 0 | 2 | 0 | 39 | 0 |
| | 2022 | 154 | 79 | 2 | 1 | 3 | 1 | 2 | 0 | 2 | 0 | 46 | 0 |
| | 2023 | 166 | 77 | 2 | 1 | 4 | 1 | 2 | 0 | 2 | 0 | 52 | 0 |
| Babək Rayon İcra Hakimiyyəti | 2020 | 88 | 35 | 2 | 1 | 4 | 1 | 2 | 0 | 2 | 0 | 26 | 0 |
| | 2021 | 88 | 36 | 2 | 1 | 5 | 1 | 2 | 0 | 2 | 0 | 28 | 0 |
| | 2022 | 88 | 38 | 2 | 1 | 5 | 1 | 2 | 0 | 2 | 0 | 27 | 0 |
| | 2023 | 87 | 38 | 2 | 1 | 5 | 1 | 2 | 0 | 2 | 0 | 28 | 0 |
| Ordubad Rayon İcra Hakimiyyəti | 2020 | 101 | 48 | 2 | 1 | 4 | 1 | 2 | 0 | 0 | 1 | 24 | 1 |
| | 2021 | 113 | 51 | 2 | 1 | 5 | 1 | 2 | 0 | 1 | 1 | 26 | 1 |
| | 2022 | 118 | 50 | 2 | 1 | 5 | 1 | 2 | 0 | 1 | 1 | 28 | 1 |
| | 2023 | 120 | 50 | 2 | 1 | 5 | 1 | 2 | 0 | 1 | 1 | 28 | 1 |
| Culfa Rayon İcra Hakimiyyəti | 2020 | 77 | 35 | 1 | 1 | 6 | 1 | 2 | 0 | 2 | 0 | 19 | 0 |
| | 2021 | 80 | 35 | 1 | 1 | 6 | 1 | 2 | 0 | 2 | 0 | 19 | 0 |
| | 2022 | 80 | 35 | 1 | 1 | 6 | 1 | 2 | 0 | 2 | 0 | 19 | 0 |
| | 2023 | 75 | 33 | 1 | 1 | 6 | 1 | 2 | 0 | 2 | 0 | 19 | 0 |
| Şahbuz Rayon İcra Hakimiyyəti | 2020 | 78 | 26 | 1 | 0 | 3 | 0 | 2 | 0 | 2 | 0 | 19 | 0 |
| | 2021 | 85 | 32 | 1 | 0 | 4 | 0 | 2 | 0 | 2 | 0 | 20 | 0 |
| | 2022 | 84 | 32 | 1 | 0 | 5 | 0 | 2 | 0 | 2 | 0 | 17 | 0 |
| | 2023 | 91 | 32 | 1 | 0 | 5 | 0 | 2 | 0 | 2 | 0 | 22 | 0 |
| Kəngərli Rayon İcra Hakimiyyəti | 2020 | 57 | 18 | 1 | 1 | 4 | 1 | 1 | 0 | 2 | 0 | 10 | 0 |
| | 2021 | 59 | 19 | 1 | 1 | 6 | 1 | 1 | 0 | 1 | 0 | 10 | 0 |
| | 2022 | 60 | 20 | 1 | 1 | 6 | 1 | 2 | 0 | 2 | 0 | 10 | 0 |
| | 2023 | 59 | 21 | 1 | 0 | 6 | 0 | 2 | 0 | 2 | 0 | 10 | 0 |
| Sədərək Rayon İcra Hakimiyyəti | 2020 | 41 | 6 | 1 | 1 | 4 | 1 | 2 | 0 | 2 | 0 | 3 | 0 |
| | 2021 | 43 | 8 | 1 | 1 | 5 | 1 | 2 | 0 | 2 | 0 | 4 | 0 |
| | 2022 | 44 | 8 | 1 | 0 | 5 | 0 | 2 | 0 | 2 | 0 | 4 | 0 |
| | 2023 | 47 | 7 | 2 | 0 | 4 | 0 | 2 | 0 | 2 | 0 | 4 | 0 |

***Naxçıvan Muxtar Respublikasının 8 şəhər və rayon icra hakimiyyətlərinin** (hər bir icra hakimiyyəti ayrı-ayrılıqda göstərilməklə) strukturunda çalışan işçilər haqqında statistik cədvəldən görünür ki, 2020-2023-cü illərdə işçilər və rəhbər işçilər arasında kişilər üstünlük təşkil etmişdir.*

*Belə ki, **2022-ci ildə Naxçıvan Muxtar Respublikasının 8 şəhər və rayon icra hakimiyyətlərində** 674 kişi, 283 qadın işçi çalışmışdır. **2023-cü ildə** isə 691 kişi, 280 qadın işçi çalışmışdır.*

*2022-ci ildə **icra başçısı müavinlərinin** 12 nəfəri kişi, 6 nəfəri qadın olmuşdur. **2023-cü ildə** isə 13 nəfəri kişi, 4 nəfəri qadın olmuşdur.*

*2022-ci ildə **şöbə müdirləri arasında** 40 nəfəri kişi, 6 nəfəri qadın olmuşdur . **2023-cü ildə** 40 nəfəri kişi, 4 nəfəri qadın olmuşdur.*

*2022-2023-cü illərdə **şöbə müdirinin müavini** 15 nəfəri kişi olmuşdur. Bu vəzifədə qadınlar təmsil olunmamışdır.*

*2022-ci ildə **icra nümayəndələrinin** 159 nəfəri kişi, 1 nəfəri qadın olmuşdur. 2023-cü ildə 171 nəfəri kişi, 1 nəfəri qadın olmuşdur.*

## 1.5. Şəhər və rayon icra hakimiyyətləri tərəfindən gender bərabərliyinin təmin edilməsi

**Bakı Şəhər İcra hakimiyyəti başçısı Aparatında çalışan işçilər haqqında statistik məlumatlar (2020-2023-cü illər üzrə müqayisəli şəkildə)**

| Şəhər icra hakimiyyətlərinin adı | İLLƏR | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2020-ci il | | | 2021-ci il | | | 2022-ci il | | | 2023-cü il | | |
| | Ümumi işçilərin sayı (nəfər) | Qadınların sayı | Rəhbər vəzifədə çalışan qadınların sayı (nəfər) | Ümumi işçilərin sayı | Qadınların sayı | Rəhbər vəzifədə çalışan qadınların sayı (nəfər) | Ümumi işçilərin sayı | Qadınların sayı | Rəhbər vəzifədə çalışan qadınların sayı | Ümumi işçilərin sayı (nəfər) | Qadınların sayı | Rəhbər vəzifədə çalışan qadınların sayı |
| Bakı şəhəri | **131** | 55 | 4 | **128** | 50 | 4 | **132** | 56 | 4 | **131** | 55 | 4 |

## Bakı şəhəri üzrə icra hakimiyyətlərinin strukturunda çalışan işçilərin statistikası (2020-2023-cü illər üzrə müqayisəli şəkildə)

| Şəhər icra hakimiyyətlərinin adı | İ L L Ə R | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2020-ci il | | | 2021-ci il | | | 2022-ci il | | | 2023-cü il | | |
| | Ümumi işçilərin sayı (nəfər) | Qadınların sayı | Rəhbər vəzifədə çalışan qadınların sayı (nəfər) | Ümumi işçilərin sayı | Qadınların sayı | Rəhbər vəzifədə çalışan qadınların sayı (nəfər) | Ümumi işçilərin sayı | Qadınların sayı | Rəhbər vəzifədə çalışan qadınların sayı | Ümumi işçilərin sayı (nəfər) | Qadınların sayı | Rəhbər vəzifədə çalışan qadınların sayı |
| Nizami | **44** | 18 | 2 | **44** | 18 | 2 | **42** | 16 | 3 | **41** | 14 | 3 |
| Nəsimi | **64** | 20 | 2 | **64** | 19 | 2 | **64** | 20 | 2 | **64** | 19 | 2 |
| Yasamal | **69** | 23 | 4 | **70** | 23 | 4 | **70** | 24 | 4 | **69** | 25 | 4 |
| Səbail | **68** | 24 | 3 | **69** | 24 | 3 | **69** | 24 | 3 | **66** | 25 | 4 |
| Pirallahı | **57** | 13 | 1 | **57** | 14 | 2 | **57** | 13 | 1 | **57** | 13 | 1 |
| Qaradağ | **71** | 21 | 3 | **74** | 22 | 3 | **76** | 24 | 3 | **73** | 24 | 3 |
| Xəzər | **88** | 32 | 3 | **88** | 32 | 3 | **88** | 32 | 3 | **87** | 31 | 3 |
| Suraxanı | **74** | 32 | 4 | **74** | 35 | 5 | **75** | 33 | 5 | **67** | 27 | 4 |
| Sabunçu | **97** | 44 | 3 | **97** | 44 | 4 | **95** | 42 | 4 | **96** | 43 | 4 |
| Xətai | **98** | 22 | 2 | **98** | 22 | 2 | **98** | 22 | 2 | **98** | 22 | 2 |
| Nərimanov | **44** | 12 | 1 | **44** | 12 | 1 | **41** | 10 | 1 | **38** | 10 | 1 |
| Binəqədi | **73** | 24 | 4 | **69** | 23 | 4 | **73** | 23 | 4 | **70** | 23 | 4 |
| **Cəmi:** | **847** | **285** | **34** | **848** | **298** | **35** | **848** | **283** | **35** | **826** | **276** | **35** |

***Yerli icra hakimiyyətlərindən əldə edilən məlumata görə,*** *Bakının 12 rayonu üzrə yerli icra hakimiyyətlərinin strukturunda*

*2020-ci ildə ümumilikdə 847 nəfər, o cümlədən 285 qadın çalışmışdır. Rəhbər vəzifələri icra edənlərdən 34 nəfəri qadın olmuşdur.*

*2021-ci ildə ümumilikdə 848 nəfər, o cümlədən 298 qadın çalışmışdır. Rəhbər vəzifələri icra edənlərdən 35 nəfəri qadın olmuşdur.*

*2022-ci ildə ümumilikdə 848 nəfər, o cümlədən 283 qadın çalışmışdır. Rəhbər vəzifələri icra edənlərdən 35 nəfəri qadın olmuşdur.*

*2023-cü ildə ümumilikdə 826 nəfər, o cümlədən 276 qadın çalışmışdır. Rəhbər vəzifələri icra edənlərdən 35 nəfəri qadın olmuşdur.*



# 2

# GENDER BƏRABƏRLİYİNİN MÜXTƏLİF SAHƏLƏR ÜZRƏ TƏMİNATI

## (Maddə 7-16)

## 2.1. Əmək hüquqlarının həyata keçirilməsində gender bərabərliyinin təmin edilməsi

Əhalinin məşğulluğu və əmək münasibətləri sahəsində milli qanunvericilikdə, o cümlədən Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Məşğulluq haqqında" Qanununda və digər normativ-hüquqi aktlarda bütün şəxslərə əmək və məşğulluğu sərbəst seçmək hüququnun həyata keçirilməsində bərabər imkanlar verilməklə cinsinə görə hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəmnində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqların məhdudlaşdırılması qəti qadağandır.

Əmək münasibətləri sahəsində işəgötürənin əsas vəzifələri və məsuliyyəti Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 12-ci maddəsi ilə tənzimlənir. Bu maddənin 1-ci hissəsinin "f" və "g" bəndlərinə əsasən işə qəbul, işdə irəli çəkilmək, peşə hazırlığını artırmaq, yeni ixtisasa yiyələnmək və ixtisasını artırmaq zamanı, işin keyfiyyətini qiymətləndirərkən, işdən azad edərkən cinsindən asılı olmayaraq işçilərə eyni yanaşmaq və bərabər imkanlar yaratmaq; cinsindən asılı olmayaraq eyni işlə məşğul olan işçilərə eyni iş şəraitini yaratmaq, eyni pozuntuya görə işçilərə fərqli intizam tənbehi tədbirini tətbiq etməmək, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin və seksual qısnamanın qarşısını almaq üçün lazımi tədbirlər görmək əmək münasibətləri sahəsində işəgötürənin əsas vəzifələrinə aiddir.

Respublikada kişi və qadınların orta əmək haqqı fərqliliyinin aradan qaldırılması məqsədilə məqsədyönlü islahatlar həyata keçirilir. Belə ki, əmək haqlarının artırılması sahəsində həyata keçirilən islahatlar həm minimum əməkhaqqının orta əməkhaqqında xüsusi çəkisinin artırılmasına, həm də qadın və kişi işçilərin orta əməkhaqları arasındakı fərqliliyin aradan qaldırılmasına istiqamətlənmişdir. 2020-ci ildə qadınların orta əməkhaqqı kişilərin orta əməkhaqqının 63.3%-ni təşkil edirdisə, 2021-ci ildə 64.8% və 2022-ci ildə 67.1%-ni təşkil etmişdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına uyğun olaraq, əhalinin son siyahıya alınmasının nəticəsi əsasında hesablanmış əhalinin sayı 2023-cü il ərzində 0.5% artaraq, **2024-cü il yanvar ayının 1-i vəziyyətinə 10180.8 min nəfərə çatmışdır. Əhalinin 49.8% kişilər, 50.2% isə qadınlar təşkil edir.**

2022-ci ilin sonuna ölkədə işçi qüvvəsinin (iqtisadi fəal əhali) sayı 5194.4 min nəfər təşkil etmiş və 2021-ci illə müqayisədə bu göstərici 1% artmışdır. Bir il ərzində bu kateqoriyaya daxil olan qadınların sayı 1.3% artaraq 2508.7 min nəfərə çatmışdır. Ümumi işçi qüvvəsinin sayında qadınların payı 48.2%-dən 48.3%-ə dəyişmişdir.

2021-ci ildən məşğul əhalinin sayı 1.5% artaraq 2022-ci ildə 4831.1 min nəfər təşkil etmişdir. Məşğul qadınların sayı 1.7% artmışdır və ümumi məşğul olanların tərkibində qadınların payı 47.7%-dən 47.8%-ə dəyişmişdir. 2022-ci ilin məlumatına əsasən məşğul qadınların 14.8% ali, 14.3% orta ixtisas, 3.6% peşə və 65.9% orta təhsillidir. Məşğul qadınlar kişilərlə müqayisədə daha çox təhsil (73.4%), əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi (70.4%), ticarət və nəqliyyat vasitələrinin təmiri (63.6%), kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (54.3%), digər sahələrdə xidmətlərin göstərilməsi (53.5%), informasiya və rabitə (53.0%), istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət (52.9%) sahələrində fəaliyyət göstərirlər.

Azərbaycanda bütün sahələrdə olduğu kimi, əmək bazarında da qadınların rolu

getdikcə artır. Onlar respublikamızın sosial-iqtisadi, ictimai-mədəni inkişafına öz dəyərli töhfələrini verirlər.

**2023-cü il ərzində əmək hüquqlarının pozulması ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə daxil olmuş** vətəndaş müraciətlərinə baxılması, eyni zamanda dövlət orqanlarından daxil olan məlumatların araşdırılması zamanı işəgötürənlər tərəfindən 1776 halda əmək qanunvericiliyinin tələblərinin pozulması faktı aşkar edilmiş və törədilmiş inzibati xətalara görə inzibati qaydada cərimə tətbiq edilmişdir (2022-ci ildə isə bu rəqəm 1807 olmuşdur).

Bunlardan:

– 436-sı qadınların hüquqlarının pozulması üzrə;

– 1340-ı isə kişilərin hüquqlarının pozulması üzrə olmuşdur.

**Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə** əmək hüquqlarının pozulması ilə bağlı 287 müraciət daxil olmuşdur.

***2022-ci ilin məlumatına əsasən işsizlərin ümumi sayının 55.9%-ni qadınlar (164.1 min nəfər) təşkil etmişdir. Ümumi respublika üzrə qadınlar arasında işsizlik səviyyəsi 6.5% (kişilər arasında – 4.8%) səviyyəsində müşahidə edilmişdir.***

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin "Əmək Müqaviləsi Bildirişi" altsisteminin (ƏMBAS) məlumatına əsasən 2024-cü ilin 1 fevral tarixinə muzdla çalışanlar arasında qadınların xüsusi çəkisi 44.1% olmuşdur. Qadınlarla bağlanmış əmək müqavilələrin sayı 805.4 min nəfər, o cümlədən dövlət sektorunda 507.3 min nəfər (63%), qeyri-dövlət sektorunda isə 298.1 min nəfər (37%) təşkil etmişdir.

**2023-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin** (bundan sonra – Agentlik) regional məşğulluq filiallarında **işsiz şəxs kimi 206411 nəfər qeydiyyata alınmışdır.** Onlardan 90905 nəfərini qadınlar, 115 506 nəfərini isə kişilər təşkil etmişdir. ***(2022-ci ildə** 21572 -si qadın, 32014-ü kişi olmaqla ümumi 53586 nəfər)*

**2023-cü ildə işsiz kimi qeydiyyata alınan şəxslərin gender bölgüsü**




**Agentliyin regional məşğulluq filialları tərəfindən qeydiyyata alınmış şəxslərdən 2023-cü ildə 44517 nəfərini qadın, 73881 nəfərini kişi** təşkil etməklə ümumilikdə 118398 nəfər **işlə təmin edilmişdir. (*2022-ci ildə*** *16252 nəfər qadın, 22996 kişi olmaqla ümumi 9248 nəfər).*

*Müqayisə göstərir ki, 2023-cü ildə işlə təmin olunan şəxslərin sayı artmışdır.*

**2022-2023cü illərdə işlə təmin edilmiş şəxslərin gender bölgüsü**




Bununla yanaşı, **2023-cü ildə 9518 nəfər peşə hazırlığına cəlb olunmuşdur,** onlardan 5286 nəfərini qadınlar, 4232 nəfərini kişilər təşkil etmişdir. (***2022-ci ildə*** *2374 nəfər qadın, 2201 nəfər kişi olmaqla ümumi 4575 nəfər).*

*2022-ci illə müqayisədə 2023-cü ildə peşə hazırlığına cəlb olunmuş şəxslərin sayı ikiqat artmışdır.*




2023-cü ildə 67805 nəfəri qadın olmaqla ümumilikdə 172443 nəfərə peşəyönümünə dair məsləhət xidmətləri göstərilmişdir. 2023-cü ildə 2192 nəfəri qadın olmaqla 8370 nəfərə işsizlikdən sığorta ödənişi təyin edilmişdir.

**2023-cü ildə** 2308 nəfəri qadın olmaqla ümumilikdə 5628 nəfər haqqı ödənilən ictimai işlərə cəlb edilmişdir.

2023-cü ildə 735 nəfəri qadın olmaqla 2751 nəfər, **kvota yerləri üzrə işlə təmin olunmuşdur.** *(**2022-ci ildə** 193 nəfəri qadın, 683 nəfəri kişi olmaqla cəmi 876 nəfər)*

*2022-ci illə müqayisədə 2023-cü ildə kvota yerləri üzrə işlə təmin olunmuş şəxslərin sayı 5 dəfədən çox artmışdır. 499-dan 2751-ə çatmışdır.*




**2023-cü ildə** 5610 nəfər qadın olmaqla 17362 nəfər, **özünüməşğulluq proqramına cəlb olunmuşdur.** Sosial iş yerlərində işçilərin əmək haqqlarının maliyyələşdirilməsi proqramı üzrə isə 2023-cü ildə 459 nəfər qadın olmaqla 1198 nəfər işlə təmin olunmuşdur

***Həmçinin 2022-ci ildə*** *3883 nəfər qadın, 12214 nəfər kişi olmaqla 16097 nəfər, 2021-ci ildə isə 4408 nəfəri qadın, 11824 nəfəri kişi olmaqla 16232 nəfər* ***özünüməşğulluq proqramına cəlb olunmuşdur***.

*2022-ci illə müqayisədə 2023-cü ildə özünüməşğulluq proqramına cəlb olunmuş şəxslərin sayı 16097-dən 17362-yə qalxmışdır.*




Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək Müqaviləsi Bildirişi” altsisteminin (ƏMBAS) məlumatına əsasən 2023-cü ilin 1 mart tarixinə muzdla çalışanlar arasında qadınların xüsusi çəkisi 44,2 % olmuşdur. Ümumilikdə 778,5 min nəfər qadınla əmək müqaviləsi bağlanılmışdır.Onlardan 508,7 min nəfər (65,3%), dövlət sektoruna, 270,8 min nəfər (34,7%) isə qeyri-dövlət sektoruna aiddir.

Azərbaycan Respublikasında **2023-cü ildə qadınların orta aylıq əməkhaqqı 739.3 manat, kişilər arasında bu göstərici 1066.9 manat təşkil etmişdir** *(ilkin məlumatlara əsasən).*

**2022-ci ildə qadınların orta aylıq əməkhaqqı** 649.1 manat, kişilər arasında bu göstərici 967.5 manat olmuşdur.

*2022-ci illə müqayisədə 2023-cü ildə həm qadınların, həm də kişilərin orta aylıq əməkhaqqı qalxmışdır.*

*Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən* ***"Qadınların Qeyri-formal məşğulluğu"*** *mövzusunda araşdırma aparmışdır.*

***http://family.gov.az/store/media/aida/Qadinlarin%20qeyri%20formal%20mesgulluqu+++.pdf***

*Qeyri-formal iqtisadiyyat ilə əlaqəli olan qeyri-formal məşğulluq müasir dövrdə bütün ölkələrin ən əhəmiyyətli iqtisadi və sosial problemlərindən biridir. Qeyri-formal məşğulluğun sosial problemləri əsasən əmək müqavilələrinin rəsmiləşdirilməsi və bu prosesin işə götürən müəssisələr üçün yaratdığı öhdəliklər, o cümlədən pensiya təminatı, işçinin məzuniyyət və istirahət hüquqları, iş saatlarının müəyyənləşdirilməsi kimi əmək hüququnun elementləridir. Qeyri-formal məşğulluqda isə təəssüf ki, yuxarıda sadalanan imtiyazlardan işçilər yararlana bilmir. Dünyada məşğul əhalinin 60%-dən çoxu öz qazancını qeyri rəsmi yolla əldə edir. [1](İLO).*

*Ümumilikdə qeyri-formal məşğulluq ölkələrin sosial iqtisadi inkişafından asılı olmayaraq bütün ölkələrdə mövcuddur. Lakin inkişaf etməkdə olan ölkələrdə bu daha çox yayılmışdır. Hesablamalar göstərir ki, hazırda 2 milyarda yaxın insan layiqli iş şəraitindən məhrumdur.*

*Beynəlxalq Əmək Təşkilatının 2015-ci ildə 204 saylı tövsiyyə sənədində qeyd olunmuş qeyri-formal iqtisadiyyatdan formal iqtisadiyyata keçidlə bağlı tövsiyələri müəyyən edərək, 2030-cu il Dayanıqlı İnkişaf Proqramı"nın hədəfləri arasında beyəlxalq əmək standartlarına keçidin zəruriliyi öz əksini tapmışdır. Eyni zamanda qeyri-formal iqtisadiyyatdan formal iqtisadiyyata keçidin sürətlənməsi formal məşğulluğun güclənməsi*




*baxımından strateji hədəf hesab edilməkdədir.*

*Qeyri-formal məşğulluğun əsas səbəbləri arasında iqtisadi kontekst, hüquqi və tənzimləyici siyasət çərçivələri, təhsil səviyyəsinin aşağı olması, yoxsulluq və iqtisadi resurslara çıxışın olmaması kimi bəzi mikro səviyyəli faktorlarla bağlıdır.[2]*

*Ölkəmizdə də qeyri-formal məşğulluğun konket hüquqi identifikasiyası "Məşğulluq Haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilmişdir. Həmin qanuna görə qeyri-formal məşğulluq – Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əmək müqaviləsi (kontrakt) və ya Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki hüquqi müqavilə bağlanılmadan müəyyən fəaliyyətin yerinə yetirilməsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq sahibkarlıq fəaliyyətinin və mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqdan istifadənin rəsmiləşdirilmədən həyata keçirilməsi, eləcə də "Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yerli özünüidarəetmə orqanlarında uçota durmadan ailə kəndli təsərrüfatının*

*[1] İLO, Women and Men in the Informal Economy: A Statistical Picture, 2018*

*[2] İLO, İnformal Economy,* *https://www.ilo.org/global/topics/dw4sd/themes/informal-economy/lang—en/index.htm*

*təşkili nəticəsində qazanc (gəlir) əldə edilməsidir.[3] Qanunda qeyd edilən identifikasiyaya nəzər yetirdikdə buradakı əsas vurğu fəaliyyətin və bu fəaliyyətdən əldə edilən gəlirin rəsmi uçota alınmaması əsas meyar kimi götürülmüşdür.*

*Bundan başqa evdar qadınların müxtəlif ölkələrdə məşğul şəxs sayılıb sayılmaması ilə bağlı müxtəlif yanaşmaları mövcuddur. Bəzi ölkələr evdar qadınların gördüyü ev işlərinə görə nominal bir məbləğ almasa da onun ev təsərrüfatına da nominal dəyər gətirməsi səbəbi ilə məşğul şəxslərin kateqoriyasına aid edilməsinin zəruri olduğunu vurğulayır. Bu fikri əsaslandırmaq üçün əsas arqument bundan ibarətdir ki, əgər evdar qadının gördüyü işləri hər hansı bir dayə həyata keçirsəydi ona müəyyən bir məbləğ ödəniləcəkdi. Təbii ki, bu xidməti nominallaşdırmaq da metodoloji baxımdan çətindir.*

***Tədqiqatdan əldə edilən mühüm nəticələri aşağıdakı kimi ümumiləşdirmək mümkündür:***

*Ümumilikdə qeyri-formal məşğulluqla bağlı ölkəmizdə dövrü və təsnifatlaşdırılmış statistik məlumatlar yayımlanmır. Buna görə də qeyri-formal məşğulluğa qarşı mübarizədə görülən tədbirlərin effektivliyini ölçmək mümkün deyil.*

*Qeyri-formal məşğulluq formal məşğulluqla müqayisədə əlverişsiz məşğulluqdur. Belə ki, qeyri-formal məşğulluqda vergi və sosial ödənişlər dövlətin maliyyəsinə ciddi ziyan vurmaqdadır. Bundan başqa qeyri-formal məşğulluq gələcəkdə pensiya təminatının olmaması nəticələrini yaratdığına görə ciddi sosial problemlər də yarada bilər.*

*Ölkəmizdə və dünyada cins (gender) əsaslı əmək haqqı bərabərsizliyi getdikcə azalır. Lakin bu azalma tempi çox aşağıdır və gender əsaslı əməkhaqqı bərabərsizliyini qısa zamanda sürətlə dəyişdirmək çox çətindir və uzun illər tələb edir.*

*Gender əsaslı gəlir bərabərsizliyinə təsir edən faktorlardan biri idarə, müəssisə və təşkilatların rəhbər kadrlarında qadınların payının çox az olması ilə bağlıdır. Belə ki, rəhbər kadrlarda olanlar digərlərinə nəzərən daha yüksək əməkhaqqı alması gəlir bərabərsizliyinə nəzərə çarpacaq səviyyədə təsir edən elementdir. Bunun əyanıı sübutu kimi dövlət qulluğunda qadınların ümumi payının azalması, lakin ali-3-cü təsnifatda isə qadınların payının çoxalması əməkhaqqı fərqlərinin azalmasına töhfə vermişdir.*

*İstər ölkəmizdə, istərsə də Avropa ölkələrində qadınların böyük bir hissəsi nisbətən aşağı əməkhaqqı olan iqtisadi fəaliyyət növlərində işləməsi cins üzrə gəlir bərabərsizliyinin əsas mənbələrindən hesab edilir.*

*Sahibkarlıq fəaliyyətində qadınların payının az olması mülkiyyətin əsasən kişilərdə olması ilə bağlıdır. Bununla bərabər Avropa ölkələri üzrə aparılan tədqiqatlar onu göstərmişdir ki, gender bərabərsizliyinin səbəbləri ilə bağlı şablon ifadələr ve stretotiplər özünü doğrultmur. Bu, qadınların ev təsərrüfatlarında xərclədiyi vaxtın onların əmək bazarındakı fəaliyyətə mənfi təsir göstərməsi ilə bağlıdır.*

*Ali təhsil müəssisələrində təhsil ixtisas qruplarındakı cins bölgüsü ilə iqtisadiyyatın müxtəlif fəaliyyət növlərindəki cins bölgüsü arasında güclü əlaqə mövcuddur. Təhsil ixtisas qrupundakı cins bölgüsü iqtisadi fəaliyyət növündəki cins bölgüsünü təyin edir. Təhsil-əmək bazarı arasındakı əlaqəni burada müəyyən etmək mümkündür. Qadınlar, ev işlərinə əsasən, tam saatlı sahələrə deyil, müəyyən qədər az saat tələb edən sahələrə, xüsusilə, təhsil, səhiyyə və sosial xidmət tələb edən sahələrə yönəlirlər Qadınların ixtisas seçimi onların sosial rolları ilə əlaqəlidir və son 10 ilin nəticələrində ciddi*

*[3] "Məşğulluq Haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 1.1.9.*

*dəyişikliyin olmaması onu göstərir ki, ixtisas seçiminin müəyyən edilməsində mental faktorların hələ də əhəmiyyəti var.*

***Qeyd edilən problemlərlə bağlı gələcək illərdə aşağıdakı istiqamətlərdə daha çox tədbirlərin həyata keçirilməsi təklif olunur:***

*Qeyri-formal məşğulluqla bağlı dövrü göstəricilərin hazırlanması, o cümlədən cins, yaş və iqtisadi sahələr üzrə bölgülərin hazırlanması üzrə qiymətləndirmə və monitorinq sisteminin hazırlanması tövsiyə olunur. Bu məqsədlə Beynəlxalq Əmək Təşkilatının və Dövlət Statistika Komitəsinin təşkil etdiyi sorğu metodologiyası üzrə qiymətləndirmənin aparılması, bu təşkilatlarla əməkdaşlığın gücləndirilməsi tövsiyə olunur.*

*Qeyri-formal məşğulluqla bağlı hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində daha spesifik addımlar atılmalı, vergi və sosial ödənişlərinin faizlərinin optimallaşdırılması ilə bağlı Dövlət Vergi Xidməti işəgötürən müəssisələrlə müzakirələr aparılmalı və faiz dərəcələrinə yenidən baxılmalıdır. Ən vacib məqamlardan biri isə evində internet üzərindən işləyən, lakin vergi qeydiyyatına düşməyən şəxslərin məşğulluğunun rəsmiləşdirilməsi üçün Dövlət Vergi Xidməti qanunvericilik bazasını və mexanizmlərini təkmilləşdirməlidir.*

*Eyni zamanda evində internet üzərindən onlayn işləyən qadınların maliyyə savadlılığının artırılması üçün əlaqədər orqanlarla bərabər maarifləndirici tədbirlərin həyata keçirilməsi tövsiyə olunur.*

*Qadınlar üçün qadağan edilmiş peşə təsnifatlarında azalma olsa da gələcək illərdə qadınlar üçün işləməsi qadağan edilmiş peşə təsnifatlarının sayının azalması istiqamətində normativ hüquqi aktlarda təkmilləşdirmənin aparılması tövsiyə olunur. Mövcud qadağalar adekvat olmalı və qadınlarla bağlı kateqoriyalarına aid edilməməlidir.*

*Xüsusilə qeyri-formal iqtisadiyyatda işləyən qadınların analıq məzuniyyətini təmin edilməsi ilə gənc anaların məşğulluğa qayıdışı təmin ediməli, bu məqsədlə ev təsərrüfatının idarə edilməsində atalara da məzuniyyət hüququnun təkmilləşdirilməsi tövsiyə edilir. Qadınlara vəzifələrdə yüksəlişi ilə bağlı diskriminasiya hallarının qarşısının alınması üçün işəgötürənlərə qarşı məsuliyyət mexanizmləri artırılmalıdır.*

*İş yerlərində qadınların seksual zorakılığa məruz qalmasının qarşısının alınması üçün qanunvericilik bazası və mexanizmi təkmilləşdirilməli, bu çərçivədə işəgötürən müəssisələrin rəhbərlərinin məsuliyyətini artıran və qadınların bu hadisələrlə bağlı şikayətlərinin baxılması mexanizmi təkmilləşdirilməlidir.*

*Əməkhaqqı artımı ilə bağlı siyasətdə təhsil, səhiyyə və sosial xidmətlərin göstərilməsi, istirahət və əyləncə, mədəniyyət sahəsi kimi qadınların daha çox payı olduğu sahələrdə əməkhaqqı artımları digər iqtisadi fəaliyyət növlərinə nəzərən daha yüksək nisbətdə olması tövsiyə olunur.*

*Dövlətin müvafiq qurumları, vətəndaş cəmiyyəti təşkilatları və media orqanları qadınların ixtisas seçimində mövcud stereotipləri dəyişdirməyə istiqamətlənən maarifləndirmə tədbirlərini gücləndirməlidir. Xüsusilə daha çox əlavə dəyər gətirən sənaye sahəsi ilə bağlı texniki fənlər üzrə ixtisas qruplarına qadınların təşviq edilməsi tövsiyə olunur. Abituriyentlərin ixtisas seçimində sosial mühitlərin rolu və sosial medianın rolunun tədqiq edilməsi tövsiyə olunur.*

*Qadınların əmək bazarında daha uzun müddət qalması üçün azyaşlı uşaqlara xidmətdə dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı imkanlar araşdırılmalı, bu sahədə beynəlxalq təcrübənin, ölkəmizin maliyyə və sosial imkanları ilə uyğunluğu araşdırılaraq tətbiq edilmə imkanlarının öyrənilməsi tövsiyə olunur.*

## 2.2. Təhsil hüquqlarının həyata keçirilməsində bərabər imkanların təmin edilməsi

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" əsasında ümumi təhsil pilləsində tədris olunan müvafiq fənn və dərsdənkənar məşğələlərin məzmununa təhsilalanların yaş xüsusiyyətləri nəzərə alınmaqla gender əsaslı cinsi seçimin qarşısının alınması və aradan qaldırılması, gender stereotiplərinin dəyişdirilməsi ilə bağlı mesajların verilməsi, cinsi ayrı-seçkiliyin aradan qaldırılması, qadınların da rəhbər vəzifədə təsvirinin əks olunmasına dair mövzuların daxil edilməsi diqqətdə saxlanılır.

I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 3 may 2019-cu il tarixli Sərəncamının icrası nəticəsində əlilliyi olan qızların bakalavr və magistr pillələri üzrə təhsil haqqı dövlət vəsaiti hesabına ödənilmişdir. Bununla yanaşı, Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızı işğal etməsi nəticəsində məcburi köçkün olmuş ailələrin övladlarının, o cümlədən qızların bakalavr və magistr pilləsi üzrə təhsil haqqı dövlət vəsaiti hesabına ödənilmişdir.

Əlavə olaraq, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Qanunun 8-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 yanvar 2022-ci il tarixli, 19 nömrəli "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Qərarına əsasən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ilk dəfə işə düzələn zaman Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinin "Sosial müdafiə və sosial təminat" bölməsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılmış vəsait hesabına Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 yanvar tarixli, 15 nömrəli Qərarında nəzərdə tutulmuş normativlər üzrə paltar, ayaqqabı, yumşaq inventar, avadanlıqla və ya öz arzularına əsasən, 265 manat məbləğində pul kompensasiyası ilə, habelə respublika üzrə orta aylıq əmək haqqının beş mislindən az olmayan miqdarda birdəfəlik müavinətlə təmin edilirlər.

## 2023/2024-cü tədris ili üzrə məktəblərdə siniflər üzrə təhsil alan şagirdlərin sayı (oğlan və qızlar) və analitik təhlili

***Respublikanın ümumtəhsil müəssisələrində təhsil alan şagirdlərin siniflər üzrə bölgüsü:***

| Sinif | Cəmi | Qızların sayı | Oğlanların sayı |
|---|---|---|---|
| Məktəbəhazırlıq | 86336 | 39936 | 46400 |
| 1 | 136984 | 64045 | 72939 |
| 2 | 151160 | 70815 | 80345 |
| 3 | 157643 | 74044 | 83599 |
| 4 | 158681 | 73643 | 85038 |
| 5 | 160049 | 74646 | 85403 |
| 6 | 161079 | 74656 | 86423 |
| 7 | 162287 | 75178 | 87109 |
| 8 | 161226 | 74765 | 86461 |
| 9 | 150814 | 69717 | 81097 |
| 10 | 115558 | 55043 | 60515 |
| 11 | 102996 | 48047 | 54949 |
| 12 | 196 | 25 | 171 |
| **Cəmi** | **1705009** | **794560 (46,6%)** | **910449 (53,4%)** |

***Cədvəldən göründüyü kimi, 2023-cü ildə cins bölgüsü arasındakı fərq 115889 nəfər, yəni 6,8%-dir.***

***2022-ci ildə isə cins bölgüsü arasındakı fərq 117947 nəfər, yəni 6% olmuşdur.***

# 2023/2024-cü tədris ili üzrə peşə təhsili, orta ixtisas təhsili və ali təhsilin bakalavriat, magistr pilləsində təhsil alan tələbələrin sayı (oğlanlar və qızlar) və analitik təhlili

| **Peşə təhsili müəssisələrində** təhsil alan tələbələrin sayı haqqında məlumat | | |
|---|---|---|
| **Cəmi** | **onlardan** | |
| | ***Qızlar*** | ***Oğlanlar*** |
| 26026 | 7552 (29%) | 18474 (71%) |

| **Orta ixtisas təhsili** müəssisələrində təhsil alan tələbələrin sayı haqqında məlumat | | | |
|---|---|---|---|
| **Tabeçilik** | **Cəmi** | **onlardan** | |
| | | ***Qızlar*** | ***Oğlanlar*** |
| Dövlət | 59903 | 37417 | 22486 |
| Özəl | 5400 | 3443 | 1957 |
| Cəmi | 65303 | 40860 (62,6%) | 24443 (37,4%) |

*Orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrin müqayisəli statistikasının təhlili onu göstərir ki, **kişilər (71%) peşəyönümlü təhsilə, qadınlar (62,6%) daha çox orta ixtisas təhsilinə** üstünlük verirlər. Bu göstəricilər həm özəl, həm də dövlət tabeliyində olan təhsil müəssisələrinə aiddir.*

| **Ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı haqqında məlumat** | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Tabeçilik** | **Bakalavriat** | | | **Magistratura** | | |
| | **Cəmi** | **onlardan** | | **Cəmi** | **onlardan** | |
| | | ***Qızlar*** | ***Oğlanlar*** | | ***Qızlar*** | ***Oğlanlar*** |
| Dövlət | 176206 | 90005 | 86201 | 22954 | 11127 | 11827 |
| Özəl | 26959 | 16778 | 10181 | 2901 | 1386 | 1515 |
| Cəmi | 203165 | 106783 (52,6%) | 96382 (47,4%) | 25855 | 12513 (48,4%) | 13342 (51,6%) |

*Təhsilin bakalavr dərəcəsində təhsil alanların arasında qadınlar (52,6%), magistr dərəcəsində isə kişilər (51,6%) üstünlük təşkil edir.*

**2023-cü ildə doktorantura hazırlığı** həyata keçirən 112 müəssisədən 83-ü üzrə doktorantura səviyyəsinə qəbul olunmuş şəxslər nazirliyin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sisteminin Ali və orta ixtisas təhsili sistemində (AOİTS) qeydiyyatdan keçmişdir.

| Elm sahələri | Fəlsəfə doktoru proqramı üzrə 2023-cü ildə qəbul olunanlar (AOİTS-ə əsasən) | | Elmlər doktoru proqramı üzrə 2023-cü ildə qəbul olunanlar (AOİTS-ə əsasən) | |
|---|---|---|---|---|
| | Cəmi | O cümlədən, qadınlar | Cəmi | O cümlədən, qadınlar |
| **83 müəssisə üzrə cəmi** | **655** | **336** | **105** | **61** |
| **O cümlədən, elmi sahələr üzrə** | | | | |
| Riyaziyyat | 19 | 7 | 3 | 1 |
| Mexanika | 2 | 2 | 0 | 0 |
| Astronomiya | 2 | 1 | 0 | 0 |
| Fizika | 14 | 9 | 11 | 7 |
| Kimya | 22 | 13 | 11 | 8 |
| Biologiya elmləri | 38 | 29 | 16 | 13 |
| Yer elmləri | 30 | 6 | 4 | 1 |
| Aqrar elmlər | 8 | 4 | 8 | 4 |
| Tibb elmləri | 38 | 27 | 1 | 1 |
| Əczaçılıq elmləri | 1 | 1 | 0 | 0 |
| Texnika elmləri | 134 | 31 | 14 | 9 |
| Antropologiya | 1 | 1 | 0 | 0 |
| İqtisad elmləri | 113 | 34 | 9 | 4 |
| Coğrafiya | 14 | 10 | 3 | 1 |
| Tarix | 12 | 9 | 2 | 1 |
| Hüquq elmləri | 23 | 14 | 4 | 1 |
| Filologiya elmləri | 61 | 57 | 4 | 4 |
| Pedaqogika | 37 | 33 | 6 | 3 |
| Siyasi elmlər | 25 | 10 | 0 | 0 |
| Psixologiya | 10 | 9 | 2 | 1 |
| Sənətşünaslıq | 14 | 10 | 1 | 1 |
| Sosiologiya | 12 | 9 | 0 | 0 |
| Memarlıq | 5 | 1 | 1 | 1 |
| Fəlsəfə | 3 | 3 | 0 | 0 |
| Milli təhlükəsizlik və hərbi elmlər | 17 | 6 | 5 | 0 |

*Cədvəldən görünür ki, **doktorantura hazırlığı** həyata keçirən 83 müəssisə üzrə doktorantura səviyyəsinə qəbul olunmuş şəxslərin 50%-dən çoxunu qadınlar təşkil etmişdir.*

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycanda ümumi orta təhsil icbaridir. Təhlillər göstərir ki, son illərdə icbari təhsilə cəlb olunmuş qızların ümumi orta təhsil pilləsini bitirməsində və onların dərsə davamiyyətində əsaslı problemlər mövcud deyil.

Təhsildən yayınan şagirdlərlə bağlı məktəbin psixoloqu və sinif rəhbərləri ailələrdə olur, müvafiq iş aparır, ailədaxili vəziyyət qiymətləndirilir və zərurət yarandıqda məsələyə baxılması üçün yerli icra strukturlarına müraciət olunur. Qızların təhsildən yayınma hallarının minimuma endirilməsi məqsədilə ümumi təhsil müəssisələrində ilboyu qabaqlayıcı tədbirlər (ailələrlə iş, sinif rəhbərlərinin fəaliyyətinin gücləndirilməsi, şagirdlərin keyfiyyətli təhsil almasına şəraitin yaradılması, şagirdlərin sinifdənxaric və məktəbdənkənar tədbirlərə cəlb edilməsi, şagirdlərin peşə seçimi işinin yerli şəraitə uyğun aparılması və s.) həyata keçirilmişdir.

Hər bir rayonda fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar bu işdə yerli təhsili idarəetmə orqanlarına yaxından köməklik göstərirlər. Bununla yanaşı, yerlərdə fəaliyyət göstərən peşə təhsili müəssisələri ilə qarşılıqlı əməkdaşlıq sayəsində ümumi orta təhsili bitirən şagirdlərdən bir qismi təhsilini həmin müəssisələrdə davam etdirirlər.

## 2.3 İnformasiya-kommunikasiya texnologiyaları sahəsində gender bərabərliyinin təmin edilməsi

İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) davamlı və dayanıqlı inkişafın təmin edilməsi, intellektual potensialının gücləndirilməsi, biznesin inkişafı, yoxsulluq və işsizliyin azaldılması üçün əlverişli vasitə olaraq qəbul edilir.

Beynəlxalq Telekommunikasiya İttifaqının məlumatına görə indiyə qədər dünyanın 160 ölkəsində təxminən 7000-dən çox bu sahədə tədbir təşkil edilib ki, bu tədbirlər də öz növbəsində 240 mindən çox qadın və gənc qızın hüquq və imkanlarının genişləndirilməsinə xidmət etmişdir.

Avropa İttifaqının Rəqəmli Gündəliyinin məlumatına görə dünyada informasiya-kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən təxminən 10 milyona yaxın insanın yalnız 30 faizini qadınlar təşkil edir. Onlar İKT sektorunun bütün istiqamətlərində, xüsusilə rəhbər vəzifələrdə çox az təmsil olunurlar. Halbuki İKT sektoru hər il təxminən 120 min yeni iş yeri yaradaraq sürətlə, artan dinamika ilə inkişaf edir.

Dövlətimiz tərəfindən həyata keçirilən innovasiya siyasəti nəticəsində yeni bilik və texnologiyaların istehsalı, yayılması və tətbiq edilməsi üçün lazım olan bütün şərait yaradılır. Hazırda həyatın bütün sahələrinin inkişafında intellekt, xüsusi ilə süni intellektə, informasiya və kommunikasiya texnologiyalarina ciddi ehtiyac var.

2011-ci ildən başlayaraq Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən təsis olunan, hər il aprel ayının dördüncü həftəsinin dördüncü günü bir çox ölkələrdə olduğu kimi ənənəvi olaraq Azərbaycanda da “İKT-də Qızlar Günü” kimi qeyd olunur. “İKT-də Qızlar” Gününün keçirilməsi qızları informasiya-kommunikasiya texnologiyaları sahəsinə cəlb etmək, onların bu sektorda fəaliyyətini stimullaşdırmaq məqsədi daşıyır.

**Nəqliyyat və İKT sahəsində statistik göstəricilər barədə məlumat**

| | Kişi | Qadın |
|---|---|---|
| **İnternet istifadəçiləri** | **89,4%** | **86.8%** |
| **Kompüter istifadəçiləri** | **81,6%** | **81.2%** |
| **Mobil telefon istifadəçisi** | **83%** | **79.4%** |

**İnformasiya və rabitə sahəsində çalışan şəxslərin gender bölgüsü**




2021-ci illə müqayisədə 2022-ci ildə **informasiya və rabitə sahəsində çalışan qadınların sayı 608 nəfər artaraq 9591 nəfər, kişilərin sayı 992 nəfər artaraq 22309 nəfər təşkil etmişdir.**

2022-ci ildə **nəqliyyat sahəsində çalışan** qadınların sayı 12124 nəfər, kişilərin sayı isə 61376 nəfər olmuşdur.

11 Oktyabr – Beynəlxalq Qızlar Günü ərəfəsində Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) maliyyə dəstəyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) və Elektron Təhlükəsizlik Xidmətinin (ETX) birgə təşkilatçılığı ilə 13-18 yaşında 100-ə yaxın qızın iştirakı ilə "Cyber4Girls" təlimi keçirilmişdir. Təlimin keçirilməsində məqsəd qızların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsi olmuşdur. Sözügedən təlimdə iştirakçılara kibertəhlükəsizlik və kibergigiyena, fərdi məlumatlar, onların təhlükəsizliyi, antivirus proqramları, zərərli kontent, sosial mühəndislik, fişinq hücumları, kiberbullinq barədə geniş məlumatlar təqdim edilmişdir.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təşəbbüsü ilə 2023-cü təqvim ili üzrə ölkədəki innovasiya ekosisteminin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən inkubasiya və akselerasiya yönümlü innovasiya proqramlarında müxtəlifliyin və inkluzivliyin təmini məqsədi ilə gender bərabərliyi mövzusunda təşviqedici işlər görülmüş nəticədə həyata keçirilmiş 10-dan çox innovasiya proqramı üzrə ümumilikdə 662 şəxs proqramlarda iştirak etmişdir. Bunlardan 205 şəxs qadın startapçılar, geri qalan 457 şəxs isə kişi startapçılardan təşkil olunmuşdur.

"Azərkosmos" publik hüquqi şəxs və Kosmik Nəsil Məşvərət Şurasının təşkilat-

çılığı, ADA Universitetinin dəstəyi ilə Azərbaycanda ilk dəfə “Space Generation Azerbaijan (SG Azerbaijan)” tədbiri keçirilib. Tədbir “Qadınlar kosmosda: çətinliklər və imkanlar” mövzusuna həsr olunub və dünyada hər il aprelin sonuncu həftəsinin dördüncü günü “İKT-də Qızlar” Günü çərçivəsində təşkil edilib. Tədbirdə, həmçinin iştirakçılar “James Webb” kosmik teleskopunun hazırlanmasına həsr olunmuş master-klassda yeni üsullar öyrəniblər. Daha sonra iştirakçılar ABŞ-ın aerokosmik şirkəti olan “Axiom Space”in alimi Lusi Lou tərəfindən kosmik stansiyaların yaranması və kommersiyalaşması haqqında və Kosmik Nəsil Məşvərət Şurasının gender bərabərliyi mövzusuna dair vebinarlara qoşulublar.

21 aprel – Beynəlxalq “İKT-də Qızlar” Günü münasibətilə tədbir keçirilib. Məqsəd qızların İKT sektoruna cəlb edilməsi, onların bu sahədə peşə seçiminə həvəsləndirilməsi olub. “Azərkosmos” phş-nin Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzində şəhid övladlarının iştirakı ilə təşkil olunmuş tədbirdə Beynəlxalq “İKT-də Qızlar” Gününün tarixi, məqsədi, eləcə də İKT-nin qısa tarixçəsi və müasir dünyada rolu haqqında ətraflı məlumat verilib. Qızlar üçün interaktiv şəkildə iki hissədən ibarət infosessiya keçirilib. İştirakçılar kosmos, astrofizika, peyklər, ilk kompüterlər və STEM barədə müzakirələrə qoşulublar. Onlar texnologiya, kosmos sahəsində uğur qazanmış qadınlar haqqında da informasiya əldə ediblər.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşəbbüsü, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təşkilatçılığı ilə mayın 4-də beynəlxalq “İKT-də Qızlar” Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə 30 şəhid övladı üçün “İKT-də Qızlar” Gününün tarixi, məqsədi, eləcə də İKT-nin qısa tarixçəsi və müasir dünyada rolu haqqında ətraflı məlumat verilib və master-klass təşkil edilib.

AQUPDK tərəfindən 2023-cü il tarixində Zəngilan rayonunun Ağalı kəndində “Qadınların rəqəmsal bacarıqlarının artırılması” mövzusunda təlim keçirilmişdir. Təlimin keçirilməsində məqsəd işğaldan azad edilmiş rayonlara köç edən qadın və qızların innovasiya və texnologiyalardan istifadə bacarıqlarının inkişaf etdirilməsi, onların bu sahəyə aktiv şəkildə cəb edilməsidir.



## 2.4. İqtisadi və sosial münasibətlərdə gender bərabərliyinin təminatları

Qanunun 15-ci maddəsi kişi və qadınların mülkiyyət hüququnun həyata keçirilməsinə və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün bərabər imkanların yaradılmasına, onların sosial təminat hüququnun həyata keçirilməsində, ünvanlı dövlət sosial yardımı və digər sosial güzəştlərin alınmasında bərabər imkanların yaradılmasına təminat verir.

### 2.4.1 Qadın sahibkarlığının dəstəklənməsi

Qadınlar arasında sahibkarlıq və özünüməşğulluq fəaliyyətinin stimullaşdırılması, bu sahədə bilik və bacarıqların artırılması, cəlb olunan qadınların əhatə dairəsinin genişləndirilməsi məqsədilə 2023-cü ildə ölkədə çox sayda layihələr, tədbirlər həyata keçirilmişdir.

Qadın sahibkarlığının inkişafı əhali arasında yoxulluğun azaldılmasına, ailələrin rifah halının yüksəldilməsinə təsir göstərir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən** 2023-cü il üzrə özünüməşğulluq proqramı çərçivəsində işsiz şəxslərin kiçik sahibkarlıq fəaliyyətinin formalaşdırmalarına dəstək istiqamətində də işlər görülmüşdür.

**2023-cü ildə ölkə üzrə 17362 nəfər özünüməşğulluq proqramına cəlb olunmuş, onlardan 5610 nəfərini qadınlar, 11752 nəfərini kişilər təşkil etmişdir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən işaxtaran və işsiz şəxslərin bilik və bacarıqlarının artırılması, onların əmək bazarının tələblərinə uyğunlaşdırılması və bununla da onların sosial müdafiəsinin gücləndirilməsi və işlə təmin olunma imkanlarının genişləndirilməsi məqsədi ilə əmək bazarında işəgötürənlərin real tələbləri nəzərə alınmaqla, hər il mütəmadi olaraq peşə hazırlığı kursları təşkil edilir.

**Bununla əlaqədar olaraq, 2023-cü il ərzində 9518 nəfər peşə hazırlığı kurslarına cəlb olunmuşdur ki, onlardan da 5286 nəfərini qadınlar, 4232 nəfərini kişilər təşkil etmişdir.**

Qadınların sosial müdafiəsini gücləndirmək, əmək bazarına çıxışını asanlaşdırmaq məqsədi ilə qeyd olunan dövr ərzində Agentlik tərəfindən “aşpaz”, “bərbər-vizajist-manikürçü”, “qənnadçı, şirniyyatçı”, “dərzi”, ‘’dayə’’, “tikiş avadanlıqlarının operatoru, tikişçi”, ‘’İT mütəxəssis-Proqram Təminatçısı və İnkişafçısı’’, ‘’Xarici dil’’ (Alman dili peşələri üzrə hazırlıq kursları təşkil olunmuşdur.

Qadınların məşğulluq imkanlarının genişləndirilməsi və əmək bazarında gender bərabərliyinin təmin olunması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində **Dövlət Məşğulluq Agentliyi tərəfindən** 2023-cü il ərzində bir sıra layihələr həyata keçirilmişdir.

İşsiz kimi qeydiyyata alınan aztəminatlı, əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, qazilər, məcburi köçkünlər, ünvanlı dövlət sosial yardımı alanlar və həssas qruplardan olan digər şəxslərin məşğulluğunun təmin edilməsi məqsədilə həyata keçirilən **aşağıdakı layihələr çərçivəsində** 2023-cü il ərzində 179 işsiz qadın aktivlərlə təmin olunmuşdur.

- *Azərbaycan Banklar Assosiyası ilə birgə "Özünüməşğulluğa dəstək-2023" və Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası ilə birgə həssas qrupların özünüməşğulluğuna dəstək layihəsi;*
- *Barista təcrübəsi olan işsiz və işaxtaranların tələb olunan sahə üzrə özünüməşğulluqlarının təmin edilməsi və vətəndaşların rəqabətədavamlılığının artırılması ilə yanaşı vətəndaşların potensialının reallaşdırılması məqsədilə icra edilən "Səyyar Kofe Evləri" layihəsi;*
- *Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək verilməsi, daxili bazar tələblərinin qarşılanması üçün yüksək keyfiyyətli məhsulların istehsalının təşviq edilməsi, qurulacaq mikro sahibkarlıq subyektlərinin potensialına daimi dəstək olmaq və məhsulların daha geniş məkanda təbliğinin təmin edilməsi məqsədilə həyata keçirilən "Potensial ABAD-çılara dəstək" layihəsi;*
- *Şəhid ailələri və onların üzvləri, müharibə iştirakçıları və ailə üzvlərinin məşğulluğunu təmin edən "Qarabağ KOB-ları" layihəsi;*
- *Həssas qruplardan olan işsiz və işaxtaran şəxslərin potensialının artırılması və onların əmək bazarında məhsuldar məşğulluğa cəlb edilməsi üçün imkanların yaradılması istiqamətində icra edilən "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi;*
- *Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı, işsiz şəxslərin məşğulluğunun təmin edilməsi məqsədilə "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" və işsiz şəxslər üçün gəlir gətirən yeni özünüməşğulluq sahələri üzrə kiçik bizneslərin yaradılmasına dəstək məqsədilə icra edilmiş "Kəndlərdə heyvandarlıq sahəsində ailə biznesinin və özünüməşğulluğun inkişafı" layihəsi;*

Gender bərabərliyinə nail olunması məqsədilə kişilərin üstünlük təşkil etdiyi müəssisələrə qadınların cəlb edilməsinin təşviq edilməsi məqsədi ilə Əmək və Məşğulluq altsistemi (ƏMAS) üzərindən müqayisəli olaraq daha az qadınların işə cəlb olunduğu müəssisələrin müəyyən edilməsi (iqtisadi fəaliyyət növləri üzrə) məqsədilə təhlillər aparılaraq seçilmiş işəgötürənlərin (700-dən çox) və sosial tərəfdaşların nümayəndələrin iştirakı ilə Azərbaycanın 14 iqtisadi rayonlarında "Əmək münasibətlərində gender bərabərliyi - bərabər hüquqlar bərabər imkanlar" kampaniyası çərçivəsində silsilə tədbirlər keçirilmişdir. Eyni zamanda, sözügedən mövzuları əhatə edən maarifləndirici kitabça hazırlanmış və iştirakçılara paylanılmışdır.

**"İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsi** qadınların, xüsusi ilə kənd yerlərində ("Qala" Dövlət tarix-etnoqrafiya qoruğu) yaşayan qadınların iqtisadi fəallıq səviyyəsinin yüksəldilməsinə, xüsusi ilə onların peşə-ixtisas hazırlığının artırılmasına dair "Qurama" sənəti üzrə dərnəklər təşkil edilmişdir.

Qadınların rəqabətliyinin artırılması məqsədilə əmək bazarında prioritet istiqamətlər üzrə hazırlığının təşkili üzrə İçərişəhər Ənənəvi İncəsənət Mərkəzində "batika", "taxta işi", "zərgərlik", "keramika" üzrə dərnəklərin təşkili və memarlar üçün "Məktəb" layihəsini həyata keçirmişdir.

**Qida Təhlükəsizliyi Agentliyindən** verilən məlumata əsasən, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 24.11-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisində qida və yem məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi və utilizasiyasını yerinə yetirən qida obyektləri və ya qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektləri, həmçinin qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin, habelə siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən heyvan və bitki mənşəli qida məhsullarının və yem məhsullarının istehsalı, emalı, dövriyyəsi və utilizasiyası ilə məşğul olan qida obyektlərinin qeydiyyata alınmadan və təsdiq olunmadan qida sahəsində fəaliyyət göstərməsi qadağandır.

Məlumat üçün qeyd edirik ki, **2023-cü ildə respublika üzrə qeydiyyata alınmış 7219 subyektdən 1141-i qadın, 6078 kişi sahibkarlara məxsus olmuşdur.**

**2023-cü ildə də Kənd Təsərrüfatı Nazirliyi tərəfindən** qadın sahibkarların və kənd yerlərində aqrobizneslə məşğul olan fermer qadınların iqtisadi resurslara çıxış imkanlarının təmin edilməsi istiqamətində fəaliyyətlər davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydaları"na əsasən Nazirlik tərəfindən 2023-cü il ərzində 178 qadın fermerə 325 ədəd kənd təsərrüfatı texnikasının alışının, 20 qadın fermerə 243 baş damazlıq heyvanın alışının maliyyələşdirilməsi məqsədilə güzəştli vəsait ayrılmışdır.

**Maliyyələşdirilməsi üçün müraciət etmiş fermerlərin sayı *(nəfər)*.**







Eyni zamanda Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə aqrar sahədə çalışan qadın fermerlərə 133 müraciət üzrə 1.54 milyon manat məbləğində güzəştli kredit (o cümlədən 131 müraciət üzrə 1.49 milyon manat məbləğində mikrokredit) verilmişdir.

Aqrar sektor üzrə kredit və güzəşt verilmiş fermerlər barədə məlumat.

| Güzəştli kreditin növü | Cins | Müraciət sayı *(nəfər)* | Məbləğ *(min manat)* |
|---|---|---|---|
| **Mikrokredit (12%)** | *Kişi* | *2067* | *23599.7* |
| | *Qadın* | *131* | *1486.2* |
| **Aşağı faizli güzəştli kredit (7%)** | *Kişi* | *9* | *987* |
| | *Qadın* | *2* | *58* |

### *Kənd təsərrüfatı subyektləri olan qadınlar və kişilər barədə məlumatların təhlili*

2020-ci ilin 1 yanvar tarixindən etibarən aqrar sahədə subsidiyaların verilməsi “Elektron kənd təsərrüfatı” informasiya sistemi (EKTİS) vasitəsilə həyata keçirilir.

2023-cü il 31 dekabr tarixinədək EKTİS-də qeydiyyatdan keçmiş subyektlərinin ümumi sayı 780641 nəfər olmuşdur ki, onlardan da 201774 nəfəri qadındır.

Həmçinin EKTİS-də qeydiyyatdan keçmiş torpaq mülkiyyətçilərinin 434644 nəfəri kişi, 163241 nəfəri isə qadın fermerlərdir.

Azərbaycan Respublikası Prezidentinin “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”na əsasən subsidiyaların EKTİS vasitəsilə verilməsi Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təmin edilmişdir. Belə ki, fermerlər hər il müvafiq məlumatları sistemə daxil edərək, avtomatlaşdırılmış qaydada formalaşan elektron bəyannaməni təsdiq edir və subsidiya almaq üçün müraciət edirlər.

2023-cü ildə subsidiya almaq üçün müraciət edən fermerlərin statistikası isə aşağıdakı kimidir.

Müvafiq bəyanlar etmiş fermerlərin sayı *(nəfər)*.



2023-cü il ərzində 296464 sayda kişi və 90134 sayda qadın fermer "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil etdikləri məlumatlara əsasən subsidiya almışlar, habelə 269395 sayda kişi fermer və 86498 sayda qadın fermer əkin, 44441 sayda kişi fermer və 5083 sayda qadın fermer buzov, 3051 sayda kişi fermer və 410 sayda qadın fermer barama, 2 sayda kişi fermer və 1 sayda qadın fermer ərzaqlıq buğda, 169 sayda kişi fermer və 31 sayda qadın fermer quru tütün, 14441 sayda kişi fermer və 1217 sayda qadın fermer pambıq, 90 sayda kişi fermer və 6 sayda qadın fermer şəkər çuğunduru, 150 sayda kişi fermer və 17 sayda qadın fermer yaş tütün subsidiyası almışdırlar.

***Kənd Təsərrüfatı Nazirliyi qadınların, xüsusilə kənd yerlərində yaşayan qadınların iqtisadi fəallıq səviyyəsinin yüksəldilməsinə, xüsusilə onların peşə-ixtisas hazırlığının artırılmasına, kişilərlə bərabər iqtisadi hüquqlarının həyata keçirilməsinə hərtərəfli dəstəyin göstərilməsi və qadınlar arasında sahibkarlığın inkişafı istiqamətində bir sıra layihələr həyata keçirmişdir.***

## *"AFAQ – Aqrar Fəaliyyətli Azərbaycan Qadınları" layihəsi*

AFAQ layihəsi kənd təsərrüfatı fəaliyyətli qadınların sahibkar kimi formalaşmasında, öz təsərrüfatlarında gəlirliliyin və məhsuldarlığın artırılmasına dəstək məqsədilə "PAŞA Holdinq" MMC-nin maliyyə dəstəyi ilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan "Aqrar tədarük və təchizat" ASC tərəfindən həyata keçirilən layihədir. "AFAQ" layihəsi kənd təsərrüfatı fəaliyyətli qadınların sahibkar kimi formalaşmasında, öz təsərrüfatlarında gəlirliliyin və məhsuldarlığın artırılmasına dəstək məqsədilə icra edilən layihədir.

"AFAQ" layihəsi çərçivəsində ilkin mərhələdə fərdi təsərrüfatlara və kiçik ailə təsərrüfatlarına təlim və avadanlıq formasında dəstəklər göstərilmişdir. Lakin layihənin hazırkı dövründə əsas istiqamət kənd təsərrüfatının dayanıqlı inkişafına təkan vermək məqsədilə birgə fəaliyyət göstərən qadın qruplarına və kənd təsərrüfatı kooperativlərinə (mahiyyət etibarilə daha gəlir gətirən olması, kollektiv idarəçilik, vəsaitlərin səmərəli xərclənməsi, istehsal edilməsinə çəkilən xərclərin azaldılması, yoxsulluğun və işsizliyin aradan qaldırılması, rəqabətliliyin və bazarların artması və kredit resurslarının daha əlçatan olması məqsədilə) dəstəklərin göstərilməsidir.

Layihə dövrü ərzində 286 təsərrüfatın qiymətləndirilməsi həyata keçirilmiş və 20 region üzrə 170 təsərrüfata dəstək göstərilmişdir. 2020-2023-cü illər ərzində layihə çərçivəsində ümumilikdə 189 qadın fermerə dəstək göstərilmişdir.

2023-cü il ərzində Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarından olan 200-ə yaxın qadın fermerə AFAQ layihəsi, layihəyə qoşulma proseduru, layihənin mərhələləri və imkanları barədə ətraflı məlumat verilmişdir.

2023-cü il ərzində Göygöl rayonunda 9 qadın fermerə heyvandarlıq, quşçuluq və arıçılıq təsərrüfatları üzrə uyğun avadanlıqlarla dəstək göstərilmişdir. Eyni zamanda



Füzuli rayonunda 16 qadının birgə fəaliyyət göstərdiyi "Şamama" qadın qrupuna layihə çərçivəsində 1600 toyuq, 16 ton qida əlavəsi, 16 ədəd havalandırma avadanlığı və 1 ədəd toyuq yolan avadanlıq ilə dəstək göstərilmiş, bununla yanaşı "quşçuluq" və "biznesin idarə edilməsi" üzrə təlimlər keçirilmişdir.

Ağdam rayonunda isə 12 nəfər qadın fermerə dəstək göstərilmişdir. Fermerlər əvvəlcədən aparılan qiymətləndirmə sorğularına əsasən təsərrüfatlarının ehtiyacları üzrə kənd təsərrüfatı avadanlıqları (12 ədəd havalandırma sistemi, 4 ədəd südsağan aparat, 12 ədəd otdoğrayan aparat, 22 ədəd heyvanlar üçün xüsusi döşəklər) ilə təmin olunmuş və fermerlərə "Yeni doğulmuş buzovlara qulluq və südlük heyvanların yemləndirilməsi" təlimi keçirilmişdir.

Eyni zamanda Ağcabədi rayonunda 19 qadın fermerə, Bərdə rayonunda 11 qadın fermərə, Beyləqan rayonunda 66 qadın fermərə "Südlük heyvanların yemləndirilməsi" üzrə təlim keçirilmişdir. Layihə çərçivəsində "Xarici cins südlük inəklərin bəslənilməsi" üzrə pilot rayonlar olaraq İsmayıllı və Ağdam seçilmişdir. İsmayıllı rayonunda keçirilən təlimdə 20 qadın fermer iştirak etmişdir. Ağdam rayonu üzrə isə 100-ə yaxın qadın fermer bu təlimlərdə iştirak etmişdir.

Layihə çərçivəsində Zaqatala rayonunda arıçılıqla bağlı baş tutan təlimdə Qax, Zaqatala və Balakən rayonları üzrə ümumilikdə 70 qadın fermer iştirak etmişdir.

**Ümumilikdə, 2023-cü il ərzində Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, İsmayıllı və Zaqatala rayonlarında 294 qadın fermerə quşçuluq, heyvandarlıq, arıçılıq və biznes istiqamətləri üzrə təlimlər keçirilmişdir.**

Yekun olaraq, 2023-cü il ərzində ümumilikdə 7 region üzrə (İmişli, Sabirabad, Masallı, Goranboy, Ağdam, Şamaxı və İsmayıllı) 61 təsərrüfatın monitorinqi həyata keçirilmişdir.

### *"Şəhərdən Kəndə" layihəsi*

"Şəhərdən Kəndə" layihəsi "PAŞA Holdinq" MMC-nin maliyyə dəstəyi ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tabeliyində olan "Aqrar tədarük və təchizat" ASC tərəfindən həyata keçirilən layihədir. Layihənin əsas məqsədi Azərbaycanda aqroturizmin inkişaf etdirilməsi, təsərrüfat sahibləri üçün əlavə gəlir imkanlarının və şəhər əhalisi üçün fərqli istirahət imkanlarının yaradılmasıdır.

2023-cü il ərzində layihə çərçivəsində 41 qadın fermer təsərrüfat sahiblərinin aqroturizm haqqında biliklərinin artırılması məqsədilə təşkil olunan "Ailə təsərrüfatlarında aqroturizm fəaliyyətlərinin praktik təşkili" və "Aqroturizmin əsasları" mövzuları üzrə təlimlərdə iştirak etmişdir.

"Aqrar tədarük və təchizat" ASC tərəfindən həyata keçirilən "Şəhərdən Kəndə" və "AFAQ" layihələri "PAŞA Holdinq" MMC-nin dəstəyi və Nərgiz fondunun təşkilatçılığı ilə keçirilən "YayLand Fest" xeyriyyə yarmarkasında iştirak etmişdir. Belə ki, 15 nəfər qadın fermerin birgə fəaliyyət göstərdiyi "Çinar" kooperativi və 14 nəfər qadın fermerdən ibarət "Bənövşə" qadın qrupu, həmçinin 3 nəfər qadın fermerin iştirak etdiyi "YayLand Fest" xeyriyyə yarmarkasında fermerlər öz istehsal etdikləri təbii və orqanik məhsulları (kompot, mürəbbə, turşu, arıçılıq məhsulları, quru meyvələr və s.) stenddə sərgiləmiş, məhsulların dequstasiyası və satışı həyata keçirilmişdir. Həmçinin stenddə aqroturizm təsərrüfatlarının təqdimatı da keçirilmişdir. Regionlardan dəvət olunan fermerlər ziyarətçilərə öz təsərrüfatları barədə geniş məlumat vermişdilər.

## *“Kənd yaşayış şəraitinin yaxşılaşdırılması üçün məşğulluq imkanlarının araşdırılması” layihəsi*

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Texniki Əməkdaşlıq Proqramı çərçivəsində FAO-Azərbaycan ofisinin texniki və maliyyə dəstəyi ilə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin birgə əməkdaşlığı ilə icrası 2023-2024-cü illəri əhatə edən “Kənd yaşayış şəraitinin yaxşılaşdırılması üçün məşğulluq imkanlarının araşdırılması” layihəsi 2023-cü ilin 1 iyun tarixində fəaliyyətə başlamışdır. Ümumi büdcəsi 58000 ABŞ dolları təşkil edən layihənin əsas məqsədi kənd yerlərində, xüsusilə gənclər, qadınlar və həssas qruplar arasında məşğulluq ehtimalı yüksək olanları müəyyən etmək üçün potensial kənd-ərzaq dəyər zəncirlərinin hərtərəfli təhlilinin aparılması və onların müvafiq sahədə məşğulluq imkanlarının artırılmasıdır.

Layihə çərçivəsində gənclər, qadınlar və əlilliyi olan şəxslər üçün aqro-ərzaq dəyər zəncirinin müəyyən edilməsi məqsədilə hesabatın hazırlanması üçün müvafiq məlumatlar toplanmış, habelə yerli və beynəlxalq ekspertlərin iştirakı ilə dəyər zənciri üzrə “Ölkə analiz sənədi” hazırlanmışdır. Eyni zamanda layihə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün kənd əhalisinin yaşayış şəraitinin yaxşılaşdırılmasında, gender bərabərliyinin təmin olunmasında, yoxsulluğun azaldılmasında, layiqli əmək və iqtisadi artımın əldə olunmasında müsbət töhfələr verəcəkdir.

Qloballaşma dövründə insanların ekoloji təmiz və keyfiyyətli qida məhsullarına tələbatı durmadan artır. Belə bir şəraitdə kənd təsərrüfatı məhsulları istehsal edən mütəxəssislərin hazırlanması da yüksək dəqiqlik və fundamental tədris metodikası tələb edir. Müasir dövrdə aqrar sektor üzrə mütəxəssis hazırlığının təşkili Kənd Təsərrüfatı Nazirliyinin əsas hədəflərindəndir. Bu məqsədlə həyata keçirilən tədbirlərin nəticəsi olaraq, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan elmi tədqiqat institutlarında və Azərbaycan Dövlət Aqrar Universitetində təhsil alanların sayında hər il artım dinamikası müşahidə olunmaqdadır. Belə ki, aqrar sektorda fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə təhsil alanlar arasında qadınların sayının da artması xüsusi qeyd edilməlidir.





**Aqrar sektor üzrə təhsil alanların sayı *(nəfər)*.**

| №-si | Müəssisənin adı | Təhsilalanların ümumi sayı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | | |
| | | Doktorantura | | Dissertantura | | Doktorantura | | Dissertantura | |
| | | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi |
| 1 | Baytarlıq Elmi-Tədqiqat İnstitutu | | | 2 | | 2 | 2 | 1 | 3 |
| 2 | Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu | 1 | | | | | | | |
| 3 | Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu | 1 | | 1 | | | | | |
| 4 | Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu | | 1 | | | 1 | 2 | 2 | 3 |
| 5 | Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu | 1 | 1 | | | | | | |
| 6 | Əkinçilik Elmi-Tədqiqat İnstitutu | 4 | 1 | | | 2 | | | |
| 7 | "Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsi | 2 | | | | 1 | 1 | | |
| 8 | Azərbaycan Dövlət Aqrar Universiteti | 13 | 18 | 6 | 2 | 6 | 3 | 4 | 5 |
| 9 | "Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsi | 1 | 8 | 1 | 2 | 2 | 4 | | |
| **Cəmi** | | **23** | **29** | **10** | **4** | **14** | **12** | **7** | **11** |

*Eyni zamanda Azərbaycan Dövlət Aqrar Universitetində 2023-cü ilə olan statistikaya əsasən bakalavr pilləsi üzrə əyani bölmədə təhsil alan kişilərin sayı 3674 nəfər, qadınların sayı 1164, qiyabi bölmədə isə kişilərin sayı 457 nəfər, qadınların sayı isə 414 nəfər olmuşdur.*

*Magistr pilləsi üzrə isə təhsil alanların 357 nəfəri qadın, 530 nəfəri isə kişilərdir. Azərbaycan Dövlət Aqrar Universitetinə 2023-cü il ərzində kənd təsərrüfatı ixtisasları üzrə qəbul olanlarda artım müşahidə edilmişdir.*

**2023-cü ildə Azərbaycan Dövlət Aqrar Universitetinə qəbul olan tələbələr haqqında məlumat (nəfər).**

| Sahə | Əyani | | | | Qiyabi | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Kişi | Qadın | Qadınların xüsusi çəkisi (faizlə) | Cəmi | Kişi | Qadın | Qadınların xüsusi çəkisi (faizlə) |
| Kənd təsərrüfatı ixtisasları üzrə | **882** | 654 | 228 | 26 | **48** | 19 | 29 | 60 |
| Qeyri-aqrar ixtisaslar üzrə | **581** | 368 | 213 | 37 | **54** | 15 | 39 | 72 |
| Universitet üzrə cəmi | **1463** | **1022** | **441** | **30** | **102** | **34** | **68** | **67** |

2022-2023-cü ildə Baytarlıq təbabəti ixtisası üzrə 88 nəfər məzun olmuşdur ki, onlardan 36 nəfəri qadın, Zoomühəndislik ixtisası üzrə 64 nəfər məzundan isə 9 nəfəri qadınlar olmuşdur.

2023-cü il ərzində Kənd Təsərrüfatı Nazirliyi üzrə ümumilikdə 6007 nəfər əməkdaşa təlim keçirilmişdir. Təlim iştirakçılarının 1695 nəfəri qadın, 4312 nəfəri isə kişi olmuşdur.

Eyni zamanda hesabat ilində də fermerlərə təlimlərin keçilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir. **Belə ki, 2023-cü ildə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzi tərəfindən 632 təlim keçirilmiş və 7499 nəfər fermer təlimlərə cəlb olunmuşdur.** Bitkiçilik, heyvandarlıq, kənd təsərrüfatı texnikalarının istifadə (təhlükəsizlik) qaydaları, qabaqcıl aqrar təcrübələr, fermerlərin ilkin maliyyə savadlılığının artırılması və maliyyə uçotunun təşkili mövzuları üzrə keçirilmiş **təlimlərdə iştirak edən fermerlərin təxminən 13,5%-ni, yəni 1015 nəfərini qadınlar təşkil etmişdir.**

Bundan başqa hesabat ilində Kənd Təsərrüfatı Nazirliyi tərəfindən qadın fermerlərin bilik və bacarıqlarının artırılması məqsədilə müəyyən işlər görülmüşdür. Belə ki, 2023-cü ilin 23-27 yanvar tarixlərində yeni təsis olunmuş qadın kooperativlərinə “Qadın kooperativlərinin idarə edilməsi” mövzusunda Türkiyəli ekspert Mehmet Kuzu tərəfindən təlimlərin keçirilməsinə təşkilati dəstək göstərilmiş, 2023-cü il 29 iyul tarixində regionlarda kənd təsərrüfatı ilə məşğul olan qadınların inkişaf meyillərini dəstəkləmək, qadınları yeni təsərrüfat sahələri ilə tanış etmək və ucqar kəndlərdə yaşayan qadınların rifahını yaxşılaşdırmaq istiqamətində yeni bir təşəbbüsü dəstəkləyən sosial əməkdaşlıq üzrə Azərbaycan Kənd Qadınları Assosiasiyasının və Türkiyənin “Kozberi” şirkətinin nümayəndələri ilə birlikdə görüş keçirilmişdir. Həmçinin 2023-cü il 22-25 mart tarixində İFAD Layihəsi çərçivəsində Özbəkistan Respublikasında fəaliyyət göstərən Beynəlxalq İş Qadınları Assosiasiyasının əməkdaşları Ağdam, Bərdə, Qax, Zaqatala və Balakən rayonlarında Azərbaycan Kənd Qadınları Assosiasiyasının yaratdığı Qadın İnkişaf və Müəssisə Qruplarının aqrar fəaliyyəti ilə yerində tanış olmaq üçün ölkəmizə səfər etmişlər.

Bununla yanaşı, əsas vəzifələri fermerlərin mövcud problemlərini öyrənmək, problemlərin aradan qaldırılmasına kömək etmək, ictimai nəzarəti həyata keçirmək, subsidiyaların verilməsində şəffaflığı təmin etmək, fermerlər arasında rəy sorğuları keçirmək, aqrar sahənin inkişafına dair təkliflər verməkdən ibarət olan və kənd təsərrüfatı sektorunun qabaqcıl nümayəndələri, fermerlər, fermer assosiasiyalarının üzvlərindən təşkil olunan dövlət aqrar inkişaf mərkəzlərinin yanında fermer və koordinasiya şuralarının tərkibində üzv olaraq 24 nəfər qadın fermer fəaliyyət göstərir.

2023-cü ildə kənd təsərrüfatında istehsal resurslarından səmərəli istifadə, çevik idarəetmə və inklüziv inkişafın təmin edilməsi baxımından mühüm rol oynayan kənd təsərrüfatı kooperativlərinin, assosiasiyalarının və birliklərinin yaradılması istiqamətində də işlər davam etdirilmiş və 7 yeni qadın kooperativi yaradılmışdır .

**Aqrar sektor üzrə yeni yaradılan qadın kooperativləri barədə məlumat.**

| Kooperativin adı | Kooperativin yerləşdiyi ünvan | Ailələrin sayı | Kooperativdə birləşən torpaq sahəsi (ha) | Yaranma tarixləri |
|---|---|---|---|---|
| **“Lalələr” İstehsal-İstehlak Qadın kooperativi** | Balakən rayonu, Püştətala kəndi | 5 | 15.83 | 01.01.2023 |
| **“Fatimə” İstehsal-İstehlak Qadın kooperativi** | Bərdə rayonu, Göyüşlü kəndi | 8 | 38 | 15.02.2023 |
| **“Zərqanad” arıçılıq məhsulları istehsalı Qadın kooperativi** | Qax rayonu, Turaclı kəndi | 8 | 10 | 16.02.2023 |
| **“Bənövşə” İstehsal-İstehlak Qadın kooperativi** | Zaqatala rayonu, Yengiyan kəndi | 10 | 41 | 02.03.2023 |
| **“Şəfəq” İstehsal Qadın kooperativi** | Ağdam rayonu, Zəngişalı kəndi | 18 | 27 | 13.03.2023 |
| **“Sünbül” İstehsal-İstehlak Qadın kooperativi** | Qax rayonu, Tasmalı kəndi | 8 | 10 | 13.03.2023 |
| **“Elat” İstehsal-İstehlak Qadın kooperativi** | Beyləqan rayonu, Aşıqlı kəndi | 20 | 85 | 15.03.2023 |

Hesabat ilində işğaldan azad olunmuş rayonların təhlükəsiz zonalarına təsərrüfatların köçürülməsi həyata keçirilmişdir. İşğaldan azad olunmuş ərazilərə köçürüləcək təsərrüfatların təhlükəsizliyinin təmin edilməsi, köçün vaxtı, istifadəyə və icarəyə veriləcək örüş, otlaq və biçənək sahələrinin dislokasiyası barədə ictimaiyyətə əvvəlcədən məlumat verilmiş və maarifləndirmə işləri həyata keçirilmişdir.

Eyni zamanda Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarına köçürülmüş təsərrüfat sahibləri üzrə də gender təhlili aparılmışdır.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarına dair köçlə bağlı statistik məlumatlar.

| Rayon | Fermer sayı (nəfər) | Köməkçilərin sayı (nəfər) | Onlardan | | Cəmi (nəfər) |
|---|---|---|---|---|---|
| | | | qadın sayı (nəfər) | kişi sayı (nəfər) | |
| Laçın | 1237 | 6132 | 1446 | 5923 | 7369 |
| Kəlbəcər | 2351 | 15809 | 4895 | 13265 | 18160 |
| Qubadlı | 55 | 258 | 24 | 289 | 313 |
| Füzuli | 19 | 81 | 11 | 89 | 100 |
| Xocavənd | 10 | 38 | 5 | 43 | 48 |
| Cəbrayıl | 18 | 65 | 4 | 79 | 83 |
| Zəngilan | 8 | 43 | 8 | 43 | 51 |
| **Cəmi** | **3698** | **22426** | **6393** | **19731** | **26124** |

Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən müvafiq şirkətlər üzrə 257 işçi çalışır ki, bu işçilərin də 242 nəfəri kişi, 15 nəfəri isə qadındır.

**Sahibkarlığın İnkişafı Fondu** (SİF) tərəfindən 2022-ci il ərzində ümumilikdə 2726 investisiya layihəsinin maliyyələşdirilməsinə 145.9 milyon manat, o cümlədən qadın sahibkarlıq subyektlərinin 218 layihəsi üzrə 13.9 milyon manat güzəştli kredit verilmişdir. Beləliklə, qadın sahibkarlıq subyektlərinin investisiya layihələrinə verilmiş kreditlər layihə sayı olaraq 7.9%, kredit məbləği olaraq isə 9.5% təşkil etmişdir.

***2023-cü il ərzində ümumilikdə Sahibkarlığın İnkişafı Fondu (SİF) tərəfindən 3726 investisiya layihəsinin maliyyələşdirilməsinə 193.8 milyon manat, o cümlədən qadın sahibkarlıq subyektlərinin 290 layihəsi üzrə 16.4 milyon manat güzəştli kredit verilmişdir. Beləliklə, qadın sahibkarlıq subyektlərinin investisiya layihələrinə verilmiş kreditlər layihə sayı olaraq 7.8%, kredit məbləği olaraq isə 8.5% təşkil etmişdir.***

**2023-cü ildə ölkəmizdə qadın sahibkarlığının dəstəklənməsi Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən davam etdirilmişdir.**

KOB subyektlərinin bilik və innovasiyalara çıxışının təmin edilməsi üçün ölkənin müxtəlif şəhər və rayonlarında fəaliyyət göstərən **KOB İnkişaf Mərkəzləri tərəfindən 2023-cü il ərzində** mikro və kiçik sahibkarlar, startaplar üçün müxtəlif mövzularda (marketinq, satış, korporativ hüquq, maliyyə idarəetməsi, biznesin avtomatlaşdırılması, hesabatların tərtib olunması, biznes planın hazırlanması və s.) **ümumilikdə 12000-ə qədər sahibkarın yararlandığı 900-dən çox təlim keçirilmişdir.**

**Keçirilmiş təlimlərdə iştirak etmiş 12000-ə qədər sahibkardan (və ya sahibkarlıq fəaliyyətinə başlamaq istəyən şəxslərdən) 4000-ə yaxını qadın sahibkar (və ya sahibkarlıq fəaliyyətinə başlamaq istəyən şəxs) olmuşdur.**

KOBİA tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 sentyabr

2020-ci il tarixli 364 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası"na uyğun olaraq 2021-ci ildən etibarən KOB subyektlərinin təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsinə start verilmişdir. Bu istiqamətdə 2023-cü il ərzində keçirilmiş 3-cü və 4-cü müsabiqələr çərçivəsində maliyyələşdirilmiş 32 layihədən 6-sı qadın sahibkara məxsus olmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Startapın müəyyən olunması meyarları"na əsasən KOBİA tərəfindən "Startap" şəhadətnaməsi verilir. "Startap" şəhadətnaməsi KOB subyektlərini Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir. 2023-cü il ərzində "Startap" şəhadətnaməsi əldə etmiş 42 KOB subyektindən 8-i qadın sahibkar olmuşdur.

KOBİA tərəfindən "Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı" çərçivəsində ölkədə fəaliyyət göstərən sahibkarların və menecerlərin Almaniyanın tədris mərkəzlərində nəzəri biliklərinin artırılması, Almaniya müəssisələrində innovativ texnologiyalar və idarəetmə metodları, müəssisələrin fəaliyyət mexanizmi ilə tanış olması, peşə-hazırlıq səviyyələrinin yüksəldilməsi, Almaniya müəssisələri ilə iqtisadi kooperasiya əlaqələrinin yaradılması istiqamətində tədbirlər həyata keçirilir. Bu proqramda 2023-cü ildə ölkədə fəaliyyət göstərən 37 sahibkar və menecer iştirak etmişdir ki, onlardan 7-si qadındır.

2022-ci ilin oktyabr ayından icrasına başlanılmış KOBİA və "Rabitəbank" ASC-nin birgə təşkilatçılığı, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının (AQSİA) tərəfdaşlığı ilə "Biznesdə Qadınların Gücü" adlı layihənin məqsədi qadın sahibkarların ölkə iqtisadiyyatındakı rolunun artırılmasına dəstək göstərmək, onların işgüzar fəallığının artırılması, maarifləndirmə və güzəştli maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində əlaqələrin qurulmasına şərait yaradılmasıdır. Layihədə iştirak etmək üçün 134 qadın sahibkar müraciət etmiş, onların arasından müvafiq meyarlara uyğun olan, sənaye, kənd təsərrüfatı, ticarət və xidmət sahələrində fəaliyyət göstərən 23 iştirakçı seçilmişdir. Layihə çərçivəsində qadın sahibkarlar biznes biliklərinin artırılması üçün 10-dək müxtəlif təlimlərə cəlb edilib, onlara məsləhət xidməti və mentor dəstəyi göstərilib.

Sahibkar qadınların dövlət qurumlarının nümayəndələri ilə görüşləri, Lənkəranda yerləşən çay plantasiyasına təcrübə səfəri də təşkil olunub. Münsiflər heyətinin qərarına əsasən seçilmiş 3 qadın sahibkara mükafatlar verilib. Tədbir çərçivəsində qadın sahibkarların məhsullarından ibarət kiçik sərgi də təşkil olunub.

Sağlamlıq imkanları məhdud və həssas sosial qruplara aid şəxslərin cəmiyyətə inteqrasiyası və sosial sahibkarlıq fəaliyyətini təşviq etmək məqsədilə yeni layihə - "Əlilliyi olan sahibkarlara dəstək" layihəsi icra edilmişdir. Layihə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi), "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, Bakı Mühəndislik Universiteti, "FORİELLA" MMC və "Əlil Sahibkarlar

Təşkilatı" İctimai Birliyinin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilmişdir.

Layihə çərçivəsində Masallıda Sosial Sahibkarlıq və Məşğulluq Mərkəzi fəaliyyətə başlamışdır. Sağlamlıq imkanları məhdud və həssas sosial qruplara aid şəxslərin, o cümlədən şəhid ailələrinin üzvlərinin, qazilərin müvafiq peşə biliklərinə yiyələnmələri üçün mərkəzdə müvafiq şərait yaradılmışdır. Belə ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının ayırdığı qrant vəsaiti hesabına Mərkəz dərzilik, xalçaçılıq və foto-video operator peşələri üzrə müvafiq avadanlıqlarla təmin edilmişdir.

**"Əlilliyi olan sahibkarlara dəstək" layihəsi çərçivəsində** ümumilikdə 51 qadın faydalanmışdır ki, bunlardan 12 qadın sahibkar dərzi kimi fəaliyyət göstərməkdədir, digər 26 qadın Dövlət Məşğulluq Agentliyindən aktiv gözləməkdədir. Əlavə 2023-cü ilin 7 qadın dərzilik, 6 qadın isə xalçaçılıq üzrə sertifikat almışdır.

KOBİA tərəfindən "Ağıllı kənd" layihəsi çərçivəsində Zəngilan rayonunun Ağalı kənd sakinlərindən olan 2 nəfər qadına sahibkarlıq fəaliyyəti ilə bağlı təlim keçirilmiş və onlara Dövlət Məşğulluq Agentliyi tərəfindən aktivlər verilmişdir.

Eyni zamanda, 2023-cü ildə işğaldan azad edilmiş ərazilərdə məşğulluğun müəyyənləşdirilməsi məqsədilə 115 nəfər Zəngilan rayonu Ağalı kənd sakini arasında onların biznes ideyalarının, peşə biliyi və bacarıqlarının öyrənilməsi mövzusunda sorğu keçirilmişdir. Sorğunun nəticəsinə əsasən 20 nəfər kənd sakini bilik və bacarıqlarının olduğunu bildirmişdir ki, onların da 12-sini qadınlar təşkil etmişdir.

Qadın sahibkarların işgüzar fəallığının artırılması, fəaliyyət istiqamətləri üzrə maliyyə ehtiyaclarının öyrənilməsi, güzəştli maliyyə resurslarına çıxışlarının dəstəklənməsi, yeni texnologiyaların tətbiqinin stimullaşdırılması, biznes fəaliyyətinin perspektivləri üzrə müvafiq maarifləndirmə işlərinin aparılması və qarşılıqlı dialoq əsasında işgüzar əlaqələrin qurulması məqsədi ilə **Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası (AQSIA) tədbirlər həyata keçirmişdir.**

**Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası (AQSIA)** tərəfindən 2023-cü il ərzində 10 tədbir, 5 qrant layihəsi, 7 sosial layihə, 30-dan çox beynəlxalq görüş, 30-dan çox beynəlxalq səfər, 15 ictimai görüş, 10-dan çox regional səfər həyata keçirmişdir.

Regionlarda sahibkarlığa və evdə məşğulluğa dəstək vermək məqsədilə qadınlar əl əməyindən və istehsal etdikləri məhsullardan ibarət 5-ə yaxın sərgi təşkil olunub.

Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası, BMT-nin Qadınlar üzrə Agentliyi (UN Women) və BMT-nin Əhali Fondunun (UNFPA) birgə "Avropa İttifaqı Gender Bərabərliyi naminə: Birlikdə gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı" proqramı çərçivəsində "Gender yönümlü və çoxtərəfli əməkdaşlıq vasitəsilə Davamlı inkişaf yolunda qadınların potensialının gücləndirilməsi və iqtisadi səlahiyyətləndirilməsi" layihəsini həyata keçirmişdir.

2023-ci ildən Dövlət Turizm Agentliyi tərəfindən maliyyələşdirilən "Turizm sahəsində fəaliyyət göstərən qadın sahibkarların fəaliyyətinin Qarabağ və ətraf rayonlarda genişləndirilməsinə və turizm üzrə kadr hazırlığına dəstək" layihəsi və Mingəçevir Dövlət Universitetinin koordinatoru olduğu və Avropa Komissiyası tərəfindən maliyyələşdirilən "Azərbaycan ali təhsil müəssisələrində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi" (ENGAGE) mövzusunda Erasmus+ layihəsinin icrasına başlanılmışdır.

2023-cü ildə ilk dəfə olaraq, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası beynəlxalq tərəfdaşları, MediaOst və WEIA ilə birlikdə Sosial Sahibkarlıq üzrə Beynəlxalq Qadınlar Forumu təşkil olunub.

AQSİA tərəfindən icra olunmuş yerli və beynəlxalq qrant layihələr çərçivəsində layihə benefisiarı qadın sahibkarların sayı 400-ə çatır. Ümumillikdə layihələrdə iştirak edən qadın sahibkarlar isə 3000-dən çoxdur.

Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyəti Türkiyə, Özbəkistan, Tatarıstan, Vyetnam, Türkmənistan, Həştərxan, Birləşmiş Ərəb Əmirlikləri və sairə ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə iştirak etmiş, Azərbaycanda qadın sahibkarlığının inkişafının daim dəstəkləndiyini, məşğulluğun, sosial aktivliyin artırılması, əmək qabiliyyətli insanların potensialından maksimum dərəcədə istifadə edilməsi məqsədilə qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması istiqamətində həyata keçirilən tədbirlər və assosiasiyanın fəaliyyəti barədə məlumat vermişdir.

Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyəti ölkənin bir sıra qadın sahibkarlarının İstanbul, İzmit, İzmir, Gaziantep kimi şəhərlərdə türk sahibkar qadınlarla görüşlərini, işgüzar forumlarını təşkil edib.

***2023-cü ilin sonunda AQSİA üzvlərinin sayı Bakıda 500-ə, regionlarda isə 2000-ə çatıb.***

***01.01.2024-cü il vəziyyətinə statistik vahidlərin Dövlət reyestrində qeydiyyatda olan fərdi sahibkarların sayının iqtisadi rayonlar, inzibati ərazi vahidləri və cins üzrə bölgüsü***

| İqtisadi rayonlar və inzibati ərazi vahidləri | Fərdi sahibkarların sayı | ondan: | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | kişi | | | | | qadın | | | | |
| | | cəmi | mikro | kiçik | orta | iri | cəmi | mikro | kiçik | orta | iri |
| Azərbaycan Respublikası | 1321835 | 1021414 | 1015554 | 5339 | 497 | 24 | 300421 | 299634 | 735 | 52 | - |
| Bakı şəhəri | 353374 | 266763 | 264179 | 2358 | 220 | 6 | 86611 | 86169 | 414 | 28 | - |
| İqtisadi rayonlar və inzibati ərazi vahidləri | Fərdi sahibkarların sayı | ondan: | | | | | | | | | |
| | | kişi | | | | | qadın | | | | |
| | | cəmi | mikro | kiçik | orta | iri | cəmi | mikro | kiçik | orta | iri |
| Naxçıvan iqtisadi rayonu | 41488 | 30859 | 30836 | 22 | 1 | - | 10629 | 10629 | - | - | - |
| Abşeron-Xızı iqtisadi rayonu | 69315 | 54319 | 53810 | 448 | 57 | 4 | 14996 | 14933 | 53 | 10 | - |
| Dağlıq Şirvan iqtisadi rayonu | 39165 | 32433 | 32277 | 143 | 13 | - | 6732 | 6719 | 12 | 1 | - |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 83414 | 61955 | 61683 | 251 | 19 | 2 | 21459 | 21416 | 42 | 1 | - |
| Qarabağ iqtisadi rayonu | 84292 | 68676 | 68346 | 300 | 28 | 2 | 15616 | 15593 | 21 | 2 | - |

*Statistik vahidlərin dövlət reyestrində qeydiyyatda olan 1321835 (bir milyon üç yüz iyirmi bir min səkkiz yüz otuz beş) fərdi sahibkardan 1021414 (bir milyon iyirmi bir min dörd yüz on dörd) nəfəri (77%) kişi, 300421 (üç yüz min dörd yüz iyirmi bir) nəfəri (23%) qadın olmuşdur.*

## 2020-2023-cü illər üzrə uçota alınmış vergi ödəyiciləri (fiziki və hüquqi şəxslər) arasında qadınların və kişilərin sayı haqqında məlumat

| İllər | Fiziki şəxs | | | hüquqi şəxsin təsisçisi | | |
|---|---|---|---|---|---|---|
| | cəmi | kişi | qadın | cəmi | kişi | qadın |
| **2020-ci il** | **165,067** | 131,330 | 33,737 | **9,353** | 7,994 | 1,359 |
| **2021-ci il** | **111,913** | 84,439 | 27,474 | **12,027** | 10,090 | 1,937 |
| *Fərq* | *-53,154* | *-46,891* | *-6,263* | *2,674* | *2,096* | *578* |
| **2022-ci il** | **110,447** | 78,685 | 31,762 | **15,795** | 13,459 | 2,336 |
| *Fərq* | *-1,466* | *-5,754* | *4,288* | *3,768* | *3,369* | *399* |
| **2023-cü il** | **113,299** | 77,915 | 35,384 | **13,854** | 11,286 | 2,568 |
| *Fərq* | *2,852* | *-770* | *3,622* | *-1,941* | *-2,173* | *232* |

*2020-2023-cü illər üzrə uçota alınmış vergi ödəyicilərinin (fiziki və hüquqi şəxslər) cədvəlindən görünür ki, 2023-cü ildə vergi ödəyicisi qadınların sayı artmış, kişilərin sayı azalmışdır.*

## Dövlət əmlakının özəlləşdirilməsində və icarəyə götürülməsində iştirak edən qadın və kişilərin sayı (2020-2023-cü illər üzrə müqayisəli şəkildə)

| | | Qadınların sayı | Kişilərin sayı | Qadınların sayı | Kişilərin sayı | Qadınların sayı | Kişilərin sayı |
|---|---|---|---|---|---|---|---|
| | | 2021 | 2021 | 2022 | 2022 | 2023 | 2023 |
| **I** | **Dövlət əmlakına dair icarə müqaviləsi bağlayan icarəçilərin sayı** | | | | | | |
| 1 | Qeyri-yaşayış sahəsi üzrə | 108 | 476 | 120 | 335 | 135 | 561 |
| 2 | Torpaq sahələri üzrə | 333 | 1176 | 604 | 1983 | 1290 | 4220 |
| | Cəmi: | 441 | 1652 | 724 | 2318 | 1425 | 4781 |
| **II** | **Dövlət əmlakının özəlləşdirilməsində iştirak etmiş alıcıların sayı** | 85 | 244 | 150 | 357 | 83 | 213 |

**2022-2023-cü illər üzrə daşınmaz əmlak sahibi olan qadın və kişilərin sayı (həmçinin birgə mülkiyyət)**

| Sıra №-si | Xidmətin adı | mülkiyyətçisi qadınlar olan daşınmaz əmlakların sayı | mülkiyyətçisi kişilər olan daşınmaz əmlakların sayı | daşınmaz əmlak üzərində birgə mülkiyyət sahibi olanların sayı | Qeyd |
|---|---|---|---|---|---|
| **2022-ci il üzrə** | | | | | |
| 1 | Daşınmaz əmlak üzərində mülkiyyət hüququ tanınıb | 57 340 | 93 350 | 28 015 | |
| **2023-cü il üzrə** | | | | | |
| 1 | Daşınmaz əmlak üzərində mülkiyyət hüququ tanınıb | 61 441 | 102 914 | 32 952 | |

*Azərbaycan Dövlət İqtisadiyyat Nazirliyinin təqdim etdiyi statistikaya əsasən 2023-cü ildə dövlət əmlakının özəlləşdirilməsində hər iki cinsin nümayəndələrinin sayında azalma, icarəyə götürülməsində isə artım müşahidə olunur.*

*İqtisadiyyat Nazirliyinin verdiyi məlumata əsasən 2022-2023-cü illər üzrə daşınmaz əmlak sahibi olan qadın və kişilərin müqayisəli təhlilindən belə qənaətə gəlmək olar ki, 2023-cü ildə daşınmaz əmlak üzərində mülkiyyət hüququ olan həm kişilərin, həm də qadınların, həmçinin birgə mülkiyyəti hüququ olanların sayında artma müşahidə olunur.*

**Hərracların Təşkili Mərkəzi tərəfindən keçirilən hərraclarda iştirak edən kişi və qadın iştirakçıların sayı haqqında MƏLUMAT**

| Sıra №-si | Xidmətin adı | İştirak edən kişilərin sayı | | İştirak edən qadınların sayı | |
|---|---|---|---|---|---|
| | | 2022 | **2023** | 2022 | **2023** |
| 1 | Kiçik dövlət müəssisə və obyektlərinin hərraclar vasitəsilə satışı | 17 | **17** | 3 | **3** |
| 2 | Qeyri-yaşayış sahələrinin hərraclar vasitəsilə satışı | 0 | **0** | 0 | **0** |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3 | Yarımçıq tikililərin hərraclar vasitəsilə satışı | 2 | **3** | 0 | **1** |
| 4 | Obyektin altında yerləşən torpaq sahəsinin hərraclar vasitəsilə satışı | 0 | **0** | 0 | **0** |
| 5 | Nəqliyyat vasitələrinin hərraclar vasitəsilə satışı | 2466 | **2763** | 18 | **6** |
| 6 | Kiçik dövlət müəssislərinin əmək kollektivi üzvlərinə güzətli satışı | 9 | **0** | 4 | **0** |
| 7 | Açıq səhmdar cəmiyyətlərində səhmlərinin əmək kollektivi üzvlərinə güzəştli satışı | 24 | **0** | 45 | **0** |
| 8 | Səhmdar cəmiyyətlərin səhmlərinin pul hərraclarında satışı | 15 | **9** | 1 | **0** |
| 9 | Açıq səhmdar cəmiyyətlərinin səhmlərinin ixtisaslaşdırılmış pul hərraclarında satışı | 0 | **0** | 0 | **0** |
| | **Cəmi** | **2533** | **2792** | **71** | **10** |

*2022-ci illə müqayisədə 2023-cü ildə Hərracların Təşkili Mərkəzi tərəfindən keçirilən hərraclarda iştirak edən kişilərin sayı 2533-dən 2792-yə kimi artmış, qadınların sayı isə 71-dən 10-a qədər azalmışdır.*

### 2.4.2 Bank sektorunda gender bərabərliyinin təmin edilməsi

**Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən ölkəmizdə fəaliyyət göstərən 25 banka** Komitənin sorğusu göndərilmiş və məlumatlar əldə edilərək ümumiləşdirilmiş, təhlil edilmişdir.

Əldə olunan məlumatlara əsasən, banklarda gender bərabərliyi məsələlərinə həssas yanaşma mövcuddur. Gender bərabərliyinin təmin edilməsi üçün banklar tərəfindən davamlı olaraq tədbirlər keçirilməsi təmin olunur.

***2023-cü ilin sonuna bank sektorunda çalışan işçilərin (ümumilikdə 24312 nəfər)62%-i (15044 nəfər) kişi, 38%-i (9268 nəfər) qadın olmuşdur.2022-ci ilin sonuna bank sektorunda çalışan işçilərin 60%-i (13775 nəfər) kişi, 40%-i (9370 nəfər) qadın olmuşdur.***

**31.12.2023-cü il tarixinə işçilər barədə statistik MƏLUMAT**

| Bankın adı | Ümumi işçilərin sayı | | |
|---|---|---|---|
| | Cəmi, o cümlədən | Kişi | Qadın |
| **Cəmi** | **24,312** | **15,044** | **9,268** |
| Azərbaycan Respublikası Mərkəzi Bankı | **743** | 465 | 278 |
| Kapital Bank | **5,313** | 3,271 | 2,042 |
| Azərbaycan Beynəlxalq Bankı | **3,494** | 2,059 | 1,435 |
| UNI Bank | **1,902** | 1,153 | 749 |
| Paşa Bank | **1,650** | 1,032 | 618 |
| Bank Respublika | **1,635** | 1,119 | 516 |
| Access Bank | **1,413** | 940 | 473 |
| Rabitə Bank | **1,120** | 664 | 456 |
| Yelo Bank | **1,052** | 693 | 359 |
| Xalq Bank | **964** | 580 | 384 |
| Bank of Baku | **895** | 578 | 317 |
| Turan Bank | **786** | 486 | 300 |
| Express Bank | **711** | 397 | 314 |
| Azər-Türk Bank | **573** | 341 | 232 |
| Bank VTB (Azərbaycan) | **424** | 267 | 157 |
| AFB Bank | **279** | 176 | 103 |
| Yapı Kredi Bank Azərbaycan | **270** | 186 | 84 |
| Bank BTB | **259** | 137 | 122 |
| Naxçıvan Bank | **186** | 135 | 51 |
| Premium Bank | **179** | 106 | 73 |
| Ziraat Bank Azərbaycan ASC | **176** | 96 | 80 |
| Azərbaycan Sənaye Bankı | **163** | 93 | 70 |
| Bank Avrasiya | **103** | 55 | 48 |
| Bank Melli İran Bakı filialı | **22** | 15 | 7 |

**31.12.2023-cü il tarixinə rəhbər işçilər barədə statistik**
**MƏLUMAT**

| Bankın adı | Rəhbər işçilərin sayı | | |
|---|---|---|---|
| | Cəmi, o cümlədən | Kişi | Qadın |
| **Cəmi** | **3634** | **2867** | **767** |
| Azərbaycan Respublikası Mərkəzi Bankı | **136** | 109 | 27 |
| ABB | **556** | 452 | 104 |
| AccessBank QSC | **196** | 151 | 45 |
| "AFB Bank" ASC | **64** | 51 | 13 |
| Azərbaycan Sənaye Bankı ASC | **42** | 27 | 15 |
| "Azər-Türk Bank" ASC | **119** | 92 | 27 |
| BANK AVRASİYA ASC | **27** | 18 | 9 |
| Bank of Baku ASC | **203** | 166 | 37 |
| Bank Respublika ASC | **202** | 177 | 25 |
| Bank Melli Iran Bakı filialı | **10** | 9 | 1 |
| Bank BTB | **60** | 42 | 18 |
| Expressbank ASC | **105** | 81 | 24 |
| Kapital Bank ASC | **636** | 516 | 120 |
| Naxçıvanbank ASC | **32** | 27 | 5 |
| Pashabank | **153** | 111 | 42 |
| Premium Bank ASC | **40** | 30 | 10 |
| "Rabitəbank" ASC | **110** | 88 | 22 |
| TuranBank ASC | **211** | 160 | 51 |
| Unibank | **302** | 229 | 73 |
| Bank VTB (Azərbaycan) ASC | **87** | 62 | 25 |
| Xalq Bank | **67** | 53 | 14 |
| Yelo Bank ASC | **156** | 124 | 32 |
| Yapı Kredi Bank QSC | **90** | 68 | 22 |
| Ziraat Bank ASC | **30** | 24 | 6 |

***2023-cü ilin sonuna bank sektorunda rəhbər vəzifədə çalışan əməkdaşların 79%-ni (2 867 nəfər) kişi, 21%-ni (767 nəfər) isə qadınlar olmuşdur.***

***2022-ci ildə*** *rəhbər vəzifədə çalışan işçilərin 78%-i (2825 nəfər) kişi, 22%-i (781 nəfər) qadınlar olmuşdur.*

*Bu da onu göstərir ki, bank sektorunda rəhbər vəzifədə çalışan qadınların sayı 1% azalmışdır.*

***Banklardan alınan məlumatlara əsasən bank əmanətçilərinin 59.5%-i (7.9 mln. nəfər) kişi, 40.5%-i (5.4 mln. nəfər) qadınlardır (2022-ci ilin sonuna müvafiq olaraq 59.6% və 40.4%).***

***Həmçinin, 2023-cü ilin sonuna qorunan əmanətçilərin 58.8%-i (6.1 mln. nəfər) kişi, 42.2%-i (4.3 mln. nəfər) qadın əmanətçilər olmuşdur (2022-ci ilin sonuna müvafiq olaraq 61% və 39%).***

***Bundan əlavə, 31.12.2023-cü il tarixinə kredit götürənlərin 61%-i (1.8 mln. nəfər) kişilər, 39%-i (1.1 mln. nəfər) isə qadınlar olmuşdur.***

***Məlumat üçün qeyd edək ki, 2022-ci ilin sonuna kredit götürənlərin 39.8%-ni (1 mln. nəfər) qadınlar təşkil etmişdir (2023-cü ildə kredit götürən qadın borcalanlar üzrə 100 min nəfər artım olmuşdur).***

**2023-cü il ərzində banklar tərəfindən gender bərabərliyinin təminatı sahəsində müxtəlif tədbirlər həyata keçirilmişdir.**

- “Azərbaycan Beynəlxalq Bankı” ASC tərəfindən rəhbər qadınlar üçün “Leadership” proqramı və ingilis dili təlimləri keçirilmişdir.
- “Access Bank” QSC-də yalnız qadınların iştirakı ilə “Future BankHers” təcrübə proqramı keçirilmiş və qadınların maliyyə sektorunda karyera qurması istiqamətində bilik və bacarıqlarının artırılmasına dəstək olunmuşdur.
- “Paşa Bank” ASC-də 2023-cü ildə könüllülərdən ibarət Social Club təşkil olunmuşdur. Tədbirdə xeyriyyə, idman, kreativlik, intellektual oyunlar keçirilmiş, həmçinin həm kişilərə, həm də qadınlara onların mənəvi sağlamlığı, birliyi, fiziki sağlamlığı, onlara verilən dəyər və qatdıqları töfhəyə görə mükafatlandırmalar təqdim olunmuşdur.
- “Yelo Bank” ASC tərəfindən AFFA-nın təşkil etdiyi “Kəndlərdə idmanı inkişaf etdirək” layihəsi çərçivəsində aztəminatlı ailələrin futbola marağı olan qız övladları üçün dəstək kampaniyası keçirilmişdir. Bank, həmçinin işində uğurlu qadınları bir araya gətirən ən böyük şəbəkə tədbirlərindən biri olan “SHE Congress” 2023-cü ilin əsas sponsorlarından biri olmuş, BMT-nin qadın səlahiyyətlərinin genişləndirilməsi prinsiplərinə qoşulmuşdur. Qadın sağlamlığına diqqət çəkmək məqsədilə Süd Vəzi Xərçəngi Maarifləndirmə ayında tanınmış həkim-ginokoloqun iştirakı ilə qadın əməkdaşları üçün info-sessiya təşkil etmiş və “Yelo Bank” ASC-nin baş ofisində qadınlar üçün həftədə 2 dəfə yoqa dərsləri təşkil olunmuşdur.

**Məlumat toplanılmış 25 bank üzrə gender məsələləri üzrə məsul şəxslər fəaliyyət göstərir.**

## 2.4.3. Sosial təminat hüquqlarının həyata keçirilməsində gender bərabərliyi

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 16-cı maddəsinə əsasən əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır.

Qadınlara, əlilliyi olan şəxslərə, yaşı 18-dən az olan və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə, habelə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsi ayrı-seçkilik hesab edilmir.

### Əlilliyi olan şəxslərlə bağlı gender təhlili və onların məşğulluğu

**2023-cü il üzrə əlilik təyinatları barədə məlumat:**

| Gender | 81-100% | 61-80% | 31-60% | Cəmi: |
|---|---|---|---|---|
| **kişi** | 787 | 1292 | 1748 | 3827 |
| **qadın** | 620 | 1063 | 1185 | 2868 |
| **Cəmi:** | **1407** | **2355** | **2933** | **6695** |

**2023-cü ildə 2382 nəfəri qadın, 6008 nəfəri kişi olmaqla 8390 nəfər əlilliyi olan şəxs işlə təmin olunmuşdur.**

Eyni zamanda 2023-cü ildə 352 nəfər əlilliyi olan şəxs peşə hazırlığı və əlavə təhsilə cəlb edilmiş, onlardan 131 nəfərini qadınlar, 221-nəfərini kişilər təşkil etmişdir.

01.12.2023-cü il tarixində əlilliyi olan şəxslər üçün karyera imkanlarının təşviq edilməsi və onların bərabər şərtlərlə işlə təmin edilməsi, işəgötürənlərə inklüziv yanaşmanın tətbiqinə təşviq edilməsi və əlilliyi olan şəxslər üçün inklüziv texnologiyanın təşviqi məqsədi ilə “İnklüziv Karyera” forumu keçirilmişdir. Forumda 75

nəfər iştirak etmiş, onlardan 20 nəfər müxtəlif dərəcəli əlilliyi olan şəxslər olmuşdur. Forum müddətində əlilliyi olan şəxslərlə şirkət nümayəndələrinin və işə qəbul şöbələrinin əməkdaşlarının şəbəkələşməsi qurulmuşdur.

Regional Məşğulluq filialları tərəfindən 2023-cü il ərzində 7937 nəfər əlilliyi olan şəxsə peşəyönümü məsləhət xidməti göstərilmişdir. Eyni zamanda, Mərkəzi Karyera filialının "Alo karyera" dəstək xətti daxilində isə 5 nəfəri qadın olmaqla ümumilikdə əlilliyi olan şəxslərlə 25 fərdi konsultasiya həyata keçirilmişdir.

"Alo Karyera" dəstək xidmətinə onlayn şəkildə karyera planlaması, məqsədlərin təyin olunması, ixtisas seçimi, əmək bazarı və iş axtarışı, CV-lərin hazırlanması, müsahibəyə hazırlıq və s. ilə bağlı məlumat və tövsiyələrin verilməsi, bu sahələrdə zəruri köməkliyin göstərilməsi daxildir. Mərkəzi Karyera filialının "Gələcəyə birlikdə" layihəsi daxilində isə 18 yaşınadək əlilliyi müəyyən edilmişlər üçün "Əmək bazarının araşdırılması", "İxtisas seçimi" kimi mövzularda seminarlar və fərdi konsultasiyalar həyata keçirilmişdir.

Layihə ərzində ümumilikdə 2023-cü il ərzində 306 nəfər valideyn himayəsindən məhrum olmuş və 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa peşəyönümü məsləhət xidməti göstərilmişdir. 2023-ci ildə 600 nəfərini qadınlar təşkil etməklə 2314 nəfər əlilliyi olan şəxs kvota yerləri üzrə işlə təmin olunmuşdur.

***Özünüməşğulluq proqramı üzrə 2022-ci ildə 278 nəfəri qadın, 1130 nəfəri kişi olmaqla 1408 nəfər əlilliyi olan şəxs cəlb edilmişdir.***

***2023-cü ildə 126 nəfəri qadın, 562 nəfəri kişi olmaqla ümumilikdə 688 nəfər əlilliyi olan şəxs haqqı ödənilən ictimai işlərə cəlb edilmişdir.***

***2023-cü ildə 2 nəfər (kişi) sosial iş yerlərində işçilərin əməkhaqlarının maliyyələşdirilməsi proqramı üzrə işlə təmin edilmişdir.***

Bununla yanaşı, Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan şəxslər üçün Peşə-əmək Reabilitasiya Mərkəzinə 362 əlilliyi olan şəxs müxtəlif peşə hazırlıq kurslarına cəlb edilmişdir. Onlardan 272-si kişi, 90-ı qadındır. 182 əlilliyi olan şəxs müxtəlif sərgi-satış yarmarkalarında iştirak etmişdir. Onlardan 116-sı qadın, 66-sı kişidir.

Əmək münasibətləri prosesində işçilər arasında sözügedən maddənin birinci hissəsində göstərilən ayrı-seçkiliyə yol verən işəgötürən və ya digər fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq məsuliyyət daşıyır. Ayrı-seçkiliyə məruz qalan işçi pozulmuş hüququnun bərpa edilməsi tələbi ilə məhkəməyə müraciət edə bilər.

## Ünvanlı dövlət sosial yardım alanların gender təhlili

Aztəminatlı ailələrə 2006-cı ildən etibarən ünvanlı dövlət sosial yardımının (ÜDSY) verilməsinə başlanılmışdır ki, bu sosial layihə həmin kateqoriyadan olan ailələrin rifah halının yüksəldilməsində, onların sosial-məişət və maddi çətinliklərinin həllində xüsusi əhəmiyyət kəsb edir.

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2023-cü il üçün ehtiyac meyarının həddi 2022-ci ildəki 200 manatdan 23% və ya 46 manat artırılaraq 246 manat məbləğində müəyyən edilməklə ilk dəfə ölkə üzrə yaşayış minimumuna (246 manat) bərabər səviyyəyə çatdırılmışdır.

**Sosial müavinətlər, kompensasiyalar, təqaüdlər və ünvanlı dövlət sosial yardımı üzrə statistik göstəricilər**

| Göstəricilər | rəsmi statistika hesabatına əsasən say (nəfər) | |
|---|---|---|
| | 01.01.2023-cü il tarixinə | 01.01.2024-cü il tarixinə |
| Aylıq sosial müavinət və kompensasiya alanlar | 418 227 | 442 016 |
| *onlardan:* qadınlar | 216 210 | 222 205 |
| Azərbaycan Respublikası Prezidentinin təqaüdünü alanlar | 382 026 | 394 080 |
| *onlardan:* qadınlar | 119 999 | 126 320 |
| Ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailələr | 65 545 | 63 968 |
| *o cümlədən:* ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailə üzvləri | 290 808 | 272 343 |
| *onlardan:* qadınlar | 153 778 | 143 036 |

Hesabat dövründə aztəminatlı ailələrin maddi rifahının yaxşılaşdırılması məqsədi ilə onların ÜDSY hüququnu müəyyənləşdirən şərtləri optimallaşdırılmış, elektron informasiya sisteminin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. Vətəndaşlar üçün elektron müraciət prosedurunun təkmilləşdirilməsi məqsədi ilə Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Ünvanlı yardım”

(VEMTAS) altsistemindən istifadə sadələşdirilmiş və müraciət zamanı daxil edilən məlumatlar minimuma endirilmişdir.

Eyni zamanda bildiririk ki, ünvanlı dövlət sosial yardımı təyin edilərkən cinsi ayrı-seçkiliyə yol verilmir. Yardımın təyin olunması üçün müraciət və digər prosedurlar zamanı müraciət etmiş şəxsin qadın və ya kişi olması ilə bağlı məhdudiyyət nəzərdə tutulmamışdır.

## Pensiya alanların gender təhlili

1.01.2024-cü il tarixinə operativ məlumatlara əsasən ölkə üzrə əmək pensiyaçılarının sayı 1099.3 min nəfər təşkil edir.

Əmək pensiyaçılarının 64.2%-i yaşa görə (YG), 23.6%-i əliliyə görə (ƏG), 12.2%-i isə ailə başçısını itirməyə görə (ABİ) pensiya alır.

Əmək pensiyaçıları arasında cins bölgüsünə dair məlumatlar aşağıdakı diaqramlarda öz əksini tapmışdır.

*Qrafik 3. Əmək pensiyaçılarının gender bölgüsü (faizlə)*




*Qrafik 4. Əmək pensiyasının növlərində gender bölgüsü (%-lə)*




Hazırda "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsinə əsasən 2024-cü il üzrə kişilərin pensiya yaşı 65, qadınlarda isə (01.07.2023-ci il tarixdən) 63 yaş 6 aydır. Qeyd edək ki, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır. Bu proses bitdikdən sonra fərq aradan qalxacaq və həm qadınlar, həm də kişilər üçün pensiya yaşı 65 olacaqdır.

Həmçinin "Əmək pensiyaları haqqında" Qanuna 29 iyun 2022-ci il tarixli edilmiş dəyişikliklərə əsasən Qanunun 8-ci və 9-cu maddələri üzrə qadın və kişilərə verilən güzəştlər bərabərləşdirilmişdir. Belə ki, Qanunun 8.3-cü maddəsi üzrə yalnız qadınlara şamil edilən güzəşt artıq həm də kişilərə də şamil edilir. Edilmiş digər dəyişikdən sonra isə Qanunun 9.1-ci, 9.2-ci və 9.3-cü maddələri üzrə əmək şəraitinə görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ həm qadınlar, həm də kişilər üçün Qanunla müəyyən olunmuş yaş həddi 5 il azaldılmaqla müəyyən edilir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Sosial xidmət müəssisələrinə yerləşdirilən**

## Çətin həyat şəraitində olan şəxslərin gender təhlili (müəssisələr üzrə)

Sosial xidmət müəssisələrində xidmət alanların 2023-cü il üzrə gender bölgüsü aşağıdakı kimi olmuşdur:

1) 1 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsində - 24 nəfər (4 qadın, 20 kişi)

2) 2 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsində - 21 nəfər (3 qadın,18 kişi)

3) 1 saylı psixonevroloji sosial xidmət müəssisəsində - 21 nəfər (10 qadın, 11 kişi)

4) 3 saylı psixonevroloji sosial xidmət müəssisəsində - 14 nəfər (14 qadın)

5) 4 saylı psixonevroloji sosial xidmət müəssisəsində - 19 nəfər (2 qadın, 17 kişi)

6) Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində - 62 nəfər (33 kişi, 29 qadın)

7) Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi - 95 nəfər (62 kişi, 33 qadın)

8) İnsan alveri qurbanlarına Yardım Mərkəzi - 93 nəfər (86 qadın,7 kişi)

9) Paralimpiya İdman Kompleksi - 362 nəfər (75 qadın, 287 kişi)

10) Əlilliyi olan şəxslər üçün Peşə-əmək Reabilitasiya Mərkəzi - 605 nəfər (193 qadın, 412 kişi)

*2023-cü ildə sosial xidmət müəssisələrində xidmət alanların 449 nəfərini qadınlar, 869 nəfərini kişilər təşkil edir.*

## *Ahılların yaşadığı müvafiq sosial xidmət müəssisələrində yaşayanların gender bölgüsü*

Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində 210 sakin yaşayır. Onlardan 110 nəfəri kişi, 100 nəfəri qadındır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin tabeliyində olan İnsan alveri qurbanlarına Yardım Mərkəzinə 2023-cü il ərzində 86- qadın, 7 - kişi olmaqla 93 nəfər müraciət etmişdir. Müraciət etmiş şəxslər ilə bağlı məlumatlar aşağıdakı kimi təsnifatlaşdırılmış vəya qruplaşdırılmışdır.

yaş üzrə təsnifat:

– 0-18 yaş arası 3 nəfər;

– 18 yaşdan yuxarı 90 nəfər.

İnsan alveri formalarının təsnifatı:

– 55 nəfər qadın- cinsi istismar üzrə;

– 1 nəfər kişi- məcburi əmək üzrə;

– 4 nəfər qadın- məişət zorakılığı üzrə;

– 33 nəfər qadın- potensial insan alveri qurbanı.

Vətəndaşlıq üzrə təsnifat:

– 2 nəfər- Gürcüstan vətəndaşı;

– 91 nəfər- Azərbaycan vətəndaşı.

## 2.5. Qeyri-hökumət təşkilatlarının, həmkarlar ittifaqlarının və siyasi partiyaların fəaliyyətində gender bərabərliyinin təmin edilməsi

### Siyasi Partiyalar

Mərkəzi Seçki Komissiyası (MSK) 18 üzvdən ibarətdir. MSK-nın üzvləri Milli Məclis tərəfindən seçilir. Mərkəzi Seçki Komissiyasının 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) və onların namizədliklərini təqdim edən deputatları, 6 üzvü deputatları Milli Məclisdə azlıq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyaları təmsil edir.

Mərkəzi Seçki Komissiyası Prezident seçkilərini və Milli Məclis deputatlarının seçkilərini, həmçinin referendumların, bələdiyyələrə seçkilərin hazırlanmasını və keçirilməsini təmin edir.

MSK öz fəaliyyətini Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq həyata keçirir.

Mərkəzi Seçki Komissiyası seçkilərin (referendumun) hazırlanmasında və keçirilməsində vətəndaşların seçki hüquqlarına riayət olunmasına nəzarət edir, seçkilərin (referendumun) maliyyələşdirilməsi ilə əlaqədar tədbirlər həyata keçirir, dairə seçki komissiyalarını yaradır, dairə və məntəqə seçki komissiyalarının fəaliyyətinə rəhbərlik edir.

MSK Katibliyində 65 kişi, 60-ı qadın olmaqla, cəmi 125 işçi fəaliyyət göstərir. Onlardan 16 nəfər kişi və 5 nəfər qadın müxtəlif rəhbər vəzifələrdə çalışır.

Dairə seçki komissiyalarının katibliklərində ümumilikdə 750 işçi fəaliyyət göstərir. Onlardan 450 nəfəri kişi (60%), 300 nəfəri isə qadındır (40%).

Mərkəzi Seçki Komissiyasının hal-hazırda fəaliyyətdə olan 18 üzvündən 14-ü kişi, 4-ü qadındır, onlardan 3 kişi (sədr, sədr müavini və katib) və 1 qadın (katib) rəhbər vəzifədə təmsil olunur.

125 dairə seçki komissiyasının 1123 üzvündən 894-ü (79,61%) kişi, 229-u (20,39%) qadındır. 120 (96%) dairə seçki komissiyasının sədri kişi, 5 (4%) dairə seçki komissiyasının sədri qadındır. Dairə seçki komissiyalarının 250 katibindən 193 nəfəri (77,2%) kişi, 57 nəfəri (22,8%) isə qadındır.

6319 məntəqə seçki komissiyasının 37914 üzvündən 22126-sı (58,36%) kişi, 15788-i (41,64%) qadındır. 4292 (67,92%) kişi, 2027 (32,08%) qadın məntəqə seçki komissiyası sədridir. Məntəqə seçki komissiyalarında fəaliyyət göstərən katiblərin 7213-ü (57,07%) kişi, 5425-i (42,93%) qadındır.

**2023-cü ildə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış 26 siyasi partiya fəaliyyət göstərmişdir.** Siyasi partiyaların üzvləri arasında da kişilər üstünlük təşkil etmişdir.

**Siyasi partiyalar barədə məlumat**

| Sıra №-si | Siyasi partiyanın adı | Sədri | Kişilər (faizlə) | Qadınlar (faizlə) |
|---|---|---|---|---|
| 1. | Yeni Azərbaycan Partiyası (YAP) | İlham Əliyev | 49.2 | 50.8 |
| 2. | Vətəndaş Həmrəyliyi Partiyası (VHP) | Sabir Rüstəmxanlı | 61 | 39 |
| 3. | "Ana Vətən" Partiyası (AVP) | Fəzail Ağamalı | 60 | 40 |
| 4. | Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (BAXCP) | Qüdrət Həsənquliyev | 75 | 25 |
| 5. | Böyük Quruluş Partiyası (BQP) | Fazil Mustafa | 66.3 | 33.7 |
| 6. | Vəhdət Partiyası | Tahir Kərimli | 84 | 16 |
| 7. | Azərbaycan Demokratik Maarifçilik Partiyası (ADMP) | Elşən Musayev | 85 | 15 |
| 8. | Demokratik İslahatlar Partiyası (DİP) | Asim Mollazadə | 68 | 32 |
| 9. | Milli Cəbhə Partiyası | Razi Nurullayev | 85 | 15 |
| 10. | REAL Partiyası | İlqar Məmmədov | 71 | 29 |
| 11. | Haqq Ədalət Partiyası | Əli İnsanov | 65.3 | 34.7 |
| 12. | Azad Vətən Partiyası | Akif Nağı | 70 | 30 |
| 13. | Azərbaycan Ümid Partiyası | İqbal Ağa-zadə | 65 | 35 |
| 14. | Klassik Xalq Cəbhəsi Partiyası (KXCP) | Mirmahmud Fəttayev | 70 | 30 |
| 15. | Azərbaycan Xalq Partiyası (AXP) | Pənah Hüseyn | 78 | 22 |
| 16. | Azərbaycan Demokrat Partiyası (ADP) | Sərdar Cəlaloğlu | 97 | 3 |
| 17. | Böyük Azərbaycan Partiyası (BAP) | Elşad Musayev | 80 | 20 |
| 18. | Azərbaycan Milli İstiqlal Partiyası (AMİP) | Arzuxan Əlizadə | 89 | 11 |
| 19. | Ağ Partiya | Tural Abbaslı | 80 | 20 |
| 20. | "Ədalət" Partiyası | İlyas İsmayılov | 80 | 20 |
| 21. | Milli Dirçəliş Hərəkatı Partiyası (MDHP) | Fərəc Quliyev | 88 | 12 |
| 22. | Müasir Müsavat Partiyası (MMP) | Hafiz Hacıyev | 67 | 33 |
| 23. | Yeni Zaman Partiyası (YZP) | Musa Ağayev | 82 | 18 |
| 24. | Gələcək Azərbaycan Partiyası | Ağasif Şakiroğlu | 68 | 32 |

## *Qeyri-hökumət təşkilatları*

Vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti ilə bağlı Ədliyyə Nazirliyindən verilən məlumata görə, 2024-cü ilədək dövlət qeydiyyatına alınmış QHT-lərin sayı 3750-dir. Onlardan 471 təşkilatın sədri qadınlardır. Qadın və gender məsələləri sahəsində 161 təşkilat fəaliyyət göstərir. Həmin təşkilatlardan 155-nin sədri qadınlardır.

2023 - cü ildə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qrant müsabiqələri üzrə 448 layihə maliy-

yələşib. Ümumilikdə 2023-cü il üzrə qalib olan qeyri-hökumət təşkilatı rəhbərlərindən 177 nəfəri qadın, 271 nəfəri isə kişi olub.

2023-cü il Kiçik Qrant Müsabiqəsinin "Ailə, Qadın, Uşaq və Gender Məsələləri" istiqaməti üzrə 427500 manat məbləğində 56 layihə maliyyələşib. Bunlardan 7 layihə uşaq hüquqlarının müdafiəsi, 6 layihə məişət zorakılığı, 13 layihə erkən nikah və 2 layihə isə gender siyasətinin həyata keçirilməsi istiqamətindədir. Layihələrin icrasına 134 nəfər ştatda olan, 99 nəfər ştatdan kənar ekspert cəlb olunub.

Layihələr çərçivəsində 111 təlim, 50 seminar, 124 digər tədbir (konfrans, dəyirmi masa və s. ) keçirilmiş, 11 kitabça, 10 buklet, 2 xüsusi geyim məhsulları çap olunmuşdur. 1 sayt, 6 sosial çarx və 5 TV veriliş hazırlanıb.

Qrant müsabiqəsi çərçivəsində layihələr 8 şəhər və 30-dan çox rayonu (Bakı, Xırdalan, Yevlax, Şirvan, Oğuz, Bərdə, Saatlı, İmişli, Ağdaş, Göyçay, Biləsuvar, Salyan, Şamaxı, Gədəbəy, Şəmkir, Zərdab, Ucar, Qəbələ, Lənkəran, İsmayıllı və s.) əhatə etmişdir.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən gender bərabərliyinin təmin edilməsi istiqamətində 2023-cü ildə "Gender əsaslı zorakılıqlara qarşı mübarizədə QHT-lərin rolu" mövzusunda və 2023-cü il Kiçik Qrant Müsabiqəsinin "Ailə, Qadın, Uşaq və Gender Məsələləri" istiqaməti üzrə qalib olan təşkilatlar ilə görüş keçirilib.

## *Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK)*

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) gender sahəsində qeyri-bərabərliyi doğuran səbəblərin araşdırıb üzə çıxarılmasına və onların aradan qaldırılmasına təsir göstərməyə çalışır. Bu işdə Dövlət Statistika Komitəsinin 2000-ci ildən başlayaraq nəşr etdiyi "Gender statistikası" və AHİK-in 2001-ci ildən həmkarlar ittifaqlarının strukturlarında qəbul olunan kişi və qadınların vəziyyətini səciyyələndirən illik statistik hesabatlardan (forma №GS-1) geniş istifadə edilir. Hər il AHİK-ə üzv təşkilatlardan gender bərabərliyini əks etdirən operativ məlumatlar daxil olur. Statistik göstəricilər sosial-iqtisadi, siyasi, hüquqi, mədəni və psixoloji aspektləri nəzərdə tutur. Bu amillərin gender əsaslı ayrı-seçkiliklə necə əlaqəli olduğunu və insanın özünü inkişaf etdirməsi yolunda hansı maneələr yarada biləcəyini təhlil edir, qadınların iqtisadi imkanlara çıxışının yaxşılaşması məsələsinə aydınlıq gətirir. Mütəmadi olaraq onların təhlili aparılır, cinslər arasındakı fərqlər və təcrübələr öyrənilir, mövqe bildirilir, qəbul olunan qərar və sərəncamlarda gender tələblərinin gözlənilməsinə diqqət yetirilir.

Ötən il sahə həmkarlar ittifaqı orqanları və onların üzv təşkilatlarının səyi nəticəsində gender və qadın problemlərinə həsr olunmuş 326 seminar, dəyirmi masa və tədbirlər keçirilmiş, burada 9342 nəfər həmkarlar ittifaqı üzvləri iştirak etmişdir. Beynəlxalq səviyyəli təşkilatların iştirakı ilə keçirilmiş 43 tədbirdə 484 nəfər qadın iştirak etmişdir.

Gender problemlərinə həsr olunmuş və xarici ölkələrdə (Belçika, Türkiyə, İtaliya, ABŞ, Macarıstan, Moldova və s.) keçirilmiş tədbirlərdə həmkarlar ittifaqlarının 47 nəfər nümayəndəsi iştirak etmişdir. Onlardan 29 nəfəri qadın, 16 nəfəri kişilər olmuşdur.

**2023-cü il ərzində həmkarlar ittifaqları üzvlərinin sayında kişilər – 46,7 %, qadınlar isə - 53,3% olmuşdur. Bütün səviyyəli rəhbər vəzifələrdə (pullu aparatda və ictimai əsaslarla) çalışanlar arasında qadınlar 40,1% olmuşdur. Sədr vəzifəsində işləyən qadınlar – 41,8 %, onlardan pullu (maaşlı) vəzifə tutanlar – 25,2 % - dir.**

Statistik göstəricilərə görə Hİ-nin seçkili orqanlarında (İcraiyyə Komitəsi, Rəyasət Heyəti, həmkarlar ittifaqı komitəsi və s.) qadınların sayı – 51% təşkil edir.

2023-cü il ərzində AHİK-in aparatına və üzv təşkilatlarına ümumilikdə 168168 ərizə və şikayət daxil olmuş və bu ərizələrin 99,8 %-i özünün müsbət həllini tapmışdır. Ümumi müraciətlərin 4,3% əmək hüquqlarının müdafiəsi ilə bağlı olub.

İşə bərpa ilə əlaqədar daxil olmuş 178 müraciətdən 91-i, yəni 49%-i özünün müsbət həllini tapmışdır. Müqayisə üçün, 2022-ci ildə müraciətlərin 59.5%-i şikayətçilərin xeyrinə həll edilmişdir.

Eyni zamanda AHİK-in 14.04.2023-cü il tarixli, pr. № 24 b. 8 qərarına əsasən Hİ sistemində qadın və gender məsələləri ilə məşğul olan məsul şəxslər təyin olunmuşdur. Belə ki, gender və qadın problemləri üzrə komissiyalardan əlavə bu kişi və qadın bərabərliyi məsələləri ilə yerlərdə 799 nəfər (azsaylı təşkilatlarda) xüsusi təyin olunmuş məsul şəxslər fəaliyyət göstərir.

Həmkarlar ittifaqları üzvlərinin 20,1%-i gənclərdir, onlardan 14,7%-i isə gənc qadınlardır. Bütün səviyyəli rəhbər vəzifələrdə (pullu aparatda və ictimai əsaslarla) çalışanlar arasında gənclər 6,4% təşkil edib. Sədr vəzifəsində olan gənc qadınlar 5,3%, onlardan pullu (maaşlı) vəzifə tutanlar isə 2,7% - dir.

AHİK-də "İlin peşəkar gənci" fəxri adının təsis edilməsi haqqında qərar qəbul edilib. İstedadlı və yaradıcı gənclər üzə çıxarılır, onlara geniş imkanlar yaradılır. Əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gəncləri fərqləndirilir.

2023-cü il üzrə 28 sahə HİRK-in təqdimatına əsasən 75 nəfər gəncdən (23-ü gənc qadın) "İlin peşəkar gənci" fəxri adına layiq görülüb.

Həmkarlar ittifaqlarının idman təşkilatları əhalinin sağlamlığının möhkəmlənməsi sahəsində fəaliyyətlərini davam edir. Ötən il ərzində 324 müəssisə və təşkilatların bədən tərbiyəsi kollektivi idmana cəlb olunub, 7 Uşaq Gənclər İdman Məktəblərinin bölmələrində məşqçi - müəllimlərin rəhbərliyi altında 2255 gənc idmançı, o cümlədən 181 qız il ərzində idmanın 12 növü ilə müntəzəm məşğul olub, respublikanın 130 idman bazası və qurğusunda məşğələlər, yarışlar və spartakiadalar keçirilib.

Ümumiyyətlə 2023-cü il ərzində Hİ idman təşkilatları 26283 nəfər idmançı ilə məşğul olmuş (3332 nəfəri qadınlar, 22951 nəfəri kişilər) və idmançıların iştirak etdikləri bütün yarışlarda müxtəlif dərəcəli 481 medallar qazanmışlar.

AHİK-in tabeliyində olan Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, bütün yaş qrupunda olan həmkarlar ittifaqı işçiləri üçün təlim - tədris üzrə kurs və treninqlər təşkil edir. Təlim planına əsasən ötən il 571 nəfər Hİ sədrləri və gender məsələləri üzrə komissiya sədrləri üçün təşkil edilmiş "Gender problemləri: nəzəriyyə və təcrübənin həmkarlar ittifaqlarında istifadəsi" mövzusunda treninqlərə cəlb edilib.

İl ərzində görülən işlər AHİK-in "Ülfət" qəzetində, internet resursunda, sosial şəbəkələrdə və ölkənin aparıcı informasiya vasitələrində işıqlandırılıb.



# 3

## 2023-cü ildə AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİNİN TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ ƏLDƏ EDİLMİŞ NƏTİCƏLƏR, QARŞIYA QOYULAN VƏZİFƏLƏR VƏ TÖVSİYƏLƏR

## 3.1 Nəticələr

2023-cü ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikası Qanunu"nun həyata keçirilməsi ilə bağlı hazırlanan Məlumatın təhlili göstərir ki, müəyyən sahələrdə gender bərabərliyinə doğru müsbət tendensiya mövcuddur.

Qanunvericiliyə cinsi ayrı-seçkiliyin aradan qaldırılması məqsədilə qadınların əməyi qadağan olunan 674 peşə (vəzifə) və iş yerinin azaldılaraq 204 müəyyən edilməsi, hamilə, 14 yaşınadək uşağı olan, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan qadınların kişilərlə bərabər qaydada gecə vaxtı yerinə yetirilən işlərə, iş vaxtından artıq işlərə cəlb edilmə və istirahət, iş günü hesab edilməyən bayram və digər günlərdə işə cəlb edilməsinə və ezamiyyətə göndərilməsinə onların yazılı razılığı ilə icazə verilməsi yeniliklərin daxil edilməsi mühüm dəyişiklikdir.

***Əvvəlki illərə nisbətən 2023-cü ildə ictimai həyatın müəyyən sahələrində qərarların qəbulunda və dövlətin idarə edilməsində qadınların təmsilçiliyinin artması müşahidə olunur.***

*2023-cü ildə Hüquq-mühafizə orqanlarında qadın əməkdaşların sayı artmışdır.*

*2022-ci illə müqayisədə hakim qadınların sayı 25%, prokuror qadınların sayı 30%, Polis Akademiyasına daxil olan qadınların sayı 2 dəfəyə yaxın artmışdır.*

*2023-cü ildə Ədliyyə Nazirliyi aparatının, habelə Ədliyyə Akademiyası, Məhkəmə Ekspertizası Mərkəzi, Tibb baş idarəsi və Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidmətinin işçilərinin təxminən yarısı qadınlardan ibarət olmuşdur.*

*2022-ci illə müqayisədə 2023-cü ildə qadın vəkillərin və vəkil bürosu olan qadınların sayı 18% artmışdır.*

*Diplomatik xidmət orqanlarında çalışan işçilər arasında kişilər üstünlük təşkil etsə də ötən 2022-ci illə müqayisədə müşavir, III konsul təyinatları zamanı qadınlara etimad daha yüksək olub.*

*Ötən illərlə müqayisədə Fövqəladə Hallar Nazirliyində rəhbər vəzifələrdə çalışan qadınların sayı 13% artmışdır.*

*Əvvəlki illərdə olduğu kimi 2023-cü ildə də, qadınlar onlar üçün ənənəvi olan sahələrdə (elm, təhsil, səhiyyə, xidmət sahələri) üstünlük təşkil ediblər.*

***2023-cu ildə gender bərabərliyinə manea olan məişət zorakılığı, erkən nikah, selektiv abort halları ilə mübarizə tədbirləri nəticəsində aşağıdakı dəyişiklik baş vermişdir.***

- *2022-ci illə müqayisədə Azərbaycanın 12 iqtisadi rayonu üzrə nikah yaşının 1 il azaldılması ilə bağlı* ***verilən icazələrin sayında 38 (nikah) azalma var.***
- *2023-cü ildə Daxili İşlər Nazirliyinə daxil olmuş* ***məişət zorakılığı ilə bağlı müraciətlərin sayı azalmışdır.***
- *2023-cü il üzrə doğumu qeydə alınmış oğlan və qızlar arasındakı fərq 7008 nəfərdir. Cins nisbəti hər 100 qıza 113 oğlan təşkil edir. 2022-ci ildə cinslər arasındakı fərq 7034 nəfər olmuşdur. Cins nisbəti hər 100 qıza 112 oğlan təşkil etmişdir. 2022-ci illə müqayisədə* ***2023-cü ildə cinslər arasındakı fərq azalmış, 7034-dən 7008-ə düşmüşdür.***

Bütün bunlar onu vurğulamağa əsas verir ki, cinsi ayrı seçkiliklə bağlı görülən tədbirlər, siyası təmsilçilik, iqtisadi sahədəki fəallıq, özəl və dövlət qurumlarında qərarvermə proseslərindəki bərabər iştirakla əlaqədar müşahidə edilən mövcud dinamika, gender bərabərliyinin təmin edilməsi istiqamətində aparılan davamlı fəaliyyətin nəticəsidir.

## *3.2 Qarşıya qoyulan vəzifələr və tövsiyələr*



***Gender siyasətinin gücləndirilməsi:***

- *"Azərbaycan Respublikasında Gender bərabərliyi üzrə 2025-2027-ci illər üçün Milli Fəaliyyət Planı"nın layihəsinin qəbul edilməsi;*
- *"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun icra mexanizmlərinin təkmilləşdirilməsi;*
- *Gender əsaslı büdcə siyasəti və praktikasının formalaşdırılması;*
- *İctimai həyatın bütün sahələrində, dövlət və özəl sektorda gender bərabərliyi mədəniyyətinin təbliği üzrə fəaliyyətlərin gücləndirilməsi;*
- *İctimai həyatın bütün sahələrində, dövlət və özəl sektorlarda idarəetmə və qərarqəbuletmə səviyyəsində qadınların kişilərlə bərabər təmsilçiliyinin artırılması;*
- *Siyasi partiyalarda gender bərabərliyinin qorunması, idarəetmə və qərar qəbuletmədə bərabər təmsilçilik və iştirakçılıq imkanlarının genişləndirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi;*
- *Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin gücləndirilməsi, xüsusilə də maarifləndirmə və məlumatlandırma işlərinin regionlarda daha geniş şəkildə aparılması.*

***Təhsil sahəsində:***

